AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

28 FEVRAL 2014-cü il CÜMƏ №044 (4917) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Dominikan Respublikasının Prezidenti Zati-aliləri cənab Danilo Medinaya

Hörmətli cənab Prezident,

Dominikan Respublikasının milli bayramı - Müstəqillik günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Dominikan Respublikası arasında münasibətlər dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı, 24 fevral 2014-cü il.**

## Z.M.Hüseynovun "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Zaur Mir Tofiq oğlu Hüseynov "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 27 fevral 2014-cü il.**

## "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Bakı Metropoliteninin və "Azərtunelmetrotikinti" Səhmdar Cəmiyyətinin yenidən təşkili yolu ilə səhmləri dövlətə məxsus "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra - Cəmiyyət) yaradılsın.

**2.** Cəmiyyət Bakı Metropolitenin və "Azərtunelmetrotikinti" Səhmdar Cəmiyyətinin hüquqi varisidir və onların bütün hüquq və öhdəlikləri, habelə əmlakı Cəmiyyətə keçmişdir.

**3.** Cəmiyyətdə səhmdarların ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakı dövlət orqanlarına həvalə edilsin:

*3.1.* Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

3.1.1. Cəmiyyətin Nizamnaməsinin və strukturunun təsdiqi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi;

3.1.2. Cəmiyyətin inkişaf istiqamətlərinin müəyyən edilməsi;

3.1.3. Cəmiyyətin törəmə müəssisələrinin, habelə idarə, filial və nümayəndəliklərinin rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verilməsi;

3.1.4. Cəmiyyətin illik hesabatlarının, mühasibat balanslarının, mənfəət və zərər hesablarının təsdiqi, mənfəətinin və zərərinin bölüşdürülməsi;

3.1.5. Cəmiyyətin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) bağlanmasına razılıq verilməsi;

3.1.6. bu Sərəncamda qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həll edilməsi.

*3.2.* Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə:

3.2.1. Cəmiyyətin törəmə müəssisələrinin, habelə idarə, filial və nümayəndəliklərinin yaradılmasına, yenidən təşkilinə və ya ləğvinə razılıq verilməsi;

**4.** Müəyyən edilsin ki, Cəmiyyətin sədrinin və onun müavinlərinin (İdarə Heyəti) vəzifəyə təyin və vəzifədən azad edilməsi, Cəmiyyətin yenidən təşkili və ləğvi məsələlərinin həll edilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*5.1.* Cəmiyyətin Nizamnaməsini və strukturunu Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq iki ay müddətində təsdiq etsin;

*5.2.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*5.3.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*5.4.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*5.5.* bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**6.** Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi öz fəaliyyət istiqamətlərinə uyğun olaraq Cəmiyyətin dövlət qeydiyyatına alınması üçün tədbirlər həyata keçirsinlər.

**7.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 27 fevral 2014-cü il.**

## "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, nəticədə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir.

Dövlət proqramlarının icra olunduğu 10 il ərzində ümumi daxili məhsul 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,6 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, investisiyalar 6,5 dəfə, əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əməkhaqqı 5,5 dəfə artmışdır.

Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 900 mini daimi olmaqla 1,2 milyondan çox yeni iş yeri, 55,6 min müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,3 faizə enmişdir. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, ölkədə növbəti illərdə iqtisadiyyatın diversifikasiyasının, qeyri-neft sektorunun və regionların inkişafının davamlılığının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması məqsədi ilə **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*2.1.* aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə Dövlət Proqramının icrasını təmin edən zəruri tədbirlər görsün;

*2.2.* Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə hər il üçün Dövlət İnvestisiya Proqramı tərtib edilərkən Dövlət Proqramında illər üzrə nəzərdə tutulan tədbirlərin icrasını təmin etsin;

*2.3.* Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi ilə birlikdə Dövlət Proqramının maliyyələşdirilməsinə investisiyaların cəlb edilməsi məqsədi ilə beynəlxalq maliyyə institutları, xarici ölkələrin müvafiq qurumları və iş adamları ilə danışıqlar aparsın;

*2.4.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin və onun icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 27 fevral 2014-cü il.**

## Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası olmuşdur

**Bakı, 27 fevral (AzərTAc).** Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun xüsusi konstitusiya icraatı üzrə növbəti açıq məhkəmə iclası keçirilmişdir.

İclasda L.Axundovanın şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2013-cü il 31 iyul tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxılmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim S.Həsənovanın məruzəsini, ərizəçinin və cavabverən orqanın nümayəndələrinin çıxışlarını dinləyib, işin materiallarını araşdırıb müzakirə edərək qərar qəbul etmişdir.

Qərarda deyilir ki, Ramin Axundovun Leyla Axundovaya qarşı nikahın etibarsız sayılması tələbinə dair mülki iş üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2013-cü il 31 iyul tarixli qərarı Azərbaycan Respublikası Konstitusiyasının 34-cü maddəsinin I və II hissələrinə, 60-cı maddəsinin I hissəsinə, Azərbaycan Respublikası Ailə Məcəlləsinin 26.1.4-cü maddəsinə, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 416-cı, 417.1.4-cü və 417.2-ci maddələrinin tələblərinə uyğun olmadığından qüvvədən düşmüş hesab edilsin. İşə bu Qərara uyğun olaraq Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və müddətdə yenidən baxılsın.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə, yaxud rəsmi təfsir oluna bilməz. ■

## Azərbaycanın BMT yanında daimi nümayəndəsi Xocalı soyqırımı ilə əlaqədar qurumun baş katibinə məktub göndərmişdir

**Bakı, 27 fevral (AzərTAc).** Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəsi, səfir Aqşin Mehdiyev Xocalı soyqırımı ilə bağlı reallıqların dünya ictimaiyyətinə çatdırılması məqsədilə qurumun baş katibi Pan Gi Muna məktub göndərmişdir.

Daimi nümayəndəlikdən bildirmişlər ki, məktubda 1992-ci ildə Xocalıda baş vermiş qanlı hadisələr barədə ətraflı məlumat verilmiş, dünya ictimaiyyətinin, beynəlxalq təşkilatların, media qurumlarının, habelə şahidlərin faciəyə verdiyi qiymət öz əksini tapmışdır. Həmin cinayətlərin ermənilər tərəfindən həyata keçirildiyi və bu günədək günahkar şəxslərin cəza almadıqları baş katibin diqqətinə çatdırılmışdır.

Fevral 25-də Xocalı faciəsi ilə bağlı eyni məzmunda hazırlanmış mətbuat məlumatı BMT-yə üzv dövlətlərin ünvanlarına göndərilmişdir.

Fevralın 26-da isə Xocalı soyqırımının 22-ci ildönümü ilə əlaqədar Azərbaycan Nyu-York Assosiasiyası, Amerika-Azərbaycan Qadınlar Assosiasiyası, Türkiyə-Amerika Assosiasiyası və Türk-Amerikan Assosiasiyaları Federasiyası ilə birlikdə iki etiraz aksiyası təşkil olunmuşdur.

Bu təşkilatların nümayəndələri Ermənistanın BMT yanında daimi nümayəndəliyi qarşısında toplaşaraq Ermənistanın işğalçı ölkə olduğunu əks etdirən transparantları ətrafda yığışmış əcnəbilərə nümayiş etdirmiş, Xocalıda törədilmiş faciə barədə insanlara məlumat vermişlər.

Daha sonra həmin təşkilatların nümayəndələri etiraz aksiyanı əvvəlcədən şəhər meriyasından alınmış icazə əsasında BMT-nin mənzil-qərargahı qarşısında davam etdirmişlər.

Tədbirə Nyu-Yorkda təhsil alan azərbaycanlı və türk tələbələr də iştirak etmişlər. ■

## ABŞ Konqresinin üzvləri Stiv Kohen və Virciniya Foks Xocalı faciəsi ilə bağlı bəyanatla çıxış etmişlər



**Vaşinqton, 27 fevral (AzərTAc).** ABŞ konqresmenləri Stiv Kohen və Virciniya Foks Konqresdə Xocalı faciəsinin 22-ci ildönümü ilə əlaqədar bəyanatla çıxış etmişlər.

Konqresdəki Azərbaycan üzrə İşçi Qrupun həmsədrlərindən olan Stiv Kohen bəyanatında Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Xocalı şəhərində törədilmiş faciə barədə məlumat vermiş və Dağlıq Qarabağın hazırda işğal altında olduğunu bəyan etmişdir. S.Kohen Azərbaycanın dünyanın önəmli bir regionunda ABŞ-ın güclü müttəfiqi olduğunu söyləmiş və rəsmi Vaşinqtonun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində fəal iştirakının vacibliyini vurğulamışdır.



Azərbaycan üzrə İşçi Qrupun digər üzvü Virciniya Foks bəyanatında Xocalı faciəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ən ağrılı günü olduğunu və ABŞ xalqının bu hadisəni yad etməsinin önəmini vurğulamışdır. ■

# Regionların inkişafında sahibkarlığın önəmi

### *Ötən 10 ildə ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi 80 faizi ötmüşdür*

**Azərbaycanda sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindən biridir. Ölkəmizdə sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsi, özəl sektora dövlət dəstəyinin artırılması, sahibkarların hüquqlarının müdafiəsi istiqamətində işlər uğurla davam etdirilir. Əvvəlki illərdə olduğu kimi 2013-cü ildə də sahibkarlığın maliyyə təminatı yaxşılaşmış, güzəştli kreditlərin həcmi artmışdır. İqtisadiyyatın müxtəlif sahələri üzrə 4468 sahibkara 275 milyon manat güzəştli kredit verilmişdir ki, bunun da 150 milyon manatını dövlət büdcəsindən ayrılmış vəsait təşkil edir. Dövlət başçısı İlham Əliyevin sahibkarlığın inkişafına verdiyi önəm və ölkəmizdə, o cümlədən regionlarda bu sahədə həyata keçirilən iqtisadi siyasət: biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, qanunvericilyin təkmilləşdirilməsi, stimullaşdırıcı şərtlərin və vergi güzəştlərinin tətbiqi sahibkarlığa dövlət dəstəyinin genişləndirilməsi regionların inkişafına böyük töhfələr verir.**

Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində dövlət başçısı İlham Əliyev sahibkarlara dəstəyin davam etdiriləcəyini vurğulayıb: "Burada rəqəmlər səsləndi ki, keçən il sahibkarlara güzəştli şərtlərlə 275 milyon manat kredit verilmişdir. Bu, həm də iqtisadiyyatımızın real sektoruna qoyulan əlavə sərmayədir. Çünki bu kreditlərin ancaq iqtisadiyyatın real sektoruna verilməsi nəzərdə tutulur. Eyni zamanda, bu, yerli sahibkarlığın inkişafı üçün də böyük dəstəkdir. Çünki həm bu pul vəsaitidir, eyni zamanda, İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən tərtib edilən tövsiyə proqramları da vardır ki, sahibkarlar onlardan da səmərəli şəkildə istifadə edirlər. Ancaq gəlirli sahələrə, gəlir gətirə biləcək layihələrə vəsaitin ayrılması nəzərdə tutulur. Məhz bunun nəticəsidir ki, verilən bütün kreditlər, demək olar, vaxtında qaytarılır. Bu gün Sahibkarlığa Kömək Milli Fondunun portfelində qaytarılmış kreditlər də önəmli bir hissə təşkil edir. Bu il biz Üçüncü Regional İnkişaf Proqramını qəbul edəcəyik. Keçən il ikinci proqram icra edilmişdir. Artıq onun icrası başa çatmışdır. Bu iki proqramın icrası, onların qəbul edilməsi, deyə bilərəm ki, bölgələrdə ciddi dönüşün yaranmasına səbəb olmuşdur. Biz bunu həm statistik göstəricilərdə, həm də həyatda əyani görürük. Bölgələr canlandı, abadlaşdı, müasir infrastruktur yaradıldı. O cümlədən sosial infrastruktur obyektlərinin tikintisi geniş vüsət almışdır".



Məlumat üçün bildirək ki, 2013-cü ildə iqtisadiyyata rekord səviyyədə sərmaye qoyulmuşdur. Dövlət əsaslı vəsait qoyuluşu da ən yüksək səviyyəyə çatmış, 7 milyard manat səviyyəsində vəsait yönəldilmişdir. Həmin vəsaitdən sosial-mədəni və məişət təyinatlı obyektlərin (elm, təhsil, səhiyyə, mədəniyyət, idman və s.) tikintisi və yenidən qurulması üçün 2 milyard 37 milyon manat, enerji, su və qaz təchizatı, nəqliyyat, kommunal, meliorasiya və digər infrastrukturların tikintisi və yenidən qurulması üçün 3 milyard 743 milyon manat, Naxçıvan Muxtar Respublikasında həyata keçirilən investisiya layihələrinin maliyyələşdirilməsi üçün 262 milyon manat, digər layihələrin maliyyələşdirilməsi üçün isə 873 milyon manat vəsait sərf edilmişdir.

**(davamı 3-cü səhifədə)**

28 fevral 2014-cü il RESPUBLİKA

# Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramının təqdimatı

***Bakı, 27 fevral (AzərTAc).*** *Xəbər verdiyimiz kimi, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Fondun məktəbəbəqədər təhsil müəssisələrinin inkişafı proqramının təqdimatı olmuşdur.*

*Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tədbirdə çıxış etmişdir.*

## Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın çıxışı

- Bu gün biz Azərbaycanda məktəbəqədər təhsil müəssisələrində mövcud vəziyyəti müzakirə edəcəyik. Ümidvaram ki, iclasımız səmərəli keçəcək və bu sahədə olan problemlərin həllinə müsbət təsir göstərəcəkdir.

Son illər ölkəmizdə baş verən sürətli iqtisadi yüksəliş həyatımızın bütün sahələrində özünü büruzə verir. Təhsil Azərbaycanın gələcəyi üçün strateji əhəmiyyət daşıyan bir sahədir. Təbiidir ki, bu sahəyə göstərilən diqqət ildən-ilə artır və artmalıdır. Dövlət qurumları tərəfindən atılan addımlar, təhsil sahəsinə ayrılan büdcə vəsaitlərinin bir neçə dəfə artırılması, respublika üzrə məktəb tikintisi və məktəblərin əsaslı təmiri, ən müasir avadanlıqla təmin olunması, hər bir məktəbdə kompyuter sinfinin yaradılması bunun sübutudur.

Son on il ərzində Azərbaycanda 2700 yeni məktəb binası inşa olunub və yaxud əsaslı təmir edilib. Görülən işlər nəticəsində respublika üzrə bir milyondan çox şagirdin təhsil alma şəraiti yaxşılaşıb və ümumiyyətlə, orta məktəb təhsilinin maddi-texniki səviyyəsi müasir tələblərə cavab verir.

Bildiyiniz kimi, 2005-ci ildə Heydər Əliyev Fondu tərəfindən "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinə start verildi və bu layihə çox uğurla icra olundu. Biz o zaman orta məktəblərdə olan problemləri cəmiyyətimizin diqqətinə çatdırdıq və qısa bir zamanda vətəndaş cəmiyyətinin müxtəlif strukturları, özəl sektor, iş adamları bu proqramı dəstəkləməyə başladılar.

Bu gün ölkəmizdə sahibkarlıq çox sürətlə inkişaf edir. Dövlət biznes strukturlarına həm siyasi, həm maliyyə dəstəyi göstərir. Azərbaycan şirkətləri böyük infrastruktur layihələrinin icrasına cəlb olunur. Son on il ərzində dövlət tərəfindən sahibkarlara bir milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilib. Növbəti beş ildə güzəştli şərtlərlə bir milyard yarım manatadək kredit verilməsi gözlənilir. Belə olan halda, əlbəttə, biznes strukturlarının sosial məsuliyyəti artmalıdır.

Mən hesab edirəm ki, ölkəmizdə hər bir iş adamı mövcud sosial problemlərin həllində iştirak etməyə çalışmalıdır. Məktəb tikintisində bu müsbət meyillər özünü çox açıq göstərdi və biznes strukturları ilə, özəl sektorla Heydər Əliyev Fondunun birgə səyləri nəticəsində qısa bir zamanda Azərbaycanda 412 yeni məktəb binası inşa olundu. Hər bir yeni məktəbdə idman meydançası yaradıldı, kompyuter sinifləri açıldı, üzgüçülük hovuzu da tikildi. Hər bir belə məktəb ən müasir avadanlıqla, müxtəlif dərsliklərlə və ədəbiyyatla təmin edildi.

Azərbaycan dövləti öz növbəsində məktəb tikintisini dəstəklədi və beləliklə qeyd etdiyim kimi, son 10 ildə Azərbaycanda 2 min 700 yeni məktəb binası tikildi və ya təmir olundu. Yararsız vəziyyətdə olan bütün məktəblər üçüncü regional İnkişaf Proqramı çərçivəsində təmir ediləcəkdir. Artıq ölkəmizdə köhnə, təmirsiz, təhsil almaq üçün normal şəraiti olmayan məktəb qalmayacaqdır.

O vaxt Heydər Əliyev Fondu "Uşaq evləri və internat məktəblərinə dəstək" layihəsinə start verdi. Bu layihə çərçivəsində ölkəmizdə 32 uşaq evi və internat məktəbi ən müasir standartlara uyğun olaraq təmir edildi. Biz bu layihənin də icrasında ölkəmizdəki özəl sektor ilə çox gözəl işbirliyi yaratmışdıq.

Heydər Əliyev Fondu bu gün öz təcrübəsinə əsaslanaraq yeni böyük bir layihəyə - Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramına start verir. Bu gün bu sahəyə diqqətimiz artmalıdır. Ölkəmizdə uşaq bağçalarının tikintisinə çox böyük ehtiyac vardır. Uşaqlar, demək olar ki, günün yarısını bağçada keçirirlər. Bu təhsil ocaqlarında olan şərait, orada uşaqlarımızın aldıqları tərbiyənin keyfiyyəti, hökm sürən ab-hava çox vacibdir. Uşaqların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması məhz bu müəssisələrdə formalaşır. Belə olan halda, əlbəttə, biz təhsilin bu sektoruna daha böyük diqqətlə yanaşmalıyıq.

Bu gün ölkəmizdə fəaliyyət göstərən uşaq bağçalarının əksəriyyəti sovet dövründə tikilmişdir. O zamandan bu günə qədər Azərbaycanda əhalinin sayı 25-30 faiz artmışdır. Mövcud bağçalar tələbatı ödəmir. Onlar tələbatı təxminən 18-20 faiz səviyyəsində ödəyir. Onu da nəzərə almalıyıq ki, son 10 il ərzində ölkəmizdə 1 milyon 200 min yeni iş yeri açılmışdır və bu gün bir çox ailələrdə valideynlərin ikisi də işləyir. Bu fakt özlüyündə yeni uşaq bağçalarının sayının artmasını tələb edir. Bu sahədə olan problemlərin həllinin cəmiyyətimiz üçün vacibliyini nəzərə alaraq mənim tapşırığımla Heydər Əliyev Fondunun mütəxəssisləri tərəfindən məktəbəqədər təhsil ocaqlarının mövcud vəziyyəti ilə bağlı araşdırmalar aparılmış və bir neçə ay davam edən bu işin nəticəsi üzrə geniş məlumat bazası yaradılmışdır. Qeyd etməliyəm ki, ilkin mərhələdə bu monitorinq yalnız Bakı şəhərində aparılmışdır. Gələcəkdə həmin iş respublika üzrə də aparılacaqdır. Bir qədər sonra Heydər Əliyev Fondunun eksperti monitorinqin nəticələrini sizin diqqətinizə çatdıracaqdır.

Zənnimcə, gələcək fəaliyyətimiz bir neçə istiqamət üzrə qurulmalıdır. Ölkəmizdə təmirə ehtiyacı







olan bütün bağçalarda təmir işləri aparılmalıdır.

Artan tələbatı ödəmək üçün yeni bağçalar tikilməlidir. Yeni bağçalar mövcud bağçaların ərazilərində tikilməlidir. Məndə olan məlumata görə, bağçaların bir çoxu böyük ərazidə yerləşir və geniş tikinti üçün imkanlar vardır. Eyni zamanda, yeni torpaq sahələri ayrılmalıdır ki, təzə bağçalar tikilsin. Təmirlə bağlı, dediyim kimi, bu bağçaların əksəriyyəti keçən əsrin təxminən 30-40-50-ci illərində inşa olunmuşdur. Bəzi hallarda təmirin əvəzinə yeni bağçanın tikintisi daha səmərəlidir. Heydər Əliyev Fondu artıq bir neçə ildir bağça problemi ilə məşğul olur. Bu illər ərzində Heydər Əliyev Fondu tərəfindən ölkəmizdə 20 yeni uşaq bağçası inşa edilib. Biz belə hallarla tez-tez üzləşirik. Bəzi hallarda yeni bağçanın tikintisi təmirdən daha sərfəlidir.

Azərbaycanda özəl bağçalar mövcuddur. Onların sayının artırılması da dəstəklənməlidir. Uşaq bağçalarında məktəbəqədər hazırlıq prosesi yüksək səviyyədə təşkil edilməlidir. Uşaqların sağlamlığı çox vacib məsələdir. Bu bağçalarda uşaqları ən keyfiyyətli yeməklə təmin etmək lazımdır. Tibbi xidmət də ən yüksək səviyyədə olmalıdır.

Bir məsələni xüsusi qeyd etmək istərdim. Bizim monitorinqimiz göstərdi ki, bu gün Bakıda 124 uşaq bağçasında məcburi köçkünlər yerləşiblər. Ölkəmizin ən böyük problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi təhsil sisteminə də böyük zərbə vurub. Qaçqın və məcburi köçkün ailələrində böyüyən uşaqların təhsil məsələləri daim dövlətin, həmçinin Heydər Əliyev Fondunun diqqət mərkəzində olub. Eyni zamanda, onu da qeyd etmək istərdim ki, biz bu sahədə nadir təcrübə əldə etmişik. Çünki işğala məruz qalan torpaqlarda işğaldan əvvəl mövcud olan bütün təhsil infrastrukturu qorunub saxlanılıb. Bu, özlüyündə çox nadir bir təcrübədir. Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması Dövlət Proqramı uğurla icra edilir. Təkcə son il ərzində 28 min məcburi köçkün yeni evlərə köçürülmüşdür. Bu qəbildən olan ailələr üçün yeni evlər, mənzillər inşa olunur. Mən ümidvaram ki, bizim bu təşəbbüsümüz məcburi köçkünlərin uşaq bağçalarından yeni evlərə köçürülməsi prosesinə də müsbət təsir göstərəcəkdir.

Beləliklə, bu gün məktəbəqədər təhsil ocaqlarının inkişafı ilə bağlı böyük layihəyə start verilir. Ümidvaram ki, Heydər Əliyev Fondu tərəfindən icra edilən digər layihələr kimi, bu layihə də uğurlu olacaq, ölkəmizdə sosial problemlərin həllinə öz köməyini göstərəcəkdir.

* * *

Sonra Fondun apardığı monitorinqin nəticələri təqdim olundu.

Təqdimatda Bakı şəhəri üzrə məktəbəqədər təhsil müəssisələri haqqında geniş məlumat verildi. Bildirildi ki, Heydər Əliyev Fondunun prezidentinin tapşırığına əsasən Bakı şəhəri üzrə mövcud məktəbəqədər təhsil müəssisələrinin vəziyyəti və bu sahəyə olan tələbatın öyrənilməsi məqsədi ilə Fondda işçi qrupu yaradılmışdır. İşçi qrupu tərəfindən Bakı şəhərində yerləşən məktəbəqədər təhsil müəssisələrində monitorinq aparılmışdır. Monitorinq zamanı müəssisələrə fərdi baxış keçirilmiş, zəruri məlumatlar toplanılmış və fotoşəkillər çəkilmişdir. Həmçinin Bakı Şəhəri İcra Hakimiyyəti, Bakı şəhərinin rayon icra hakimiyyətləri, Təhsil Nazirliyi, Dövlət Statistika Komitəsi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən əldə olunmuş məlumatlardan istifadə edilməklə təhlil aparılmış, məktəbəqədər təhsil müəssisələrinin yerləşmə xəritəsi və elektron məlumat bazası hazırlanmışdır.

Sonra elektron xəritə əsasında hazırlanmış məlumat bazası təqdim edilmişdir.

Bildirilmişdir ki, monitorinq zamanı Bakı şəhərində 411 məktəbəqədər təhsil müəssisəsinin olduğu müəyyən edilmişdir. Onlardan 345-i dövlət, 54-ü özəl, 12-si isə müxtəlif müəssisə və təşkilatların tabeçiliyində fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələridir. Müəyyən edilmişdir ki, Bakı şəhəri üzrə mövcud dövlət məktəbəqədər təhsil müəssisələrindən 137-nin əsaslı təmir olunmasına ehtiyac vardır. O cümlədən bu müəssisələrdən 11-i qəzalı və ya istismara tam yarasız vəziyyətdə olduğu üçün müvafiq dövlət qurumları tərəfindən fəaliyyəti dayandırılmışdır. Hazırda 33 uşaq bağçası təmir olunmaqdadır. Məlumat bazası Bakı şəhərindəki bütün məktəbəqədər təhsil müəssisələrini əhatə edir. İstifadə üçün müvafiq dövlət qurumları, beynəlxalq təşkilatlar və sahibkarlara təqdim oluna bilər.

* * *



**Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli HƏSƏNOV dedi:**

- Hörmətli Mehriban xanım.

Hörmətli tədbir iştirakçıları.

Azərbaycanın birinci xanımı hörmətli Mehriban Əliyevanın rəhbərliyi altında keçirilən bu tədbir ölkəmizin bu günü, gələcəyi üçün çox vacibdir. İndi xatırlayıram, ötən əsrin 70-ci illərinin axırı - 80-ci illərinin əvvəllərində Sumqayıt şəhərində bu sahəyə katib kimi mən nəzarət edirdim. Hələ biz o vaxt belə bir proqram hazırlamışdıq - uşaq bağçası, orta məktəb və ali təhsil müəssisəsi. Bu üç təhsil ocağının birgə fəaliyyətinə bir orqanizm kimi yanaşırdıq. Orta məktəbə gələn uşaqlarda biliklərin bünövrəsi bağçalarda qoyulurdu.

Hörmətli Mehriban xanım, bu gün Sizin diqqət yetirdiyiniz bu sahə həqiqətən həyati vacib bir məsələdir. Belə bir sosioloji sorğu aparmışdıq, evlərdə tərbiyə alıb birbaşa məktəbə gedən uşaqlar və bağçalarda tərbiyə alıb məktəbə gedən uşaqlar. Hər kateqoriya üzrə 50 uşaq seçmişdik. Həm tərbiyədə, həm fiziki, həm də zehni hazırlıqda fərq böyük idi. Ona görə ulu öndər Heydər Əliyev deyirdi ki, gənclər bizim gələcəyimizdir, təhsilə də o cür yanaşırdı, təhsili gələcəyimiz kimi qiymətləndirirdi. Bünövrəsi ulu öndər Heydər Əliyev tərəfindən qoyulan bu siyasəti Prezident İlham Əliyev, Mehriban xanım, şəxsən Siz bu gün çox uğurla həyata keçirirsiniz. Mən bunu qeyd etməyi özümə borc bilirəm ki, dünya ölkələrinin birinci xanımları içərisində Siz öz ölkəsinin Prezidentinə, öz dövlətinə, öz xalqına, millətinə kömək edən birinci xanımsınız. Siz Azərbaycan elminin, təhsilinin, səhiyyəsinin, mədəniyyətinin inkişafına böyük töhfələr verirsiniz. Siz Azərbaycan qadınlarını bütün dünyada ləyaqətlə təmsil edirsiniz.

Ona görə bu gün müzakirə olunan məsələnin vacibliyini dərk edərək, mənə həvalə olunmuş sahədə Prezidentimizin fərman və sərəncamlarını, xüsusi tapşırıqlarını yüksək səviyyədə həyata keçirməyə çalışıram. Son 10 ildə bizə ayrılmış vəsait çərçivəsində tikilmiş 83 müasir qəsəbə və şəhərcikdə 28 min şagird yerlik 140 orta məktəb binası inşa olunubdur. Beynəlxalq humanitar təşkilatların vəsaiti hesabına isə 130 məktəb binasını təmir etmişik. Həmin qəsəbələrdə 50 müasir uşaq bağçası tikilib, 44 bağça isə təmir olunubdur. Azərbaycan Prezidenti İlham Əliyev ilə birlikdə Siz həmin qəsəbələrin əksəriyyətinin açılışlarında iştirak etmisiniz, məktəblərin, bağçaların yüksək səviyyədə tikilməsinin və təminatının şahid olmusunuz.

Siz qeyd etdiniz, Ermənistanın təcavüzü nəticəsində ərazilərimizin 20 faizi işğala məruz qalıb, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkünə çevrilib. Ovaxtkı hakimiyyətin səriştəsizliyi ucbatından bu insanların özləri hara gəldi, necə gəldi yerləşiblər. Yəni qaçqın və məcburi köçkünlərin yerləşdirilməsi üçün heç bir sistem, heç bir mexanizm, idarəçilik olmayıbdır. Onları mərkəzləşmiş qaydada yerləşdirə bilməyiblər. Bu insanlar harada boş yer görürdülərsə, orada da yerləşirdilər. O cümlədən, məktəb və bağçalarda da yerləşiblər. Məlumat üçün bildirirəm ki, ölkə üzrə 262 məktəbdə 2 min 800 ailə yerləşmişdir. Son 10 ildə Prezidentin tapşırığı ilə 1800 ailəni artıq məktəblərdən köçürmüşük. Mən xüsusi qeyd etmək istəyirəm ki, Mingəçevirdə, Bərdədə, Ağdamda - 2 rayon, 1 şəhərdə bütün məktəb və bağçalarda köçkünlər yaşayırdı. Artıq biz həmin rayonların və şəhərin bütün məktəblərini, bağçalarını boşaltmışıq. Bakı şəhərində 16 məktəbdə 55 ailə yerləşibdir. Hələlik onlardan 6-nı köçürmüşük. Ölkə üzrə 202 bağçada 3 min 260 ailə yerləşibdir. Prezidentin tapşırığı ilə son vaxtlar biz 540 ailəni artıq bağçalardan köçürmüşük. Bakı şəhərində 133 bağçada yerləşmişdilər. Artıq 50 bağçada yaşan məcburi köçkünləri yeni qəsəbələrə köçürmüşük. Hazırda bütün respublika üzrə məktəblərdə 1000 ailə, Bakıda isə 49 ailə qalıbdır. Bağçalarda bu gün bütün respublika üzrə 2 min 720 ailə yaşayır.

Azərbaycan Prezidentinin tapşırığı ilə köçürmə zamanı biz ilk növbədə, məhz təhsil ocaqlarını boşaldırıq. Yəqin, bugünkü tədbirin də əhəmiyyətini, Sizin tövsiyələrinizi nəzərə alaraq hesab edirəm ki, Bakı şəhərində bağçalarda yaşayan ailələri yaxın 2 ayda mütləq yeni mənzillərə köçürəcəyik. Bu proses davam edəcəkdir. Təhsil Nazirliyinə, təhsil müəssisələrimizə lazım olan müddətdə də qalan bağçalarda məskunlaşmış məcburi köçkün ailələri yeni mənzillərə köçürüləcəkdir.

Diqqətinizə görə sağ olun.

* * *



**Təhsil naziri Mikayıl CABBAROV çıxış edərək dedi:**

-Çox hörmətli Mehriban xanım.

Hörmətli tədbir iştirakçıları.

Əvvəlcə bütün təhsil ictimaiyyəti adından Heydər Əliyev Fonduna və onun prezidenti xanım Mehriban Əliyevaya məktəbəqədər təhsilin daha da inkişaf etdirilməsi və kütləvi xarakter alması məqsədlərinə xidmət edən yeni təşəbbüsünə görə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Məktəbəqədər təhsil müasir dünyada insanı şəxsiyyət kimi formalaşdıran bünövrədir. O, təhsilin ilk və ən vacib pilləsi olmaqla uşaqların erkən yaş dövründən həmyaşıdları ilə ünsiyyət qurmaq, cəmiyyətə inteqrasiya olunmaq, təfəkkürün və ilkin həyati biliklərin yaranmasını, məktəb təliminə hazırlığı, təbiətə və insanlara həssas münasibətin formalaşmasını təmin edir. Bu mərhələdə uşağın aldığı biliklər onun gələcək təhsilə münasibətini və potensialını şərtləndirir.

Danılmaz həqiqətdir ki, maddi sərvətlərin insan kapitalına çevrilməsinin təməli məhz məktəbəqədər təhsildə qoyulur. Təhsil Nazirliyi tərəfindən aparılmış milli qiymətləndirmə tədqiqatları da sübut edir ki, məktəbəqədər təhsil müəssisələrinə getmiş şagirdlər ibtidai sinifdə daha yuxarı nəticələr göstərirlər. Məndən öncə çıxış edən natiqlər bunu vurğuladılar. Dövlət sərmayələrinin səmərəliliyini təhlil edərkən Avropa İqtisadi Əməkdaşlıq Təşkilatının məlumatına əsasən, ölkənin uzunmüddətli iqtisadi inkişafına daha çox müsbət səmərə verən bütün təhsil pillələrindən ən yüksək təsir edən məhz məktəbəqədər təhsil hazırlığıdır. Lakin bəzi valideynlər məktəbəqədər təhsilin əhəmiyyətini kifayət qədər dərk etmir, övladlarını evdə tərbiyə etməyə üstünlük verirlər. Bu da uşaqları zəruri tərbiyə, təlim və inkişafyönümlü tədbirlərdən təcrid edir. Təqdirəlayiq haldır ki, son illərdə bu sahədə müəyyən irəliləyişlərə nail olunmuş, məktəbəqədər təhsil müəssisələrində təlim şəraiti yaxşılaşdıqca, şəbəkə genişləndikcə, valideynlərin də düşüncələrində müsbət dəyişikliklər baş vermiş, daha çox valideyn övladını məktəbəqədər təhsilə cəlb etməyə maraq göstərməyə başlamışdır.

Hazırda respublikamızda təhsilin bütün sahələrinə, o cümlədən məktəbəqədər təhsilə dövlətimiz və dövlətimizin başçısı tərəfindən xüsusi diqqət və qayğı göstərilir, çoxsaylı dövlət proqramları həyata keçirilir. Məktəbəqədər təhsil sahəsində mövcud olan problemlərin aradan qaldırılması, təhsilin müasir tələblər səviyyəsində qurulmasının təmin olunması istiqamətində kompleks tədbirlər yerinə yetirilir. Məktəbəqədər təhsil müəssisələrinin Təhsil Nazirliyi ilə birbaşa tabeçilik münasibətlərinin olmamasına baxmayaraq, son 10 ayda nazirlik ümumtəhsil məktəblərində məktəbə hazırlıq qruplarının yaranmasını dəstəkləyən addımlar atmışdır. Belə ki, bu qruplarda məşğul olmuş uşaqların vaxtından əvvəl birinci sinfə müsahibəsiz qəbul olunması barədə qərar qəbul edilmişdir.

Dövlət məktəbəqədər təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi ilə yanaşı, Mehriban xanım, sizin də vurğuladığınız kimi, özəl sektorun da inkişafı böyük əhəmiyyət kəsb edir. Yeni qəbul olunmuş qanuna əsasən, 2014-cü il yanvarın 1-dən başlayaraq 10 il müddətinə məktəbəqədər təhsil müəssisələri, Vergi Məcəlləsi ilə müəyyən edilmiş hüquqi şəxslər mənfəət vergisini və sadələşdirilmiş vergini ödəməkdən azad edilirlər. Bu isə uşaqların intellektual, fiziki və psixoloji inkişafı üçün lazımi şəraitin yaradılmasını təmin etmək və bu sahədə sahibkarlığın inkişafını stimullaşdırmaq məqsədi daşıyır.

Təhsil Nazirliyi özəl investisiyaların cəlb edilməsinin əhəmiyyətini dərk edərək, bu sahədə fəaliyyət göstərmək üçün müraciət edən fiziki və hüquqi şəxslərə lisenziya verilməsi prosedurlarını təkmilləşdirmiş və hazırda lisenziya əsasında fəaliyyət göstərən özəl məktəbəqədər təhsil müəssisələrinin sayı artmışdır.

Beynəlxalq əməkdaşlıq səviyyəsində də məktəbəqədər təhsil tədricən ön plana çıxır. Belə ki, Azərbaycanın Avropa İttifaqı ilə 2014-2017-ci illəri əhatə edən birgə fəaliyyət proqramında təhsil məsələləri, xüsusilə məktəbəqədər təhsil prioritet istiqamət kimi müəyyən edilmişdir. UNİCEF ilə əməkdaşlıqda da bu sahəyə xüsusi diqqət yetirilir.

Məktəbəqədər təhsil pilləsinin yaxşılaşdırılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi ölkənin gələcək inkişafı baxımından çox vacibdir. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" məktəbəqədər təhsilin inkişaf etdirilməsinə yönəlmiş bir sıra hədəfləri - məktəbə hazırlıq təhsilinin bir il icbariliyinin təmin olunmasını, erkən yaşlı uşaqların məktəbəqədər təhsillə əhatəsinin 90 faiz səviyyəsinə çatdırılmasını, qabaqcıl beynəlxalq təcrübə əsasında məktəbəqədər təhsil üzrə pedaqoji və idarəetmə heyətinin müstəqil sertifikatlaşdırma sisteminin yaradılmasını, məktəbəqədər yaşlı uşaqların fiziki və əqli inkişafını, sosiallaşmanı təmin edən, yaradıcılıq qabiliyyətlərini üzə çıxaran, onlarda həyati bilik və bacarıqları, davranış qaydalarını aşılayan təhsil standartlarının və yeni kurrikulumların hazırlanmasını özündə ehtiva edir.

Bu gün ölkəmizdə məktəbəqədər təhsil sahəsində görülmüş müsbət işlərlə yanaşı, həllini gözləyən bir sıra problemlər də mövcuddur və bu problemləri 3 əsas hissəyə ayırmaq olar - məzmun, müəllim və infrastruktur. Məzmun dedikdə, hazırda uşaq bağçaları təhsil müəssisələrindən daha çox obrazla desək, saxlama kameraları, yəni uşağa baxım müəssisəsi kimi qəbul edilir. Uşağa qulluq, qidalanma və uşaqla vaxt keçirmə məsələləri tədris və tərbiyə komponentlərini kölgədə qoymuşdur. Təbii olaraq, bu amil müəllim-pedaqoji kadrların hazırlığı ilə bilavasitə əlaqəlidir. Bu sahə günün tələblərindən geri qalır və vəziyyətin yaxşılaşdırılması nazirliyimizin prioritetlərindən biridir. Hazırda respublika üzrə məktəbəqədər təhsil müəssisələrində 14 min 614 pedaqoji işçi çalışır. Lakin son illərdə onların ixtisasının artırılması, müasir metodikalar üzrə təlimatlandırılması, kurikulum əsasında hazırlanması müəyyən mənada unudulmuşdur.

İnfrastruktura gəldikdə, Mehriban xanım, siz çox geniş məlumat verdiniz, mən təkrarlamayacam və ona görə bu mənada Heydər Əliyev Fondunun respublikanın bütün yaşayış məntəqələrində kütləvi şəkildə yeni uşaq bağçalarının inşası sayəsində erkən yaşlı uşaqların məktəbəqədər təhsillə əhatəsinin kəskin artırılması barədə təşəbbüsü bu sahədə də köklü dəyişikliklərə səbəb olacağını deməyə əsas verir.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

(davamı 3-cü səhifədə)

# Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramının təqdimatı

(əvvəli 2-ci səhifədə)



**Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala ABUTALİBOV dedi:**

- Çox hörmətli Mehriban xanım.

Sizin rəhbərliyinizlə keçirilən bugünkü tədbiri və qarşıya qoyulan vəzifələri çox yüksək təqdir edirəm. Əminəm ki, bunun nəticəsi tez bir zamanda özünü əyani surətdə göstərəcəkdir. Hazırda Bakı şəhərindəki 343 məktəbəqədər təhsil müəssisəsindən 301-i 2011-ci ilin dekabrında Təhsil Nazirliyinin tabeliyindən alınmışdır. 39 bağça isə 2012-ci ilin avqustunda Dövlət Neft Şirkətinin tabeliyindən alınmışdır. Başqa sözlə, bu gün 345 müəssisə tam fəaliyyətdədir. Bu müəssisələrdə 36.977 uşaq təlim-tərbiyə alır. Bu günə qədər 345 məktəbəqədər təhsil müəssisəsindən 174-ü iki il ərzində dövlət vəsaiti hesabına tam təmir olunmuş və təminat məsələsi yüksək səviyyədə həll edilmişdir. Bu bağçalarda uşaqlar gündə 4 dəfə təzə ərzaq məhsullarından hazırlanmış yeməklə təmin edilirlər.

Bu il 34 bağça tam təmir olunub istifadəyə veriləcəkdir. Bundan başqa, bu gün 166 qrupda uşaqların qəbulu tam azaddır. Maliyyə Nazirliyindən verilən məlumata görə, gələn həftənin axırına qədər həmin qruplar müəyyənləşəndən, yəni maliyyə yardımı alınandan sonra 2500-dək uşağı biz yenidən bağçalara qəbul edə biləcəyik. Lakın statistika məlumatına görə, bu gün 1 yaşından 5 yaşına qədər 157.349 uşaq bağça gözləyir. Başqa sözlə, 1 yaşından 5 yaşına qədər uşaqların yalnız 23 faizdən çoxu bağçalarda təhsil alır. Bir məsələni də diqqətinizə çatdırım ki, hazırda 48 özəlləşdirilmiş məktəbəqədər təhsil müəssisəmiz vardır. Onlardan yalnız 9-u fəaliyyət göstərir, qalanları isə boşdur. Sizə dərin minnətdarlığımı bildirirəm ki, özəlləşməyə açıq elan edilmiş 64 bağçanın özəlləşdirilməsi Sizin təşəbbüsünüzlə möhtərəm Prezidentimiz tərəfindən dayandırıldı. Bu bağçalarda artıq təmir işlərinə başlanılıb. Əgər bu bağçaların, həmçinin qaçqın və məcburi köçkünlərin yaşadıqları bağçaların hamısını təmir etsək, bizdə 402 bağça olacaqdır. Deməli, 1 yaşından 5 yaşına qədər uşaqların builki statistikasını nəzərə alsaq və əgər 6 qruplu bağçalar tiksək, bizim 1105 bağçaya ehtiyacımız vardır. Əgər 4 qruplu bağçalar tiksək, söhbət 1505 bağçadan gedəcək.

Sizin böyük təşəbbüsünüz nəticəsində möhtərəm Prezidentimizin verdiyi tapşırığa əsasən, bağçaların ərazisində qeyri-qanuni tikililərin hamısı ləğv edilib. Hazırda faktiki olaraq bağçalarda ən azı 1 və ya 1,5 hektar boş torpaq sahələrimiz vardır. Burada yeni bağçalar tikmək mümkündür. Əgər bu bağçaları da tiksək, mövcud bağçalarla birlikdə uşaqların 70-75 faizə qədərini təmin etmiş olarıq. Qalır 25 faiz, bunu da yeni bağçalar tikməklə problemi həll edə bilərik.

Bugünkü tədbirin uşaqlarımızın yüksək təlim-tərbiyə almasında mühüm rolu olacaqdır. Bu təşəbbüsünüzə görə Sizə və Heydər Əliyev Fonduna dərin minnətdarlığımı bildirirəm.

Sağ olun.

* * *



**UNİCEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mark HERVORD dedi:**

- Hörmətli Mehriban xanım Əliyeva.

Xanımlar və cənablar.

Bu gün burada olmaq mənim üçün böyük şərəfdir.

Bu yeni təşəbbüs Azərbaycanda yeni bir dalğanın başlanğıcıdır. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə uşaqlara kömək məqsədilə həyata keçirilən böyük bir təşəbbüsə qoşulmaq mənim üçün, doğrudan da, çox fəxarətlidir. Biz hamımız bilirik ki, erkən təhsil nə qədər vacibdir. Bildiyimiz kimi, Nobel mükafatı laureatı iqtisadçı Ceyms Hekman müəyyən etmişdir ki, erkən təhsilə qoyulan investisiya daha çox gəlir gətirir, nəinki təhsilin digər mərhələlərində qoyulan investisiya. UNİCEF-in hesablamalarına görə, bütün uşaqlar üçün erkən təhsilə qoyulan investisiyanın iqtisadi gəlirliyi ildə 150 milyon manatdır. Bu, həm də iqtisadiyyatın inkişafı üçün yaxşı bir amildir. Ona görə də belə bir təşəbbüsə qoşulmağımıza çox şadıq.

Mən erkən məktəbəqədər təhsillə bağlı bir misal gətirmək istəyirəm. Yəni bəzi ailələr şəhərdə, bəziləri rayonda yaşayır, bəzilərində hər iki valideyn işləyir. Erkən təhsillə bağlı müxtəlif formalar fikirləşmək lazımdır. Cənab nazir də vurğuladığı kimi, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası məhz uşaqların 90 faizinin məktəbəqədər təhsilə cəlb olunmasını nəzərdə tutur. Mən erkən məktəbəqədər təhsili paxlavaya bənzədirəm. Çünki mənim çox xoşladığım paxlava bir neçə qatdan ibarətdir. Təhsil də bir neçə mərhələdən ibarətdir. Paxlavanın ən üst qatı daha dadlı olduğu kimi, məktəbəqədər təlim-tərbiyə də təhsilin çox əhəmiyyətli mərhələsidir.

Biz bu yaxınlarda nazirliklə bir neçə formanı müzakirə etmişik. Çalışırıq ki, 2020 Konsepsiyasına daha uyğun olanını seçək. Mehriban xanımın rəhbərliyi ilə həyata keçirilən digər layihələrdən çıxış edərək deyə bilərəm ki, yeni bağçalar çox gözəl tikiləcəkdir. Bu gün müzakirə etdiyimiz məsələ övladlarımızın, o cümlədən əlilliyi olan uşaqların gələcəyi üçün çox gözəl başlanğıc olacaqdır. Çünki bu qəbildən uşaqlar da inklüziv təhsil olan bağçadan başlamalıdırlar.

Məni dəvət etdiyiniz üçün bir daha təşəkkürümü bildirirəm. Bu yeni təşəbbüsünüzdə sizə uğurlar arzu edirəm.

Sağ olun.

* * *

**Təqdimata yekun vuran Mehriban ƏLİYEVA dedi:**

- Hörmətli iclas iştirakçıları.

Əminəm ki, çıxışlarda səslənən fikirlər, təkliflər nəzərə alınacaqdır. Bu gün səslənən çıxışlarda da qeyd olundu ki, erkən təhsil hər bir gəncin, hər bir insanın həyatında çox vacib rol oynayır. Biz bu gün, ümumiyyətlə təhsildən, gənc nəsildən, uşaqlarımızdan danışırıqsa, aydın başa düşürük ki, ölkəmizin gələcəyindən danışırıq. Azərbaycanın sabahını, gələcəyini bu uşaqlar təmin edəcəklər. Ona görə də bu gün bizim borcumuz ondan ibarətdir ki, bu uşaqlara gözəl tərbiyə, təhsil verək, onları vətənpərvər böyüdək. Onlar öz vətənlərinə bağlı olmalıdırlar, Azərbaycanın dəyərlərini, ənənələrini qoruyub saxlamalıdırlar. Eyni zamanda, onlar bütün dünyaya açıq olmalıdırlar. Çünki indi müasir dünya elədir ki, hər bir insan gərək çox yüksək səviyyədə təhsil alsın, müxtəlif insanlarla ünsiyyət qurmağı bacarsın, dünyaya açıq olsun, bir çox xarici dillərdə danışsın. Yəni bizim istəyimiz ondan ibarətdir ki, gələcək nəsillər məhz belə şəraitdə böyüsünlər. Əlbəttə, bunu etmək üçün bir çox şərtlər lazımdır. Bu, asan deyildir. Biz müstəqil ölkə kimi çox gənc ölkəyik. Amma biz bu qısa zamanda böyük nailiyyətlər əldə etmişik. İnanıram ki, biz yaxın gələcəkdə təhsil sahəsində də dəyişiklikləri, böyük nailiyyətləri görəcəyik. Çünki bir daha qeyd etmək istəyirəm ki, təhsil hər bir ölkə, o cümlədən gənc müstəqil Azərbaycan üçün çox vacib, strateji sahədir. Ona görə, qeyd etdiyim kimi, bu gün biz birlikdə yeni, çox vacib bir layihəyə - məktəbəqədər təhsil ocaqlarının inkişafı layihəsinə start veririk. Biz mövcud vəziyyəti burada eşitdik. Səslənən faktlar onu deyir ki, ölkədə uşaq bağçalarının tikintisinə böyük ehtiyac vardır, tələbatın cəmi 23 faizi ödənilir. Əlbəttə, bir çox uşaqlar erkən təhsil almaq imkanından kənarda qalır. Ona görə, mən inanıram ki, Heydər Əliyev Fondunun digər təşəbbüsləri, proqramları kimi, bu proqram da uğurlu olacaqdır. Qısa zamanda həm Fondun, həm dövlət qurumlarının, həm də özəl sektorun birgə səyləri nəticəsində biz bu istiqamətdə yaxşılığa doğru dəyişiklikləri görəcəyik.

Mən UNİCEF-ə minnətdarlığımı çatdırıram. Çünki bu təşkilat böyük təcrübəyə malikdir. Biz, əlbəttə, gərək bunu da özümüz üçün qeyd edək. Onlara da dəstəklərinə görə təşəkkürümü bildirirəm. Bir sözlə, biz Fond olaraq hər bir əməkdaşlığa hazırıq. Mən bir daha üzümü özəl sektora, sahibkarlara tuturam. Qeyd etmək istəyirəm ki, bizim Fondla sizin birgə layihələrimizin nəticələrini təqdim etdim. Doğrudan da biz çox səmərəli işbirliyi yaradırıq. Əminəm ki, siz bu layihəyə də qatılacaqsınız. Ölkəmizin problemlərinin həllində iştirak etmək, mənə elə gəlir ki, bizim hər birimizin borcudur.

Bu il mayın 10-da Heydər Əliyev Fondunun 10 ili tamam olur. Bu illər ərzində, əlbəttə, Heydər Əliyev Fondu ölkəmizin ictimai həyatının müxtəlif sahələrində çox fəal iştirak edib. Bir çox layihələr, proqramlar icra edib. Qısa söyləsəm, ən böyük nailiyyətimiz ondan ibarətdir ki, bu on il ərzində biz Azərbaycan xalqının hörmətini, dəstəyini qazanmışıq. Bizə inanırlar. Bizə müraciət edən insanlar bilirlər ki, biz hər zaman yardıma, köməyə açığıq, hazırıq. Bu illər ərzində Fond tərəfindən, doğrudan da, bir çox əhəmiyyətli layihələr həyata keçirilib. Bildiyiniz kimi, biz mədəniyyət sahəsində böyük işlər görürük. Biz ölkəmizin tarixi və memarlıq abidələrini qoruyuruq. Bütün dünyada Azərbaycan muğamını təbliğ edirik. Azərbaycanın qədim mədəniyyətini, incəsənətini, musiqisini, xalçaçılıq məktəblərini bütün dünyaya tanıdırıq. Azərbaycan mədəniyyəti günləri, sərgilər keçiririk. Biz Azərbaycanın gənc rəssamlarına, idmançılarına böyük dəstək veririk. Lakin biz fəaliyyətimizin ilk günündən təhsil, səhiyyə, sosial problemlərin həllini prioritet elan etmişik və bu günə qədər də buna sadiqik. Çünki Heydər Əliyev Fondunun əsas məqsədi cəmiyyətimizin ən zəif təbəqələrinə yardım göstərmək, cəmiyyətimizdə mövcud olan sosial problemlərin həllində iştirak etməkdir. Belə olubdur və belə də olacaqdır. Bu gün elan olunan layihə bunun sübutudur. Çünki bu, doğrudan da ölkəmiz üçün çox vacib bir problemdir. Mən inanıram ki, biz birgə səylərimizlə qısa bir zamanda bu sahədə böyük nailiyyətlər əldə edəcəyik.

Çox sağ olun.




**AzərTAc**

# "ADA" Universitetinin Xəzər Enerji və Ətraf Mühit Mərkəzi və Coca-Cola şirkəti əməkdaşlıq müqaviləsi imzalamışlar




**Bakı, 27 fevral (AzərTAc).** Fevralın 27-də "ADA" Universitetinin Xəzər Enerji və Ətraf Mühit Mərkəzi ilə Coca-Cola şirkəti arasında əməkdaşlıq haqqında müqavilə imzalanmışdır.

"Ağac əkək: Təbiətə pay verək" layihəsi çərçivəsində həyata keçirilən əməkdaşlıq damcı üsulu ilə suvarma sistemlərinin quraşdırılmasını və ölkəmizdə 2020-ci ilədək 100 minə qədər ağac əkilməsini nəzərdə tutur. Bu təşəbbüs Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən dəstəklənir. Azərbaycanda meşələr ölkə ərazisinin cəmi 11,4 faizini əhatə edir ki, bu da qəbul olunmuş qlobal standartlardan iki dəfə azdır. Meşələrin bərpa olunması nazirliyin gündəliyində duran prioritet sahələrdəndir.

Xarici işlər nazirinin müavini, "ADA" Universitetinin rektoru Hafiz Paşayev çıxış edərək, ölkəmizdə ekologiya sahəsində həyata keçirilən mühüm işlərdən danışmışdır. Rektor bildirmişdir ki, layihənin əsas məqsədi ekosistemdən faydalanaraq ölkənin əvvəlcədən müəyyənləşdirilmiş ərazilərində kütləvi meşələrin salınması və mövcud meşələrin bərpa edilməsi ilə Azərbaycanda su ehtiyatlarının qorunması və artırılmasına nail olmaqdır. Rektor Hafiz Paşayev tədbiri yüksək qiymətləndirmiş, bu cür layihələrin gələcəkdə davam etdiriləcəyini diqqətə çatdırmışdır.

Coca-Cola Türkiyə, Qafqaz və Mərkəzi Asiya biznes bölməsinin prezidenti xanım Galya Molinas meşənin və suyun insan həyatındakı önəmini vurğulayaq demişdir: Biz Coca-Cola şirkəti olaraq, "Ağac əkək: Təbiətə pay verək" layihəsi vasitəsilə havanın çirklənməsi, su təchizatı və torpaq eroziyası kimi bir neçə ekoloji problemləri həll etməyə çalışırıq. Novruz bayramına az qalmış ağac əkmək bir ənənədir və biz bütün azərbaycanlılar tərəfindən sevilən bayram ərəfəsində bu layihəni həyata keçirməyə çox şadıq.

"ADA" Universitetinin Xəzər Enerji və Ətraf Mühit Mərkəzinin direktoru Elnur Sultanov məlumat vermişdir ki, layihənin həyata keçirilməsi zamanı damcı üsulu ilə suvarmadan istifadə olunacaq. Bu da öz növbəsində ölkədə məhdud olan şirin su ehtiyatlarının qorunmasını təmin edəcəkdir. Su ehtiyatlarını qorumaq və bərpa etməklə yanaşı, ağaclar havanın çirklənməsinin qarşısını alır, kimyəvi dövriyyəyə, eləcə də planetdə suyun uzun müddət saxlanılmasına yardımçı olur, həmçinin ekosistem daxilində enerji axınını təmin edir.



Sonra universitetin həyətində ağaclar əkilmişdir. ■

## Azərbaycandakı tolerantlıq mühiti yüksək qiymətləndirilmişdir

**Bakı, 27 fevral (AzərTAc).** Fevralın 27-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Argentinanın Azərbaycandakı səfiri Karlos Dante Riva ilə görüşmüşdür.

Qafqaz Müsəlmanları İdarəsindən bildirmişlər ki, Karlos Dante Riva ölkəsinin Azərbaycanda ilk səfiri olmaqdan qürur duyduğunu demişdir. Səfir iki ölkə arasındakı əlaqələrin inkişaf perspektivlərindən danışmışdır. Bildirmişdir ki, Argentina Azərbaycan ilə müxtəlif sahələrdə əməkdaşlıq qurmaqda maraqlıdır. Bakıda olduğu ilk gündən ölkəmizdəki tolerantlıq mühitindən heyrətləndiyini bildirən diplomat bu sahədə görülən işləri yüksək qiymətləndirmişdir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə din-dövlət münasibətləri, Azərbaycandakı dini dözümlülüyün tarixi kökləri və son illər bu istiqamətdə görülən işlər barədə səfirə məlumat vermişdir. Diplomata fəaliyyətində uğurlar arzulayan Allahşükür Paşazadə onun ölkələrimiz arasında əlaqələrin inkişafına töhfə verəcəyinə əminliyini bildirmişdir.

Görüşdə Qafqaz Müsəlmanları İdarəsi sədrinin xarici əlaqələr üzrə müavini Rəşad Əliyarlı da iştirak etmişdir. ■

## Avropa İttifaqı ölkələri ilə Azərbaycan arasında əlaqələrin inkişafı müstəvisində mənəvi sahədə əməkdaşlıq müzakirə edilmişdir

**Bakı, 27 fevral (AzərTAc).** Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə fevralın 27-də Avropa İttifaqının Azərbaycandakı nümayəndəsi xanım Malena Mard ilə görüşmüşdür.

QMİ-nin mətbuat xidmətindən bildirmişlər ki, görüşdə Avropa İttifaqı ölkələri ilə Azərbaycan arasında mövcud əlaqələrin inkişafı müstəvisində mənəvi sahədə əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

Görüşün sonunda qonağa idarənin fəaliyyətini əks etdirən kitab və xatirə hədiyyəsi təqdim olunmuşdur. ■

# Regionların inkişafında sahibkarlığın önəmi

## *Ötən 10 ildə ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi 80 faizi ötmüşdür*

(əvvəli 1-ci səhifədə)

Dövlət büdcəsinin investisiya xərcləri ilə yanaşı, ölkəmizdə yol, su təchizatı və meliorasiya, kənd təsərrüfatına, sosial və digər infrastrukturların tikintisinə və yenidən qurulmasına Azərbaycan hökuməti tərəfindən xaricdən cəlb olunmuş kreditlər hesabına təxminən 754 milyon manat məbləğində vəsait sərf edilmişdir. Dövlət Neft Fondunun vəsaiti hesabına ölkəmizdə və xaricə qoyulmuş sərmayələr hesabına həyata keçirilən bir sıra investisiya layihələrinin icrası üçün ötən il 1 milyard 74 milyon manat vəsait yönəldilmişdir. Şəhər, rayon və qəsəbələrdə abadlıq və quruculuq işlərinin davam etdirilməsi, kəndlərarası yolların tikintisi və digər zəruri tədbirlərin maliyyələşdirilməsi üçün 2013-cü ildə Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 347 milyon manat vəsait ayrılmışdır.

2013-cü ildə regionların sosial-iqtisadi inkişafında sürətli dinamika təmin edilmiş, bütövlükdə regionlarda 380-dən çox sənaye, kənd təsərrüfatı, xidmət və ticarət müəssisəsi fəaliyyətə başlamışdır. 237 məktəb, 47 bağça, 30 səhiyyə, 25 idman, 45 mədəniyyət və digər sosial obyektlər tikilmiş və əsaslı bərpa olunmuşdur. 470-ə yaxın müəssisənin isə tikintisi davam etdirilir. Qeyri-neft sektorunu daha da iri miqyasda inkişafına zəmin yaradacaq və tarixi əhəmiyyət kəsb edən bir sıra infrastrukturlar o cümlədən Bakı və Sumqayıt şəhərlərinin içməli su təchizatının yaxşılaşdırılması üçün Samur-Abşeron suvarma sistemi yenidən qurulmuş, Taxtakörpü su anbarı və Taxtakörpu Su Elektrik Stansiyası, 780 meqavat gücündə Cənub Elektrik stansiyası istifadəyə verilmiş, regionların elektrik, qaz, su, kanalizasiya şəbəkələrinin inşası və yenidən qurulması üzrə işlər uğurla həyata keçirilmişdir.

Azərbaycan Prezidentinin "Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır" strateji xəttinə uyğun olaraq biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması ilə bağlı ardıcıl işlər görülür. Bu baxımdan qanunvericilik bazasının təkmilləşdirilməsi, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, sahibkarlığa dövlət dəstəyinin genişləndirilməsi, vergi yükünün azaldılması, sağlam rəqabətin təmin edilməsi, 400-dən çox xidmətin elektron qaydada göstərilməsi, "bir pəncərə" prinsipinin tətbiqi, son 10 il ərzində regionlarda 100 mindən çox sahibkarın iştirakı ilə 1200-dək maarifləndirmə, biznes forumların, konfransların keçirilməsi və digər tədbirlər nəticəsində regionlarda güclü özəl sektor formalaşmışdır. Ötən 10 ildə Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 19 mindən çox sahibkarın ümumi dəyəri 2 milyard manat olan layihələrinin maliyyələşməsinə, 45 faizi qaytarılmış vəsait olmaqla, 1,2 milyard manat güzəştli kredit verilmiş və bu layihələr hesabına 110 minədək yeni iş yeri yaradılmışdır. Kreditlərin 78 faizi, açılan iş yerlərinin isə 81 faizi regionların payına düşür.

Bu müddət ərzində məşğulluqda özəl sektorun payı 68 faizdən 74 faizə, vergi daxil olmalarında 42 faizdən 72,5 faizə qalxmışdır. Sahibkarlıq subyektlərinin sayı 2,5 dəfə artmışdır. Nəticədə ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi 80 faizi ötmüşdür. Təbii ki, müasir tələblərə cavab verən minlərlə infrastruktur və sosial obyektlərin inşası ilə bərabər, biznes və investisiya mühitinin yaxşılaşdırılması regionların iqtisadi potensialını gücləndirməklə, ümumilikdə, iqtisadiyyatın diversifikasiyasının sürətlənməsinə, qeyri-neft sektorunun və ixracının artmasına, ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə mühüm töhfədir.

Sahibkarlığın inkişafı ilə bağlı məsələlərə böyük diqqət ayrıldığını və bu sahəyə xüsusi önəm verildiyini vurğulayan cənab İlham Əliyev bildirib ki, bu dəstək hesabına böyük işlər görülmüşdür: "Son 10 il ərzində Azərbaycanda 55 min yeni müəssisə yaradılmışdır. Dövlət xətti ilə bir milyard 200 milyon manat güzəştli şərtlərlə kredit verilmişdir. Misal üçün keçən il 275 milyon manat kredit verilmişdir. Bütün bu kreditlər vaxtında qaytarılır. Bu da sahibkarlığın inkişafına yeni dəstək olur. Çünki həmin vəsait yenə də kredit şəklində sahibkarlara verilir. Sahibkarlar da qeyd etməliyəm ki, bu kreditlərə böyük məsuliyyətlə yanaşırlar. Yəni, bütün vəsaiti vaxtında qaytarırlar. Gələcəkdə biz hər il təxminən 270-300 milyon manat həcmində güzəştli kreditlər verəcəyik.

Beləliklə, proqramın sonuna — 2018-ci ilə qədər təxminən bir milyard yarım manat kredit veriləcəkdir. Bu vəsait də iqtisadiyyatın real sektoruna qoyulacaqdır".

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**

# Bakı Dövlət Universiteti beynəlxalq qrant layihələrində fəal iştirak edir

**Bakı, 27 fevral (AzərTAc).** Son illər elm və təhsil sahəsində bir sıra beynəlxalq və yerli qrant layihələrini yerinə yetirən Bakı Dövlət Universiteti (BDU) bu ilin əvvəlindən yeni beynəlxalq layihələrin qalibi olmuşdur.



Universitetin mətbuat xidmətindən bildirmişlər ki, fevralın 27-də BDU-da Avropa İttifaqının Tempus layihəsi çərçivəsində bu ali təhsil ocağının alimlərinin İtaliya, Fransa, Yunanıstan alimləri ilə birlikdə qalibi olduqları ECONANO qrant layihəsinin təqdimatı olmuşdur.

Tədbirdə BDU-nun rektoru, Milli Məclisin deputatı, akademik Abel Məhərrəmov rəhbərlik etdiyi ali təhsil ocağında dünya elminin prioritet sahələri üzrə intensiv elmi tədqiqat işlərinin aparılmasından bəhs etmişdir. Diqqətə çatdırmışdır ki, universitet alimlərinin apardığı bu işlər dünyanın bir sıra qabaqcıl universitetləri ilə bərabər yerinə yetirilir və dünya elmi ictimaiyyəti tərəfindən dəstəklənir. BDU-nun alimləri tərəfindən hər il ümumi dəyəri 5-7 milyon ABŞ dolları olan 80-dən çox layihə həyata keçirilir ki, bunların da 50-dən çoxu Avropa İttifaqı, Fransa Milli Elmi Araşdırmalar Mərkəzi, Beynəlxalq Nəzəri Fizika Elmi Mərkəzi, Amerika Hüquqşünaslar Assosiasiyası, İsveçrə Milli Elm Fondu və digər beynəlxalq təşkilatlar tərəfindən maliyyələşdirilən beynəlxalq layihələrdir.

Rektor qeyd etmişdir ki, elmi layihələr daha çox fundamental elmlər sahəsində, əsasən kimya, biologiya və fizika fakültələrinin əməkdaşları tərəfindən həyata keçirilir. Məsələn, bu ilin əvvəlində biologiya fakültəsində 4 yeni beynəlxalq layihə qazanılmışdır ki, onların da ümumi dəyəri 4 milyon ABŞ dollarından çoxdur. Həyata keçirilən layihələr sırasında nanotexnologiya sahəsindəki layihələr də xüsusi yer tutur. Təkcə son 5 ildə nanotədqiqatlar istiqamətində ümumi dəyəri 5 milyon ABŞ dolları olan qrant layihələri yerinə yetirilmişdir. Bu layihələr çərçivəsində universitetə ən müasir cihazlar və avadanlıq alınmışdır. Universitet alimlərinin nanotexnologiya istiqamətində 70-dən artıq məqaləsi Tomson Reyter Agentliyinin siyahısına daxil olan jurnallarda, 100-dən artıq məqalə digər elmi jurnallarda dərc edilmişdir. Azərbaycan alimlərinin apardığı tədqiqatların nəticələri dünyanın inkişaf etmiş ölkələrində keçirilən bir sıra beynəlxalq konfrans və simpoziumlarda müzakirə edilmiş və monoqrafiyalar şəklində nəşr olunmuşdur. BDU-nun alimləri İtaliyanın La Sapienza Universiteti, Fransanın Paris Universiteti, Yunanıstanın Patras Universiteti və Qafqaz Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti və "Azərecolab" özəl şirkətinin iştirakı ilə təqdimatını keçirdiyimiz "Nanoekologiya mühəndisliyi ixtisaslaşması" üzrə mükəmməl magistr proqramının hazırlanması məqsədi ilə Avropa İttifaqının Tempus proqramı çərçivəsində dəyəri 655 min avro olan yeni qrant layihəsinin qalibi olmuşlar. BDU bu layihənin Azərbaycan tərəfdən əlaqələndiricisidir.

Təqdimatda İtaliyanın La Sapienza Universitetinin professorları Luca Di Palma, Angelio Chianese, Fransanın Paris Universitetindən professoru Jean Philippe Passarello, Yunanıstanın Patras Universitetindən Petros G.Koutsoukos və BDU-dan layihə rəhbəri, professor Məmmədəli Ramazanov çıxış edərək layihənin əhəmiyyətindən danışmışlar. ■

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Gəncədə vətəndaşları qəbul etmişdir

**Gəncə, 27 fevral (AzərTAc).** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə vətəndaşların qəbulu çərçivəsində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov fevralın 27-də Gəncə şəhərində qəbul keçirmişdir.



Qəbulda Gəncə, Mingəçevir şəhərlərindən, Samux, Göygöl, Goranboy, Daşkəsən və Kəlbəcər rayonlarından olan vətəndaşlar Xidmətin şöbə və bölmələrində işə və həqiqi hərbi xidmətə qəbul, hərbi xidmətə çağırılan gənclərə müddətin verilməsi və onların ailə vəziyyəti ilə əlaqədar yaşadıqları əraziyə yaxın olan hissələrdə xidmət etmələri və digər məsələlərlə bağlı müraciət etmişlər.

Ümumilikdə qəbul zamanı 50 nəfərdən artıq vətəndaşın müraciətlərinin bəziləri yerindəcə həll edilmiş, araşdırılması tələb olunan digər məsələlər nəzarətə götürülmüşdür.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin səlahiyyətlərinə aid olmayan bəzi müraciətlər isə müvafiq orqanlara çatdırılması üçün qeydiyyata alınmışdır.

Vətəndaşlar görüşdən razı qaldıqlarını bildirmişlər. ■

# Azərbaycan Respublikasının ədliyyə naziri Şamaxı şəhərində vətəndaşları qəbul edəcəkdir

**Bakı, 27 fevral (AzərTAc).** Martın 5-də Şamaxı şəhərində Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədov tərəfindən vətəndaşların qəbulu keçiriləcəkdir.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən bildirmişlər ki, qəbul saat 11.00-dan etibarən Heydər Əliyev Mərkəzində təşkil ediləcəkdir.

Qəbulda Şamaxı, Qobustan və Ağsu rayonlarında yaşayan vətəndaşların ədliyyə və məhkəmə fəaliyyəti ilə bağlı müraciətlərinə baxılacaqdır.

Vətəndaşlar qəbula Ədliyyə Nazirliyinin (012) 510-10-01 (əlavə 2104), 055-925-37-41 nömrəli telefonları və contact@justice.gov.az elektron poçt ünvanı, habelə Göyçay Regional Ədliyyə Şöbəsi (əlaqə telefonu: (02027) 4-13-10) vasitəsilə yazıla bilərlər.

Eyni zamanda, vətəndaşların rahatlığı üçün ədliyyə nazirinin həmin gün keçiriləcək qəbuluna elektron qaydada birbaşa yazılmaq imkanı yaradılmışdır. Bu məqsədlə Ədliyyə Nazirliyinin elektron xidmətlər portalına (www.exidmet.justice.gov.az) müraciət olunmalıdır. ■

# Arkanzas ştatındakı Kapitoliy binasının qarşısında Azərbaycan bayrağı ucaldılmışdır

**Vaşinqton, 27 fevral (AzərTAc).** Arkanzas-Türk dünyası dostluq günü çərçivəsində Arkanzas ştatında, Kapitoliy binasının (Arkanzas ştatı Senatı və Nümayəndələr Palatasının yerləşdiyi bina) qarşısında təntənəli şəkildə Azərbaycan və Türkiyə bayraqları ucaldılmışdır. Həmin gün ABŞ-ın Arkanzas ştatının paytaxtı Litl Rok şəhərində "Amerikalıların və Avrasiyalıların Turkuaz Şurası" adlı ABŞ türk icması təşkilatı tərəfindən Arkanzas - Türk dünyası dostluğuna həsr olunmuş ziyafət təşkil edilmişdir.



Tədbirdə Arkanzas ştatının dövlət katibi Mark Martin, ştatın Senatının və Nümayəndələr Palatasının çoxsaylı üzvləri, digər rəsmilər iştirak etmişdir.

Azərbaycan tədbirdə Vaşinqtondakı səfirliyin müşaviri Məmməd Talıbov tərəfindən təmsil olunmuşdur. M.Talıbov çıxış edərək Azərbaycan ilə ABŞ arasında strateji xarakter daşıyan tərəfdaşlıq, regionun liderinə çevrilmiş Azərbaycanın Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum boru kəmərləri və Bakı-Tbilisi-Qars dəmir yolu xətti kimi irimiqyaslı layihələrin həyata keçirilməsində önəmli rolu, həmçinin Azərbaycanın "Cənub" qaz dəhlizi layihəsi vasitəsilə Avropanın enerji təhlükəsizliyinə mühüm töhfəsi barədə danışmışdır. Diplomat regiondakı təhlükəsizliyə təhdid olan yeganə problemin - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamış qaldığını vurğulamışdır. O, münaqişənin tarixi barədə tədbir iştirakçılarını məlumatlandırmışdır. M.Talıbov Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü, ölkəmizin ABŞ ilə strateji tərəfdaşlığına davamlı dəstəyə çağıran qətnamənin qəbul edilməsinə görə Arkanzas Senatının üzvlərinə təşəkkürünü bildirmişdir. O, bu günlərdə Azərbaycan xalqının fevralın 26-da erməni təcavüzkarları tərəfindən Xocalı şəhərinin işğalı zamanı törədilmiş qətliamın 22-ci ildönümünü qeyd etdiyini bildirmiş, Arkanzas ştatının keçən il Xocalı soyqırımını tanıyan ABŞ ştatlarının sırasına qoşulmasına görə minnətdarlığını bildirmişdir. Qeyd etmişdir ki, son zamanlar bir çox ölkələr və ABŞ-ın bəzi ştatları tərəfindən Xocalı qətliamının tanınması ədalətin bərqərar olacağına ümid etməyə imkan verir.

Azərbaycan diplomatı, həmçinin Arkanzas ştatının dövlət katibi, Senatın və Nümayəndələr Palatasının üzvləri ilə görüşlər keçirmişdir. ■

# Azərbaycan və Almaniya arasında əmək və sosial müdafiə sahəsində gələcək əməkdaşlıq istiqamətləri ilə bağlı fikir mübadiləsi aparılmışdır

**Bakı, 27 fevral (AzərTAc).** Fevralın 27-də əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovla Almaniya Federativ Respublikasının ölkəmizə yeni təyin olunmuş səfiri xanım Haydrun Tempel arasında tanışlıq görüşü olmuşdur.



Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirmişlər ki, görüşdə S.Müslümov Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti sayəsində ölkəmizin əldə etdiyi mühüm tarixi nailiyyətlər, sosial-iqtisadi inkişafın təmin olunmasına xidmət edən uğurlu islahatlar barədə məlumat vermişdir.

Nazir respublikamızda sosial rifah halının yüksəldilməsini, əhalinin sosial müdafiəsinin gücləndirilməsini, yoxsulluğun kəskin şəkildə azalmasını ifadə edən göstəriciləri diqqətə çatdırmış, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında əmək və sosial müdafiə sahəsində qarşıda duran məqsədlər barədə də səfiri məlumatlandırmışdır.

Respublikada geniş vüsət alan müasir dövlət quruculuğu prosesinə uyğun olaraq əmək və sosial müdafiə sisteminin mütərəqqi beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi, fəaliyyət sahələrində şəffaflıq prinsipinin və səmərəli iş üsullarının tətbiqi məqsədilə müvafiq işlərin aparıldığını qeyd edən nazir görülən işlərdə beynəlxalq əməkdaşlıq şəraitində ayrı-ayrı ölkələrlə, o cümlədən Almaniya Federativ Respublikası ilə qarşılıqlı əlaqələrə xüsusi önəm verildiyini bildirmişdir.

Nazirliyin fəaliyyətinin demək olar ki, əksər sahələrində Almaniyanın müvafiq dövlət orqanı ilə əməkdaşlıq həyata keçirildiyini bildirən S.Müslümov xüsusən pensiya islahatları, təhlükəsiz və sağlam əmək şəraitinin təmin olunması, sosial tərəfdaşlığın möhkəmləndirilməsi və digər sahələrdə həyata keçirilən əməkdaşlığın, Əməyin Mühafizəsi və Sağlamlığı üzrə Drezden Akademiyası ilə yaradılmış işgüzar əlaqələrin və s. ölkəmizdə aidiyyəti üzrə islahatların aparılmasında mühüm önəm kəsb etdiyini vurğulamışdır.

Nazir əlillik müayinələrinin aparılması və tibbi-sosial reabilitasiya sahələrində Almaniya təcrübəsinin öyrənilməsinin, Azərbaycandan olan əlillərin xaricdə bərpa müalicəsi işinin bir sıra ölkələr kimi, Almaniyada da həyata keçirilməsinin, əlil arabasında olan əlillər üçün Almaniyada xüsusi nəqliyyat vasitələri hazırlanmasının qarşıdakı dövrdə iki ölkə arasında əməkdaşlıq sahələri kimi önəmli ola biləcəyini diqqətə çatdırmışdır.

Azərbaycan iqtisadiyyatının dinamik inkişafının onda heyranlıq doğurduğunu bildirən səfir H.Tempel iki ölkə arasında əlaqələrin daim inkişafda olduğu şəraitdə Azərbaycana səfir təyin olunmasından məmnunluğunu ifadə etmişdir. Səfir diplomatik fəaliyyəti müddətində bu əlaqələrin, eyni zamanda əmək və sosial müdafiə sahəsində əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsini təmin etmək məqsədilə səylər göstərəcəyini vurğulamışdır.

Görüşdə Azərbaycan və Almaniya arasında əmək və sosial müdafiə sahəsində əməkdaşlığın gələcək istiqamətləri ilə bağlı fikir mübadiləsi aparılmışdır. ■

# Heydər Əliyev Fondunun dəstəyi ilə Rumıniyada Xocalı faciəsinin 22-ci ildönümünə həsr olunmuş konfrans keçirilmişdir

**Buxarest, 27 fevral (AzərTAc).** Fevralın 27-də Buxarestdəki nüfuzlu "Hyperion" Universitetində Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə "Cənubi Qafqazda münaqişələr və onların nəticələri: Xocalı bir gecənin faciəsi" adlı konfrans keçirilmişdir. Tədbirdə "Hyperion" Universitetinin rəhbərliyi və müəllim heyəti, tələbələri, Buxarest Yazıçılar İttifaqının nümayəndələri, Münaqişələrin Qarşısının Alınması və Öncədən Xəbərdarlıq Mərkəzinin tədqiqatçıları, Azərbaycan Respublikasının Rumıniyadakı səfirliyinin əməkdaşları, ARDNŞ-in Rumıniya nümayəndəliyinin təmsilçiləri, Azərbaycan-Rumıniya Gənclər və Mədəniyyət Assosiasiyasının və Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin üzvləri, Rumıniyada yaşayan və təhsil alan azərbaycanlılar, türk-tatar toplumunun nümayəndələri iştirak etmişlər.



Tədbiri "Hyperion" Universitetinin hüquq, jurnalistika və psixologiya fakültəsinin dekanı İon Marin açmışdır. O, belə tədbirlərin dünyada baş verən münaqişələrə düzgün qiymətin verilməsi və həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm əhəmiyyət kəsb etdiyini bildirmişdir.

Heydər Əliyev Fondunun Rumıniya nümayəndəliyinin direktoru İqbal Hacıyev tədbir iştirakçılarına Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat vermişdir. O, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış Azərbaycan xalqına qarşı törədilmiş qətliamın səbəblərindən, ermənilərin və onların havadarlarının məkrli siyasətindən danışmışdır. İ.Hacıyev ötən əsrin qəddarcasına törədilmiş faciələrindən olan Xocalı soyqırımı barədə ətraflı söhbət açmış, Azərbaycanın qədim yaşayış məskəni Xocalı şəhərinin əhalisinin azərbaycanlılardan ibarət olduğuna görə bir gecədə yer üzündən silindiyini, erməni vandallarının yüzlərlə dinc sakini vəhşicəsinə qətlə yetirdiklərini, qocalara, qadınlara, uşaqlara amansız işgəncə verdiklərini diqqətə çatdırmışdır. O, ümummilli lider Heydər Əliyevin Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı ilə bağlı gerçəkliklərin beynəlxalq ictimaiyyətə çatdırılması sahəsində siyasi kursunun bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirildiyini vurğulamışdır. İ.Hacıyev Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində müxtəlif ölkələrdə görülən işlərdən də bəhs etmiş və bu kampaniyanın Dağlıq Qarabağ problemi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində uğurlu və uzaqgörən strategiya olduğunu vurğulamışdır. O, tədbir iştirakçılarını, tələbələri bu kampaniyaya qoşulmağa çağırmışdır.

Azərbaycanın Rumıniyadakı səfirliyinin 2-ci katibi Tehran Şükürov Ermənistanın Azərbaycana qarşı təcavüzünü faktlarla iştirakçıların diqqətinə çatdırmış və hazırkı Ermənistan ərazisinin tarixi Azərbaycan torpaqları olduğunu vurğulamışdır. T.Şükürov bildirmişdir ki, hazırda İnterpolun xətti ilə barəsində beynəlxalq axtarış elan olunan Zori Balayanın 1996-cı ildə nəşr olunmuş "Ruhumuzun canlanması" adlı əsərində onun Xocalı soyqırımına haqq qazandırdığını və bu şəhərdə azərbaycanlılara qarşı soyqırımı həyata keçirildiyini fəxrlə etiraf etdiyini söyləmişdir.

Rumıniya Prezidentinin strateji, təhlükəsizlik və xarici siyasət məsələləri üzrə müşaviri Yulian Kifunun rəhbəri olduğu Münaqişələrin Qarşısının Alınması və Öncədən Xəbərdarlıq Mərkəzinin baş tədqiqatçısı xanım Lavinia Kristiana Lupu Ermənistan-Azərbaycan münaqişəsinin səbəbləri, onun ağır nəticələri və problemin həlli prosesi barədə iştirakçılara məlumat vermişdir. O, Ermənistan hərbi qüvvələri tərəfindən törədilmiş Xocalı faciəsinin kütləvi qırğınlarla nəticələndiyini və bu əməlin bəşəriyyət əleyhinə yönəlmiş cinayət olduğunu qeyd etmişdir. Xanım Lupu Ermənistanın hazırkı prezidenti Serj Sarkisyanın Xocalıdakı qətliamda birbaşa iştirak etdiyini vurğulamışdır.

Buxarest Yazıçılar Assosiasiyasının sədri Horia Qırbea "Dağlıq Qarabağ münaqişəsi və Xocalı" adlı interaktiv təqdimatla çıxış etmişdir. O, Azərbaycanın tarixi, ölkəmizin inkişafı, regionda lider dövlətə çevrilməsindən danışmışdır. Həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin acı nəticələrindən bəhs etmişdir. H.Qırbea bildirmişdir ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində bu ölkənin torpaqlarının 20 faizi işğal edilmiş, bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. Sədr XX əsrin ən böyük faciəsi olan Xocalı soyqırımının təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə insanlıq əleyhinə törədilmiş cinayət olduğunu vurğulamışdır.

Tədbirin sonunda Xocalı soyqırımı barədə qısametrajlı film göstərilmişdir. Faciə ilə bağlı broşürlər və kitablar tədbir iştirakçılarına paylanmışdır. ■

# Xocalı soyqırımının 22-ci ildönümü İtaliya mətbuatında geniş işıqlandırılmışdır

**Roma, 27 fevral (AzərTAc).** İtaliyanın bir sıra xəbər portallarında Xocalı soyqırımın 22-ci ildönümü ilə bağlı məqalələr yerləşdirilmişdir.




Məqalələrdə qeyd olunur ki, Azərbaycanın Xocalı şəhəri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi qüvvələri tərəfindən hücuma məruz qalmışdır. Dinc sakinlər qarlı qış gecəsi qaçaraq xilas olmağa çalışsalar da, onlara qarşı amansız qətliam törədilmişdir. Soyqırımı nəticəsində 106 qadın, 63 uşaq, 70 qoca daxil olmaqla 613 nəfər xüsusi qəddarlıqla öldürülmüş, 8 ailənin həyatına tamamilə son qoyulmuş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərdən birini itirmiş, 487 nəfər ağır yaralanmış, 1275 nəfər girov götürülmüşdür. Bu faciə "Human Rights Watch" təşkilatı tərəfindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ən böyük qətliamı adlandırılmışdır.

Məqalələrdə Dağlıq Qarabağın əzəli Azərbaycan ərazisi olması ilə bağlı tarixi faktlar, münaqişənin kökləri, səbəbləri və nəticələri barədə məlumatlar öz əksini tapmışdır. Qeyd olunmuşdur ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ona bitişik yeddi rayon 20 ildən artıqdır Ermənistanın işğalı altındadır. Münaqişə nəticəsində bir milyondan çox azərbaycanlı öz doğma yurd-yuvalarından didərgin düşmüşdür. BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsi, habelə qurumun Baş Məclisinin, Avropa Şurasının, Avropa İttifaqının, Avropa Parlamentinin, ATƏT-in, NATO-nun və digər nüfuzlu beynəlxalq təşkilatların münaqişəyə dair sənədləri təəssüflər olsun ki, hələ də kağız üzərində qalmaqdadır.

Yazılarda diqqətə çatdırılır ki, Xocalı hadisələri bir çox ölkələr və ABŞ-ın bəzi ştatları tərəfindən soyqırımı aktı kimi tanınmışdır. ■

# Uluxanlıdan başlayan yol

**Onu həyatda ilk dəfə idi ki, görürdüm. Bəyaz paltarı zərif qamətinə çox yaraşırdı. Mehriban çöhrəsi ilə ciddi görkəmi gözəl bir vəhdət yaratmışdı. Üzünü mənimlə birgə gedən fotomüxbirə tutub: "Siz hazırlaşanadək, özümə bir əl gəzdirsəm olarmı?"- deyə nəzakətlə soruşdu. Yan otağa keçib qayıtmağı isə çox çəkmədi. Kresloya əyləşib işləmək üçün fotomüxbirə şərait yaratdı. O, bir neçə məqamı lentə köçürüb işini bitirdi və sağollaşıb çıxdı.**

**Bu yazımızın qəhrəmanı üçün heç nə təsadüfi olmayıb. Böyük zəhmət çəkib, heç kimə arxalanmayıb, heç kəsin kölgəsində daldalanmayıb. Bəlkə elə ona görə də tutduğu vəzifələrlə öyünməyən, sadəcə daxilində sevinc, qürur hissi yaşayan bu insan cəmiyyətdə kifayət qədər tanına bilib, özünə hörmət qazanıb. Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, memarlıq doktoru, əməkdar memar, professor, millət vəkili Gülçöhrə Məmmədovanı yəqin ki, çoxları tanıyır...**

**... Qış imtahan sessiyasının qızğın çağı olsa da, nə vaxtının azlığından, nə də işinin çoxluğundan gileyləndi, söhbət üçün vaxt məhdudiyyəti də qoymadı. Bu ilk təəssürat söhbətimizin səmimi keçəcəyinə bir əminlik yaratdı.**

...Əslən İrəvan quberniyasının Uluxanlı bölgəsindəndir. Atası Hüseyn Məmmədov Sovet dövründə Moskvada Ali Partiya məktəbini bitirmiş, bütün həyatı boyu məsul vəzifələrdə çalışmışdı. Evləri düz İrəvanın mərkəzində yerləşirdi. O, doğulanda isə Hüseyn müəllim Vedidə məsul vəzifədə idi. O zaman indiki Ermənistanda azərbaycanlılar çoxluq təşkil edirdi. Azərbaycanlıların yaşadığı kəndlərdə adət-ənənələr, milli ruh çətinliklə də olsa, qorunub saxlanılırdı. Bu yerlərin gözəlliyinə uşaqlıqdan vurulmuşdu. Laləli, yovşanlı, kəklikotulu düzlər, şırıltı ilə axıb gedən, buz kimi suyu diş sızladan Zəngi çayı, qohumlarının məskən saldığı Zəngibasar kəndi. Uşaqlıq xəyalının əlçatmaz zirvələrində ilişib qalan xoş xatirələr: Novruz tonqalları, igidlərin qara zurnanın "Cəngi"si altında qurşaq tutub güləşməsi, yallı getməsi, qız-gəlinlərin biş-düşü, nənələrin şirin-şəkər nağılları indi bir yuxu kimi gəlir. O yerlərin insanları da fərqli görünürdü ona - saflığı, təmizliyi, əməksevərliyi ilə. Torpağa çox bağlı idilər. Bütün bunları hələ uşaq ağlı ilə o vaxt çox gözəl dərk edirdi Gülçöhrə xanım. Onların nə vaxtsa torpaqdan, işdən-gücdən ayrı düşəcəklərini, doğma yurdlarına həsrət qalacaqlarını ağlına belə gətirmirdi. Təəssüf ki, bəzən ağlına gəlməyən başına gəlir insanın. 1988-ci ilin son deportasiyası çoxları kimi Gülçöhrə xanımı da qayğısız uşaqlığının, yeniyetməliyinin keçdiyi, indi doğmalarının ruhu dolaşan yerlərə həsrət qoydu...

Gülçöhrə xanım aramla, zərif təbiətinə uyğun xanımlıqla danışırdı. Xatirə xatirəni, söhbət söhbəti çəkirdi. Həyatının mənalı, maraqlı, qayğısız günlərini, anlarını xatırlayırdı. Əlçatmaz uşaqlığından, torpaq nisgilindən, Vətən həsrətindən danışırdı.

- Qohumlarım yaşayan kəndlərdə çox olmuşdum, demək olar ki, bütün kəndləri gəzmişdim. Çox sevirdim kənd həyatını, həmişə ailəlikcə gedər, orada özümüzü çox rahat hiss edərdik, çünki doğma bir mühit vardı. İndi düşünəndə ki, o yerlər düşmən əlindədir... Bu ağrını valideynlərim daha çox hiss edirdi. Asan deyildi, orada doğulmuş, böyümüş, həyatlarının çox hissəsini yaşamışdılar. O yerdə doğmalarının qəbirləri qalmışdı. Acılı-şirinli xatirələr qalmışdı o yerlərdə. Torpaq müqəddəsdir, onun böyük cazibə qüvvəsi var, insanı harada olsa özünə çəkir. Hərdən doğulduğum o yerlərə dönmək istəyirəm, yeniləşmək, torpaqdan qüvvə almaq üçün. Bu boşluğu doldurmaq üçün isə tez-tez bölgələrimizə gedir, insanlarla görüşürəm. Bu, mənə mənəvi güc verir.

1970-ci ildə Məmmədovlar ailəsi İrəvandan Bakıya köçəndə Gülçöhrə orta məktəbin onuncu sinfində oxuyurdu. O, təhsilini burada başa vurdu, tələbə oldu. Sonralar elmi işlərə daha çox vaxt ayırdı.

Zaman, mühit, geridə qalan illər istəsək də, istəməsək də insanı çox dəyişir. O da dəyişdi: daha da ciddiləşdi, zəhmətə qatlaşmağa öyrəşdi, məqsədinə çatmaq üçün bir çox şeylərdən imtina etməyi bacardı, ən əsası insanlara münasibəti başqalaşdı, hər şeyi daha dərindən dərk etməyə başladı. Əlbəttə, bir qədər sərtləşdi də...

1999-cu ildə doktorluq dissertasiyasını uğurla müdafiə edən Gülçöhrə Məmmədovaya böyük etimad göstərildi. O, Azərbaycan Memarlıq və İnşaat Universitetinə rektor təyin edildi. Daha sonra millət vəkili seçildi. Beləliklə də onun zərif qadın çiyinlərinin üzərinə düşən yükün çəkisi bir az da artdı. Bununla bərabər məsuliyyəti də çoxaldı. Çalışdı ki, işləri həmişə rəvan getsin, eyni zamanda ailəsi onun işləməyinin əziyyətini çəkməsin. Xeyir-şərdən qalmadı. Ətrafdakılardan qayğısını əsirgəmədi. Hərdən teatra, konsertə getməyə də vaxt tapdı, istədi ki, həyatı darıxdırıcı, cansıxıcı, mənasız yox, rəngarəng olsun.

Gülçöhrə xanım böyük bir kollektivə rəhbərlik edir. O, novator rəhbərlərdəndir, yenilikdən qorxmur, çəkinmir. Təbii ki, hər şeyi düşünülmüş şəkildə edir. Təhlillər, müqayisələr aparır. Deyir ki, bugünkü gənclər 90-cı illərin gənclərindən çox fərqlənir, onların dünyagörüşü daha genişdir, dünyanı daha yaxşı başa düşürlər, məlumatlıdırlar, praqmatikdirlər, nə istədiklərini yaxşı bilirlər, kor-koranə hərəkət etmirlər. Ali savad almaq, yaxşı işdə işləmək, yaxşı yaşamaq istəyir, buna can atırlar. Bəziləri hətta təhsilini xaricdə davam etdirir. Təəssüf ki, onların bir qismi bütün bunlara daha tez, zəhmət çəkmədən, əziyyətsiz nail olmaq istəyir. Bəlkə, bu da həyatın diqtəsidir.

O, təhsilimizin səviyyəsindən də danışdı, uğurlarla yanaşı, çatışmayan cəhətləri də təəssüf hissi ilə qeyd etdi. Bütün bu halların səbəbini isə təhsilə münasibətin yanlışlığında gördüyünü dedi: "Doğrudur, təhsil strukturunda çox şey etmək lazımdır, ancaq ilk növbədə ona münasibəti dəyişməliyik. İndi hamı təhsildən danışır, kütləvi informasiya vasitələri bu sahənin yalnız və yalnız mənfi cəhətlərini qabardır. Bununla biz müəllimə, milli təhsilimizə inamımızı, hörmətimizi itirmiş olur, onu nüfuzdan salırıq. Təhsil cəmiyyətin böyük hissəsini təşkil edir. Hər bir ailədə uşağa, məktəbə, təhsilə, müəllimə hörmət hissi aşılanmalıdır. Bəzi neqativ halları isə bu qədər də şişirtmək lazım deyil. Biz yaxşıları nümunə gətirməklə, yaxşılardan, yaxşı işlərdən danışmaqla daha çox şeyə nail ola bilərik."

Onu da deyək ki, Gülçöhrə Məmmədova təkcə rəhbər işçi kimi deyil, millət vəkili kimi də cəmiyyətdə baş verən proseslərdən kənarda qalmır. Bu, hər şeydən öncə, ölkənin ali məclisində qanunların müzakirəsində və qəbul edilməsində özünü büruzə verir. İstər qanunların yazılmasında, hazırlanmasında, istərsə də onlara dəyişikliklərin edilməsində müəyyən qədər öz səlahiyyətləri çərçivəsində bu proseslərə təsir də edə bilir. Cəmiyyətdə münasibətlərin düzgün qurulması, dövlətin yaşaması, inkişafı üçün hüquqi əsasların yaradılmasına öz töhfəsini verməyə çalışır. Məsələ burasındadır ki, hər bir qanun gələcəyə hesablanır və bəzən onun nəticələrini görmək üçün illər lazım gəlir. Və yəqin ki, bu gün qəbul edilən bu qanunların sabah müsbət nəticəsini görəndə onun da öyünməyə haqqı olacaqdır. Millət vəkili kimi əməyinin real nəticəsini də görə bilir. Öz seçicilərinə kömək edəndə, hansısa prosesə qoşulub problemin həllinə nail olanda gördüyü işdən razı qalır, bir növ borcunu yerinə yetirmiş kimi sayır özünü: "Mən Goranboy-Tərtər bölgəsi üzrə millət vəkili seçilmişəm. Seçicilərlə mütəmadi görüşürəm. Bəzən fərdi müraciətlər olur. Təbii ki, kömək etməyə çalışıram. Elə məsələ var ki, onun həlli bizdən asılı deyil. Məlumdur ki, təmsil etdiyim bölgədə suya olan tələbat Sərsəng su anbarının hesabına ödənilir. Ermənilər xüsusən yay aylarında suyun qarşısını kəsir və bununla da əhalini çətin vəziyyətə salırlar. Problemin həlli üçün müxtəlif yollar aramışıq. Vəziyyətdən çıxmaq üçün bu yerlərdə artezian quyularının sayının, lazımi avadanlıqların, ehtiyat hissələrin bir qədər artırılmasına nail olmuşuq. Doğrudur, bu, problemi tam həll etmir, ancaq hələ ki, real vəziyyətlə barışmaq məcburiyyətindəyik. Yaman günün ömrü az olur."

İstər milli, istərsə də dini adət-ənənələrə hörmətlə yanaşmaq hər birimizin borcudur. Bu, insana digər vəzifəsini, borcunu anlamağa, dərk etməyə kömək edir. Gülçöhrə xanımın bununla bağlı fikirləri də maraqlıdır:

-Anam çox etiqadlı insan idi, mən tez-tez onu əllərini Haqqın dərgahına açıb dua edən görərdim: "Sənə olan sevgilərini balalarımın qəlbindən çıxarma" deyərdi. Bizimlə söhbətində tez-tez Tanrı sevgisindən danışardı: "Qəlbinizdə yaradana sevgi varsa, qalan bütün xoşbəxtlikləri o, özü verəcək sizə." Dünyanı dərk etmək istəyimin ən qaynar çağlarında bu söhbətlər çox köməyimə gəlirdi. Anlayırdım ki, ürəyində Allah xofu olan yalan danışmaz, haram yeməz, böhtan atmaz, pis hisslərdən uzaq olar... Biz belə böyüyürdük: qəlbimizdə Tanrı sevgisi, içimizdə allah xofu. Həyat çox qəribədir. Bəzən varlı, imkanlı insanların bədbəxt, fərsiz övladlarını, kasıbçılıq içində xoşbəxt yaşayan ailələri görmüşük. Yaxşı yaşamağa hər kəsin haqqı var, lakin var - dövlət hər şeyi həll etmir. Hər şey yerində və qədərində olanda daha gözəldir.

Onunla söhbət etmək maraqlı idi.



Danışır, danışdıqca daxilindəki zəriflik, zənginlik açıqca duyulurdu. Nədənsə, həmişə idarəetmə sahələrində çalışan qadınları quru, ötkəm, bir az da ev-eşik qayğılarından uzaq təsəvvür edirik. Ancaq Gülçöhrə xanımı yaxından tanıdıqca, bu təsəvvürlərin yanlışlığına bir daha əmin olursan. Çünki ötən bu illərdə o qadın, ana, rəhbər işçi kimi üzərinə düşən hər bir vəzifəni layiqincə yerinə yetirməyə çalışdı, etimadı doğrultdu, evdəkiləri iş, işdəkiləri ev qayğıları ilə yükləmədi. Hər şeyin yerini bildi, hər şeyi qədərində etdi.

Həyatda pillə-pillə ucalanda, zəhmət, alın təri ilə yüksələndə uğurlar səni daha çox sevindirir. Doğrudur, hər kəsin həyat yollarında ona düzgün yol göstərən, onu istiqamətləndirən, büdrəyəndə qolundan tutan xeyirxahlar olur. Lakin çox şey insanın özündən asılıdır.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

## "ADA" Universitetində təşkil olunan karyera yarmarkası məzunların gələcək fəaliyyətində mühüm rol oynayacaqdır

**Bakı, 27 fevral (AzərTAc).** Fevralın 27-də "ADA" Universitetində bu ali məktəbin Karyera Hazırlıq Mərkəzinin təşkilatçılığı, "Azersun Holding" şirkətlər qrupunun dəstəyi ilə keçirilən "İstedad və karyeralar arasında körpü yaradılması" mövzusunda ikinci karyera həftəsi çərçivəsində karyera yarmarkası təşkil olunmuşdur.



Yarmarkada dövlət qurumları, eləcə də özəl sektoru təmsil edən şirkət və təşkilatlar iştirak etmişlər.

Karyera Hazırlıq Mərkəzinin rəhbəri Gülnur İsmayıl jurnalistlərə müsahibəsində bu cür yarmarkaların təşkilinin tələbələrin gələcək fəaliyyətlərində əhəmiyyətindən danışmış, "ADA" Universitetinin məzunlarının bir sıra dövlət orqanlarında, eləcə də diplomatik korpuslarda çalışdıqlarını və belə tədbirlərin gənclərin karyera quruculuğunda vacibliyini vurğulamışdır.

Bildirilmişdir ki, Karyera Hazırlıq Mərkəzinin məqsədi tələbələri əmək bazarı ilə tanış etmək və eyni zamanda onları gələcək peşə fəaliyyətinə hazırlamaqdır. Bu, "ADA" Universitetinin tarixində artıq ikinci karyera sərgisidir.

Gənclərin karyera qurmalarında və gələcək fəaliyyətində önəmli rol oynayan karyera yarmarkasında Azərbaycanda fəaliyyət göstərən müxtəlif sektorlardan 35 qurum və şirkət təmsil olunmuşdur. Bu il iştirakçıların sayı ötən ildəkindən çoxdur.

Karyera yarmarkası şirkətlərə gənc və ali təhsilli peşəkarları tanımaq və potensial işçiləri tapmaq, həmçinin gəncləri işlə təmin etməyə kömək etmək məqsədi daşıyır.

Karyera yarmarkası sonuncu kurs bakalavr və magistratura tələbələri üçün təşkil olunmuşdur. Burada onlara əmək bazarında lazım olan bacarıqlar öyrədilmiş, həmçinin özlərinin karyera hədəflərini təyin etməyə kömək göstərilmişdir.

İştirakçılar müxtəlif şirkətlərin nümayəndələri ilə söhbətlər və məsləhətləşmələr aparmışlar. Bundan əlavə, tələbə gənclər Azərbaycanın ən iri özəl şirkətləri və dövlət qurumlarında vakansiyalar və işəgötürmə prosedurları haqqında informasiya əldə etmək imkanı qazanmışlar. ■




## "Azərsun Holdinq" Xocalı soyqırımını silsilə tədbirlərlə yad etdi

Tariximizə qara hərflərlə yazılan, xalqımızın qan yaddaşına çevrilən Xocalı soyqırımının 22-ci ildönümü bu gün respublikamızın hər yerində böyük hüznlə qeyd olunur. Üstündən 22 il keçməsinə baxmayaraq, bütün idarə və təşkilatlarda, səhiyyə və tədris ocaqlarında xalqımızın sağalmaz yarası olan Xocalı qətliamına həsr olunmuş genişmiqyaslı tədbirlər keçirilir, foto və rəsm sərgiləri təşkil olunur. "Azərsun Holdinq" Şirkətlər Qrupunda da Xocalı soyqırımı qurbanlarının xatirəsi silsilə tədbirlərlə yad edildi. Tədbirlər çərçivəsində Xocalı rayon İcra Hakimiyyətinin bilavasitə iştirakı, Xocalı Soyqırımını Tanıtma İctimai Birliyi, "Image" şirkəti və "Miras" İctimai Birliyi və birgə Azərbaycan xalqına qarşı törədilən bu faciə haqqında sənədli film hazırlandı. Eyni zamanda faciə barədə sənədlər və ətraflı məlumatların yerləşdirildiyi www.26 febral.az veb portalı da ictimaiyyətə təqdim edildi. Həmçinin şirkətlər qrupunun dəstəyi ilə




Şuşa Dövlət Dram Teatrının təqdimatında Xocalı faciəsinə həsr edilmiş tamaşa səhnələşdirilərək holdinqin mədəniyyət mərkəzində nümayiş olundu.

Fevral ayının 26-da isə "Azərsun Holdinq" şirkətlər qrupunun rəhbəri Abdulbari Gözəl və holdinqin kollektivi soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış "Ana harayı" abidəsini ziyarət edərək önünə gül çələngi və tər çiçəklər qoydular.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

## ABŞ konqresmenləri dünya liderlərini Azərbaycan torpaqlarının işğalına son qoyulmasına kömək göstərməyə çağırmışlar



**Vaşinqton, 27 fevral (AzərTAc).** ABŞ Konqresinin üzvləri Cin Qrin və Tim Rayn Konqresdə Xocalı faciəsinin 22-ci ildönümü ilə əlaqədar bəyanatlarla çıxış etmişlər.

Konqresmen Cin Qrin bəyanatında Xocalının Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ən böyük üç yaşayış məntəqəsindən biri olduğunu söyləmiş, Xocalı faciəsinin nüfuzlu beynəlxalq media qurumları tərəfindən işıqlandırıldığını bəyan etmişdir. Azərbaycanın ABŞ-ın mühüm tərəfdaşı və dostu olduğunu vurğulayan konqresmen dünya liderlərini Azərbaycan torpaqlarının işğalına son qoyacaq sülh razılaşmasının əldə olunmasına kömək etməyə çağırmışdır.



Konqresmen Tim Rayn da Xocalı faciəsinin qurbanlarını yad etmişdir. O, Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin ədalətli həllinin regionda uzunmüddətli sülhün bərqərar edilməsi baxımından həlledici olacağını vurğulanmışdır. ■

## Ermənistanın Vaşinqtondakı səfirliyi qarşısında Xocalı qırğını qurbanlarının xatirəsinə həsr edilmiş etiraz aksiyası keçirilmişdir

**Vaşinqton, 27 fevral (AzərTAc).** Fevralın 26-da Ermənistanın Vaşinqtondakı səfirliyi qarşısında etiraz aksiyası keçirilmişdir.

ABŞ Azərbaycanlıları Şəbəkəsinin təşkil etdiyi mitinqdə Vaşinqtonun və onun ətraflarının Azərbaycan icmasının üzvləri iştirak etmişlər. Plakatlarda Xocalı qırğını barədə faktlar təqdim edilmiş, bu qətliamı dövlət səviyyəsində tanımaq çağırışları yazılmış, faciənin ABŞ-ın bir sıra ştatları və bəzi ölkələr tərəfindən tanınması, Serj Sarkisyanın təkcə 1992-ci ilin fevralında Xocalı sakinlərinə deyil, həm də Sarkisyan rejimi tərəfindən 10 dinc erməni nümayişçisinin öldürüldüyü 2008-ci ilin martında öz vətəndaşlarına divan tutması barədə məlumatlar olmuşdur.

ABŞ Azərbaycanlıları Şəbəkəsinin həmtəsisçiləri Adil Bağırov və Bədir Məmmədli etiraz aksiyası iştirakçıları ilə bərabər, Ermənistan hökumətini Xocalı qırğınını tanımağa çağırmış, erməni silahlı qüvvələrinin Azərbaycandan çıxarılmasının, girovların azad olunmasının və Azərbaycan qaçqınlarının doğma yurd-yuvalarına qayıtmasının təmin olunmasını tələb etmişlər. Azərbaycan icması Ermənistan hökumətini Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin digər yaşayış məntəqələrində, o cümlədən Malıbəyli, Quşçular, Ağdaban və Qaradağlıda da azərbaycanlıların kütləvi şəkildə qətlə yetirilməsi faktını tanımağa çağırmışdır.

Etiraz aksiyasının iştirakçıları sonda üzərində "Biz Xocalı qırğınını xatırlayırıq. 613" sözləri yazılmış qara şarları səmaya buraxmış, bununla da Xocalıda kütləvi qətliam qurbanlarının nurlu xatirəsini anmışlar.

Qeyd edək ki, ABŞ Azərbaycanlıları Şəbəkəsi hər il Xocalı soyqırımının tanınması tələbləri ilə birlikdə bu qırğının qurbanlarının xatirəsinə etiraz aksiyası keçirir. ■

## XOCALI QURBANLARININ XATİRƏSİ MİNSK ŞƏHƏRİNDƏ DƏ YAD EDİLDİ

Belarus Azərbaycan İcmaları Konqresinin, Belarus Azərbaycanlı Gənclər Birliyinin və Azərbaycanın Belarısdakı səfirliynin birgə təşkilatçılığı ilə keçirilən anım mərasimində Belarus Azərbaycan İcmaları Konqresinin sədri Natiq Bağırov, Azərbaycanın Belarusdakı səfiri İsfəndiyar Vahabzadə çıxış edərək 22 il bundan öncə Xocalı şəhərində törədilmiş misli görünməmiş vəhşilikləri ermənilərin son iki əsrdə Azərbaycan xalqına qarşı həyata keçiritdikləri soyqırım siyasətinin məntiqi davamı kimi dəyərləndirdilər. Xocalı qurbanlarının qanının yerdə qalmayacağını vurğulayan natiqlər, hərbi və iqtisadi qüdrətinə görə bölgədə lider dövlətə çevrilən Azərbaycanın istənilən vaxt işğal altında olan torpaqlarını geri qaytarmağa qadir olduğunu diqqətə çatdırdılar. Beynəlxalq təşkilatların və dünya birliyinin erməni qəsbkarlarının Xocalı şəhərində törətdikləri vəhşiliklərə hüquqi siyasi qiymət verməmələrini dünyada hökm sürən ikili standartların məntiqi nəticəsi kimi səciyyələndirdi. Biz Vətənimizin sıravi əsgərləriyik. Azərbaycanın Ali Baş Komandanı İlham Əliyevin bir əmri bəs edər ki, hamımız silaha sarılaraq qısa bir müddətdə torpaqlarımızı düşmən tapdağından azad edək. Bu gün iqtisadi böhran içərisində yaşayan Ermənistan dövləti bu reallıqları nəzərə almasa, qüdrətli Azərbaycan ordusunun qarşısında diz çökməli olacaq deyə Natiq Bağırov fikrini bildirdi.

Anım mərasimində Belarus Azərbaycanlı Gənclər Birliyinin sədri Elvira İmanova, Azərbaycan dili və mədəniyyəti mərkəzinin rəhbəri Elanura Hüseynova və digər gənclər çıxış edərək, 5 il bundan öncə Heydər Əliyev fondunun vitse prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə dünyanın müxtəlif ölkələrində "Xocalıya ədalət!" kampaniyası çərçivəsində həyata keçirilən tədbirlərin erməni vandalizminin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadığını vurğuladı. Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan gəncliynin üzərinə düşən vəzifələrdən bəhs olundu. Sonra tədbirə qatılanlar Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanmış "Xocalı harayı" filminə baxmaqla ermənilərin Xocalı şəhərində uşaqlara, qadınlara, qocalara və dinc əhaliyə qarşı həyata keçirtdikləri vəhşiliklərlə tanış olublar. Sonda mərasim iştirakçıları adından Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilməsi üçün beynəlxalq təşkilatlara müraciət qəbul olundu.

**Qədir ASLAN,**
**"Respublika".**

# BİR GECƏNİN DƏHŞƏTLƏRİ



Artıq 22 ildir ki, xalqımız soyuq bir qış gecəsində törədilmiş insanlığa sığmayan, dəhşətli bir soyqırımın ağrısını yaşayır. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə. O gecə dəhşət yaşadı Xocalı. Elə bir dəhşət ki, hələ tarix belə müsibət, belə vəhşilik görməmişdi. Ermənistan silahlı qüvvələri və Dağlıq Qarabağdakı ermənilərin qeyri-qanuni silahlı dəstələri keçmiş SSRİ-nin Xankəndidə yerləşən 366-cı motoatıcı alayının bilavasitə iştirakı ilə Xocalını zəbt edərək bu qədim Azərbaycan şəhərini yerlə-yeksan etdi. Qana susamış düşmən heç kimə - qadına, qocaya, uşağa, hətta südəmər körpəyə belə rəhm etmədi. O müdhiş gecədə 613 nəfər, o cümlədən 63 uşaq, 100 qadın, 70 qoca xüsusi amansızlıqla, işgəncələrlə öldürüldü, yüzlərlə insan əsir düşdü, girov götürüldü.

Yaddaşımıza qara hərflərlə yazılan Xocalı soyqırımı illər, əsrlər ötsə belə bu xalqın yaddaşından silinməyəcək. Bu gün ölkəmizin hər yerində Xocalı faciəsinin 22-ci ildönümü qeyd edilir. İdarə və təşkilatlarda, təhsil, səhiyyə, mədəniyyət müəssisələrində tədbirlər keçirilir, faciəni əks etdirən foto və rəsm sərgiləri təşkil olunur, məktəblilər arasında inşa yazı müsabiqələri aparılır, faciənin şahidləri, şəhid ailələri ilə görüşlər keçirilir.

Səbail rayonundakı 236 saylı tam orta məktəbdə də şagirdlərin, müəllim kollektivinin və valideynlərin iştirakı ilə bəşəri cinayət kimi tarixə yazılmış Xocalı faciəsinə həsr edilmiş tədbir keçirildi. İlk olaraq Xocalı şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Sonra tədbiri giriş sözü ilə məktəbin direktor müavini Baba Bayramov açaraq dedi: "Xocalı faciəsi xalqımızın tarixində ən dəhşətli faciədir. Bu faciə ermənilərin xalqımıza qarşı 200 il ərzində həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsidir. Düşmənin bu faciəni törətməkdə məqsədi tarixi, əzəl torpaqlarımızı ələ keçirməklə yanaşı, həm də xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə əzmini də qırmaq idi. Doğrudur, bu gün dədə-baba yurd yerlərimizin bir hissəsi, o cümlədən də Xocalı düşmən tapdağı altındadır. Lakin mənfur düşmən bununla öz niyyətinə çatmadı və çatmayacaq. Xocalılılar o dəhşətli gecədə müasir silahlarla silahlanmış düşmən qarşısına əliyalın çıxaraq axır qanlarına qədər vuruşdular. Mənfur xislətli düşmən onların vətən məhəbbətini, mübarizə əzmini qıra bilmədi. Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımını hər birimiz yaddaşımıza həkk etməli, düşmənə nifrət hissini özümüzdə yaratmalıyıq. Bu faciə bizim qan yaddaşımızdır".



Məktəbin direktor müavini Yaqut İslamova da həmin gecə xalqımıza qarşı törədilən vəhşilikdən ürəkağrısı ilə danışdı. O dedi: "Azərbaycan tarixinin qədim dövrlərindən müasir dövrünə qədər tarix və mədəniyyət ənənələrini özündə yaşadan Xocalı şəhəri bir gecədə yerlə-yeksan edildi. Belə ki, təkcə Azərbaycana deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəldilmiş bu cinayət həm də dünya mədəniyyətinə edilən zorakılıq aktıdır. Burada maddi mədəniyyət abidələrinin və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığının darmadağın edilməsi erməni vandalizminin bariz nümunəsidir. Bu qanlı cinayət cəzasız qalmayacaq. Tez və ya gec tarix öz ədalətli hökmünü çıxaracaq. Bu işdə biz müəllimlərin də üzərinə böyük məsuliyyət düşür. Biz gənc nəsli Vətən, xalq uğrunda canlarından keçənlərə məhəbbət, düşmənə isə nifrət hissi ilə tərbiyə etməliyik".

Sonra Azərbaycan dili və ədəbiyyatı müəllimi Şəlalə Mustafayeva, musiqi müəllimi İlahə Quliyeva və sinif rəhbəri Mehparə Səlimovanın təşkilatçılığı ilə məktəbin V, VI, VII sinif şagirdlərinin hazırladıqları "Xocalı - qan yaddaşımızdır" adlı ədəbi-bədii kompozisiya yaddaşları bir daha təzələdi. Uşaqlar söylədikləri şeir, hazırladıqları səhnəciklərlə xalqımıza qarşı törədilən soyqırımın ağrı-acısını böyük kədər hissi ilə ifadə etdilər. Bu, həm də soyqırım qurbanlarının xatirəsinə ehtiramın təcəssümü idi.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

# Keçmişin ibrət dərslərindən nəticə çıxarmalıyıq

**Düşmən üzərində qələbə çalmaq üçün onun xüsusiyyətlərini öyrənmək, psixologiyasına bələd olmaq çox vacib amillərdən biridir. Əfsuslar ki, ürəkyumşaqlığımızı bilib, unutqanlığımıza bələd olan ermənilər əsrlər boyu qılığımıza girərək oba və yurdlarımızda məskən salmış, sonradan isə qanımızı töküb torpaqlarımızı işğal etmişlər. Lakin "ziyanın yarısından qayıtmaq da xeyirdir" — deyərlər. Bu gün düşməni və onun başımıza gətirdiyi bütün faciələri diqqətlə öyrənib, dəqiq araşdırmalıyıq ki, gələcəkdə hər bir fitnə və həmləyə hazır olaq və sonda zəfər yürüşü ilə itirdiklərimizi də qaytara bilək.**

**Bu baxımdan 26 il öncə, 1988-ci il fevralın 28-29-da Sumqayıtda baş verən hadisələri sonrakı qanlı olayların başlanğıcı kimi yada salıb təhlil etmək çox vacibdir. Bununla əlaqədar əməkdaşımız o günlərin canlı şahidi olan Sumqayıt Şəhər İcra Hakimiyyətinin Corat qəsəbəsi üzrə nümayəndəsi Cəmil Quliyevlə görüşərək ondan gördüklərini danışmağı xahiş etmişdir. Cəmil müəllim demişdir:**

—Aradan bu qədər vaxt keçdikdən sonra bu hadisələrin mahiyyəti, başvermə səbəbləri daha aydın şəkildə nəzərə çarpır. SSRİ-nin xüsusi xidmət orqanları və erməni separatçıları tərəfindən hazırlanmış və həyata keçirilmiş bu hadisələrin başlıca günahkarları Kommunist Partiyasının baş katibi Mixail Qorbaçov və onun ermənipərəst ətrafı idi. Bunu belə əminliklə söyləməyə mənə haqq verən isə o zaman mənzil istismar sahəsinin rəisi işlədiyimdən hadisələri yaxından izləyə bilməyimdir.

Hadisələrin müəyyən ssenari ətrafında, planlı şəkildə həyata keçirildiyini sübut edən bir sıra məqamlara diqqət yetirək. Əvvəlcə onu qeyd edim ki, hələ hadisələrdən 5-6 gün qabaq şəhərdə heç kimin tanımadığı qrup peyda olmuşdu. Dəstələrə bölündükləri üçün onlara eyni vaxtda şəhərin müxtəlif hissələrində rast gəlmək olurdu. Müşahidələr göstərirdi ki, onların başlıca məqsədlərindən biri də həmin günlər şəhərdə şayiələr yaymaqla çaxnaşma salmaq idi. Maraqlıdır ki, hadisələr səngiyib qurtarandan sonra bu adamların heç biri şəhərdə gözə dəymədi. Çox təəssüflər olsun ki, hadisələri araşdıran hüquq-mühafizə orqanları həmin faktların üstündən sükutla keçdilər.

Bildiyiniz kimi, o vaxtlar videokameraların az olması ilə əlaqədar videoçəkiliş elə də yayılmamışdı. Lakin "ssenaristlər" bu hadisələrə elə güclü hazırlaşmışdılar ki, qanlı aksiyalar törədən qrupların hər birində videooperator var idi. Və onlar olaylar baş verəcək konkret yerlərdə çəkilişə hazır olurdular. Təsadüfi deyil ki, şəhərdə baş verən olaylardan dərhal sonra çəkilən materiallar müxtəlif ölkələrin telekanalları ilə yayımlandı.

Eyni zamanda, bəzi faktlar şəhərdə yaşayan ermənilərin böyük əksəriyyətinin bu hadisələrdən çox-çox əvvəldən xəbəri olduğunu təsdiqləyir. Məsələn, fevral ayından qabaq erməni millətindən olan vətəndaşların şəhər dükanlarından böyük məbləğdə malı kreditlə alması, əmanət banklarından pulların çıxarılması və köçüb getməsi faktları versiyanın doğruluğunu aydın şəkildə göstərir.

Bəs, niyə bu hadisələri həyata keçirmək üçün məkan məhz Sumqayıt şəhəri seçildi? Bunun bir sıra səbəbləri var. Hər şeydən əvvəl, Sumqayıt çoxmillətli şəhər idi. Burada kimya və metallurgiya sənayesinin inkişafı ilə bağlı keçmiş SSRİ-nin müxtəlif şəhərlərindən onlarca millətin nümayəndəsi məskunlaşmışdı. Bir də Sumqayıt gənclik şəhəridir. Burada ölkəmizin müxtəlif regionlarından gəlmiş minlərlə gənc yaşayır. Gənclərin beyninə milli zəmində təsir etmək daha asan olduğu üçün təşkilatçılar bu amili də nəzərə almışdılar. Burada baş verənlər ölkənin digər bölgə və şəhərlərində də tezliklə yayıla bilərdi. Təşkilatçılar bu amillərdən istifadə edib hadisələrin əhatə dairəsini genişləndirmək istəyirdilər. Xoşbəxtlikdən bu istəklərinə nail ola bilmədilər.

Sumqayıtda baş verən hadisələrdən danışarkən hüquq-mühafizə orqanlarının, xüsusilə də prokurorluğun birtərəfli münasibətini də qeyd etməliyik. İşlərin bütövlükdə Moskvanın sərəncamına verilməsi, respublika prokurorluğunun prinsipsiz mövqe tutaraq yaxasını kənara çəkməsi nəticəsində min nəfərdən çox sumqayıtlı təhqir dolu istintaq və işgəncələrə məruz qaldı. Qanlı olayların əsas təşkilatçısı olan "Paşa" ləqəbli Eduard Qriqoryan cəmi 12 il həbs cəzası aldığı halda, bu işlərdə əli olmayan Əhməd Əhmədov ən ağır cəzaya — güllələnməyə məhkum edildi.

Olayları diqqətlə öyrəndikdə bu hadisələrin həyata keçirilməsində ən azı iki maraqlı tərəfin mövcudluğu tam bəlli olur. Onlardan birincisi və elə ən qlobalı M.Qorbaçovun rəhbərliyi ilə dünya sosialist sistemi və eləcə də SSRİ-ni dağıtmaq siyasətini həyata keçirən qüvvələr idi. İkinci maraqlı tərəf isə, sözsüz ki, Dağlıq Qarabağı Azərbaycandan qopararaq Ermənistana birləşdirmək istəyən erməni millətçiləri olmuşdur. Axı həqiqətən də, bu hadisələrdən sonra SSRİ kimi nəhəng bir dövlət dağılaraq siyasi meydandan yox oldu. Qarabağ müharibəsi başlandı, 20 faizə qədər torpaqlarımız erməni işğalçıları tərəfindən zəbt edildi, XX əsrin ən böyük qətliamlarında biri olan Xocalı faciəsi və minlərlə azərbaycanlının ölümü ilə nəticələnən neçə-neçə digər qanlı olaylar baş verdi.

Bu tarixi faktları nəzərdən keçirərkən daha dəhşətli bir məqam üzə çıxır. O da ermənilərin heç vaxt öz çirkin məqsədlərindən özbaşına dönməyəcəyidir ki, bugünkü reallıq da bunu sübut edir. Ermənilər işğalçılıq siyasətlərini hazırkı dövrdə də usanıb çəkinmədən davam etdirir. Düzdür, indi onlar öz fitnə dolu planlarını həyata keçirməkdə çox çətinlik çəkir. Çünki dünya artıq ermənilərin yalanlarına uymur. Kimin kim olduğunu başa düşməyə başlayır. Bu gün Azərbaycan da dəyişib və 20-25 il əvvəlki iqtisadiyyatı böhran içində boğulan ölkə deyil. Müasir Azərbaycan dinamik inkişafda olan, sürətlə qabaqcıl ölkələr sırasına inteqrasiya edən bir dövlətdir. Heydər Əliyev dühası ilə yaranan bu dövlət çox sevindiricidir ki, hazırda möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən layiqincə idarə olunaraq görünməyən bir templə tərəqqi edir. Elə bu amillərdir ki, indi Azərbaycan hər sahədə ermənilərin iftira və böhtanlarına kəsərli cavab verib, onların qaniçən arzularını ürəyində qoya bilir. Əminəm ki, Azərbaycan yaxın zamanlarda erməni tapdağı altında qalan torpaqlarını geri qaytarıb öz ərazi bütövlüyünü təmin edəcək. Buna bizim həm mənəvi, həm də hüquqi haqqımız var. Axı bu torpaqlar tarix boyu bizim dədə-babalarımızın yurd-obası olub. Ulu öndər Heydər Əliyevin təbiri ilə desək "Tarixi dəyişmək qeyri-mümkündür. Əsrlər boyu Qarabağ Azərbaycanın olub və Azərbaycanın da olacaq".

**Söhrab SƏFİYEV,**
**"Respublika".**

*Binəqədi rayonu:*

# XOCALI ŞƏHİDLƏRİ EHTİRAMLA YAD EDİLDİ

Binəqədi rayonunun 135 saylı tam orta məktəbində Xocalı soyqırımının 22-ci ildönümü münasibətilə anım tədbiri keçirildi.



Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva, Binəqədi RİH başçısı Aparatının məsul işçiləri, Milli Qəhrəmanları Tanıtma İctimai Birliyinin sədri Elşən Uluxanlı, Xocalı Soyqırımını Tanıtma İctimai Birliyi Binəqədi rayon şöbəsinin sədri Ayna Novruzova, rayonun fəal gəncləri və məktəblilər iştirak edirdilər.

Tədbir çərçivəsində ilk öncə, Binəqədi RİH başçısının müavini Aygün Əliyevanın iştirakı ilə Milli Qəhrəmanları Tanıtma İctimai Birliyinin təşkil etdiyi XX əsrin əvvəllərindən etibarən erməni qəsbkarlarının Azərbaycan xalqına qarşı törətdiyi qırğın və qətliamları, o cümlədən Xocalı həqiqətlərini əks etdirən fotosərgiyə, eləcə də Binəqədi RİH ilə Gənclər və İdman İdarəsinin "Xocalı–qan yaddaşımız" mövzusunda rayon məktəbliləri arasında keçirdiyi rəsm müsabiqəsi iştirakçılarının əl işlərindən ibarət sərgiyə baxış oldu.

Məktəbin akt zalında Binəqədi Rayon Mərkəzi Mədəniyyət Evinin təşkilatçılığı ilə şagirdlərin ifasında təqdim olunan bədii kompozisiyada soyqırım gerçəklikləri bədii lirikanın dili ilə tədbir iştirakçılarının diqqətinə çatdırıldı.

Anım tədbirində Binəqədi RİH başçısının müavini Aygün Əliyeva çıxış edərək zəngin və keşməkeşli tarixə malik xalqımızın qan yaddaşına həkk olunmuş Xocalı faciəsinin sadəcə bir qırğın aktı olmadığını, milli mənsubiyyətinə görə bir topluma qarşı törədilmiş soyqırım olduğunu bildirdi. Vurğulandı ki, bu gün Azərbaycanın müstəqil, suveren dövlət kimi, regional və beynəlxalq miqyasda böyük uğurlara imza ataraq tərəqqi edən ölkələr sırasında yer alması belə qəsdlərin xalqımızın əzmini qıra bilmədiyinin göstəricisidir.

Daha sonra Xocalı soyqırımının canlı şahidi, erməni vəhşiliyini öz gözləri ilə görmüş Sahil Həsənov həmin gün dinc, əliyalın insanlara, ixtiyar qocalara, məsum körpələrə qarşı azğın erməni qəsbkarlarının amansızlığını xatırladı və insanlıq əleyhinə yönəlmiş bu cinayət barədə acı xatirələrini tədbir iştirakçıları ilə bölüşdü.

Tədbir Binəqədi Rayon Gənclər və İdman İdarəsinin keçirdiyi rəsm, inşa müsabiqələri qaliblərinin fəxri fərmanlarla təltif olunması ilə yekunlaşdı.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**

# ANIM TƏDBİRİ





Vətənimizin hər yerində olduğu kimi, "Abşeronneft" NQÇİ-də də dərin kədərlə Xocalı soyqırımının 22-ci ildönümü ilə bağlı xatirə tədbiri keçirilmişdir.

Öncə tədbir iştirakçıları Xocalı soyqırımının qurbanlarının və Vətənimizin bütövlüyü uğrunda canından keçən şəhidlərimizin ruhunu bir dəqiqəlik sükutla yad etdilər. Tədbiri giriş sözü ilə açan YAP NQÇİ təşkilatının sədri Şamil Kazımov bildirdi ki, 1992-ci il fevralın 26-da erməni faşistləri, vandalları, rusların 366-cı motoatıcı alayı tərəfindən törədilən Xocalı soyqırımı XX əsrin ən dəhşətli cinayətlərindən biridir. Bu soyqırımda 613 nəfər dinc azərbaycanlı, o cümlədən, 63 uşaq, 106 qadın, 70 qoca bir neçə saatın içində amansızlıqla qətlə yetirilib. Həmçinin 487 nəfər ağır xəsarətlərə məruz qoyulub, 1275 nəfər isə girov götürülüb. Beynəlxalq hüquq normalarını, insan hüquqları üzrə ən müxtəlif konvensiyaları ayaq altına atan erməni hərbi birləşmələri insanları qətlə yetirmək məqsədilə ən qəddar üsullara əl atıblar. Həmin dövrdə səriştəsizlikdən bu qətliama siyasi qiymət belə verilməmişdir.

Ulu öndərimiz Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra bir çox mili facələrəimiz kimi, Xocalı soyqırımına da siyasi-hüquqi qiymətin verilməsi mümkün oldu.

Azərbaycan dövlətinin, Heydər Əliyev Fondunun bu istiqamətdə apardığı uğurlu fəaliyyətin nəticəsidir ki, artıq dünyanın bir sıra ölkələri, o cümlədən, ABŞ-ın bir neçə ştatı və beynəlxalq təşkilatlar rəsmən Xocalı soyqırımını tanıyıblar.

Daha sonra çıxış edənlər soyqırımın dünyada tanınması istiqamətində xüsusilə, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə elan edilən "Xocalıya ədalət!" kampaniyası çərçivəsində Xocalı qətliamının tanıdılaraq dünyanın bir sıra ölkələrində yad olunduğunu qeyd etdilər. Tələb olundu ki, nəhayət, nahaq qanın yerdə qalmaması üçün bu vəhşiliyi törədən cinayətkarlar ədalət məhkəməsinə cəlb olunaraq cavab versinlər.

Sonda tədbir iştirakçıları idarənin həyətində ucaldılan şəhidlərin abidəsi və şəhərdə "Ana fəryadı" abidəsi önünə tər çiçək dəstələri düzərək öz ehtiramlarını bildirdilər.

**Zahir QALİB.**

# Xocalı faciəsindən 22 il ötür

Tarix ermənilərin xalqımıza qarşı olan düşmənçiliyini, ədavətini, xain və məkrli niyyətlərini bir əsrdə dəfələrlə sübuta yetirib. Hər dəfə də ermənilərin törətdikləri vəhşiliklər, çirkin əməllər, terror, qanlı faciələr, işğalçılıq, deportasiya və soyqırım faktlarla təsdiq olunsa da, onlar cəzasız qalıblar. Böyük rus şairi A.S.Puşkin deyib: "Sən köləsən, sən qorxaqsan, sən ermənisən." Öz havadarlarının köməyinə arxalanan Ermənistan təcavüzkar niyyətini həyata keçirir. Bu isə yüz minlərlə insanın taleyinə faciə gətirir.

Ən yaxın tariximizin səhifələri erməni vandalizmini, insanlıq tarixinə ləkə gətirən vəhşilikləri özündə əks etdirir. ürək ağrısıyla olsa da, bu faktları yenidən xatırlatmalıyıq. Erməni terror təşkilatları və Ermənistan silahlı qüvvələri 1986-1993-cü illərdə Azərbaycan vətəndaşlarına qarşı çoxlu terror əməli və dinc əhaliyə qarşı soyqırım törətmişlər.

Dağlıq Qarabağın Azərbaycandan ayrılması istiqamətində öz iyrənc məqsədlərinə çatmaq üçün bütün vasitələrdən istifadə edən ermənilər Moskvanın yüksək statuslu antiazərbaycan meyilli məmurlarından güclü şəkildə dəstək alır və istifadə edirdilər. Hadisələrin başlandığı ilk günlərdən Dağlıq Qarabağda yaşayan azərbaycanlılar öz haqq səslərini hər tərəfə çatdırırdılar. Lakin bunlar heç bir nəticə vermədi. Münaqişə isə getdikcə genişlənir, daha qanlı xarakter alırdı. Kəndlər, şəhərlər yandırılır və talan edilirdi...

Xocalı erməni kəndlərinin əhatəsində qalsa da, Əsgəranla Xankəndi arasında məğrur dayanmıqdı. Xocalıya görə ermənilər çox əl-qol aça bilmirdilər. Dinc əhali isə bütün məhrumiyyətlərə dözürdü.

Xocalı 1991-ci ilin əvvəllərindən hər tərəfdən mühasirəyə alınmışdı. Yollar tamam kəsilmişdi, ümid qalmışdı hava yoluna. Onu da ermənilər hər vaxt atəşə tuta bilirdilər. Bir neçə vertolyot və "AN-2" təyyarəsi ermənilər tərəfindən vurularaq məhv edilmişdi. Həmin illər ərzində Azərbaycan hökuməti tərəfindən Xocalının müdafiəsi üçün heç bir iş görülməmişdi. Və bütün rəhbərlər də bilirdi ki, Xocalı mühasirədə qalıb. Fevralın 25-də isə Xocalının ölüm hökmü oxundu. Keçmiş SSRİ-nin 366-cı motoatıcı alayı və erməni hərbi birləşmələri Xocalıya divan tutdu. Əsl soyqırım törədildi: 613 nəfər həlak oldu, 1275 nəfər əsir düşdü, 8 ailə büsbütün məhv edildi, 200 nəfərdən artıq insan müxtəlif dərəcəli əlil oldu. Faciənin miqyası böyük və dəhşətli idi. Ağdam istiqamətində düzlər, dərələr, dağlar günahsız insanların meyitləri ilə dolu idi. Körpədən tutmuş qocaya qədər hamısı süngülərdən keçirilmişdi.

Fevralın 26-sı gününü yaxşı xatırlayıram. Soyuq, sazaqlı bir qış günü idi. Şelli dağından ölümün, qəsdin, tələnin pəncəsindən qurtulan uşaqları, qadınları, qocaları qarşılayıb xəstəxanaya yola salırdıq. Yaralarından qan şoralanan bu insanlar bir-birindən, ana baladan, ata oğuldan, qardaş bacıdan ayrı düşmüşdü. Onları ovundurmaq mümkün deyildi. Həmin vaxt Ağdam özünümüdafiə dəstələri ermənilərə qarşı döyüşərək qan bahasına meyitləri düzlərdən, meşələrdən toplayırdı. Xocalı sakinlərini danışdırır, onların necə qurtulduqlarını soruşurduq. Bu adamlar öz müsibətlərini, faciələrini göz yaşları içrəsində danışsalar da, söhbətlərinin sonunda deyirdilər:

- Bizim bu sözlərimizi bütün Azərbaycana çatdırın. Respublika rəhbərlərini lənətləyirik. Onlar satqın və namərddirlər. Ona görə də Heydər Əliyev Azərbaycana gəlməlidir. Gəlsin, bu xalqı qırğından, müsibətdən, zülmdən xilas etsin. Nicatımız yalnız onadır! 1992-ci ilin qarlı-çovqunlu fevral günündə soyqırımın dəhşətini gözləri ilə görmüş insanlar elə o vaxtdan Heydər Əliyevə arxalanırdılar, ondan imdad, kömək gözləyirdilər. Onu da qeyd edim ki, həmin vaxt Heydər Əliyevin adını belə çəkmək onlara baha başa gələ bilərdi. Lakin bu çarəsiz, aldadılmış, təhqir edilmiş insanlar tələb edirdilər. Sadə adamlar böyük bir həqiqəti başa düşürdülər. Çox təəssüf ki, respublikanın o vaxtki rəhbərləri, deputatlar, ziyalıların böyük əksəriyyəti bu aydın həqiqəti başa düşmək istəmirdilər.

Ermənilərin azərbaycanlılara qarşı törətdikləri Xocalı soyqırımından uzun illər keçir. Hələ də bu qanlı faciənin üstü açılmayan, gizli qalmış məqamları çoxdur. Bir çox suallara hələ də cavab tapılmayıb. Hələ yüzlərlə insanın taleyindən heç bir soraq yoxdur.

Xocalı 1991-ci ilin oktyabrından blokadada idi. Oktyabrın 30-dan etibarən şəhərə aparan bütün avtomobil yolları bağlanmış, yeganə nəqliyyat vasitəsi vertolyot qalmışdı.

Xocalıya sonuncu vertolyot 1992-ci il yanvar ayının 28-də endi. Şuşa səmasında mülki vertolyotun vurulması, vertolyotun içindəki 47 nəfər azərbaycanlının həlak olmasıyla şəhərlə hava əlaqəsi də kəsildi. Yanvarın 2-dən şəhərə elektrik enerjisi də verilmirdi. Xocalılar ancaq öz qəhrəmanlıqları və şəhər müdafiəçilərinin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdular. Şəhərin müdafiəsi əsasən avtomat və ov tüfəngləri ilə silahlanmış yerli özünümüdafiə dəstəsi, yerli milis qüvvələri və Milli Ordunun döyüşçülərindən təşkil olunmuşdu.

Fevralın ikinci yarısından başlayaraq Xocalı erməni silahlı dəstələrinin mühasirəsinə alınmışdı və hər gün toplardan, ağır texnikadan atəşə, erməni dəstələrinin həmlələrinə məruz qalırdı.

Xocalıya hücuma hazırlıq fevralın 25-də axşam 366-cı alayın hərbi texnikasının döyüş mövqelərinə çıxması ilə başlanmışdı. Şəhərə hücum toplardan, tanklardan, "Alazan" tipli zenit toplardan 2 saatlıq atəşdən sonra başlandı. Xocalıya bir neçə istiqamətdən hücum aparıldığından əhali Əsgəran istiqamətində qaçmağa məcbur olmuşdu. Tezliklə aydın olmuşdur ki, bu məkrli hiylə imiş. Naxçıvanik kəndi yaxınlığında əhalinin qarşısı erməni silahlı dəstələri tərəfindən kəsilmiş və onlar güllələbarana tutulmuşlar. Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi məhz Əsgəran-Naxçıvanik düzündə erməni silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla məhv edilmişdir.

Həmin günlərdə Azərbaycan silahlı qüvvələri Xocalı sakinlərinin köməyinə çata bilmədi, hətta meyitlərin götürülməsi belə mümkün olmadı. Bu zaman isə ermənilər vertolyotlarla, ağ geyimli xüsusi qruplarla meşələrdə gizlənmiş insanların axtarışını aparır, aşkar edilənləri əsir götürür, işgəncələrə məruz qoyurdular.

Fevralın 28-də tərkibində yerli jurnalistlərin də olduğu qrup 2 vertolyotla azərbaycanlıların həlak olduqları yerə çata bildilər. Gördükləri mənzərə hamını dəhşətə gətirdi – düzənlik cəsədlərlə dolu idi. İkinci vertolyotun havadan mühafizəsinə baxmayaraq, ermənilərin güclü atəşi altında ancaq 4 meyiti götürmək mümkün oldu. Martın 1-də yerli və xarici jurnalistlərin iştirakı ilə hadisə yerində daha da dəhşətli vəziyyət müşahidə olunmuşdur. Meyitlərin skalplarının götürülməsi, qulaqlarının və digər orqanlarının kəsilməsi, gözlərin çıxarılması, çoxsaylı bıçaq və güllə yaraları, ağır texnika ilə əzilmələr, yandırılma halları aşkar edilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prokurorluğunda Xocalı soyqırımını araşdıran istintaq qrupu yaradılmışdır. Həmin istintaq qrupu ayrı-ayrı vaxtlarda, daha doğrusu, 1992-ci ildən sonrakı dövrlərdə 100 cilddən artıq istintaq materialları toplamışdır. İstintaq zamanı 3000 nəfərdən artıq Xocalı sakini və digər şahidlər dindirilmişdir.

Xocalı soyqırımına siyasi qiymət verən və bu barədə dünyanın ən yüksək tribunalarından danışan ulu öndərimiz Heydər Əliyev Xocalı sakinləri ilə görüşündə demişdir: "...biz toplaşıb Xocalı faciəsinin cavabını verək, şəhidlərin qanının yerdə qalmaması gününü görək, Azərbaycanın ərazi bütövlüyünü təmin edək. Müstəqil Azərbaycanın hüdudlarını tamamilə bərpa edək. İnanıram ki, Azərbaycan xalqı bu qüdrətə malikdir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi çox qəti və prinsipialdır: "Azərbaycan öz torpaqlarının işğal altında qalması ilə heç zaman barışmayacaqdır." 22 ilə yaxındır ki bu münaqişənin həlli ilə məşğul olan ATƏT tunelin sonunda işıq yandırmaq gücündə deyil. Azərbaycanın gələcəyinə nur saçacaq bu işığı yandırmaq öz gücümüzə və Ali Baş Komandana bağlıdır. Artıq həmin işığın işartıları görünür. Mübariz İbrahimovun, Ramil Səfərovun, İbad Hüseynovun qəhrəmanlığı Azərbaycan xalqını torpaqların azad olunması uğrunda haqq döyüşünə səfərbər edir.

Tunelin sonundakı işıq mütləq yanacaq, Qarabağın göz yaşlarına son qoyulacaqdır...

**Mərdan HƏSƏNZADƏ,**
**Bərdə rayon 1 saylı notariat kontorunun xüsusi notariusu.**

MİLLİ TƏHLÜKƏSİZLİK ORQANLARI - 95

# AZƏRBAYCANIN BAYRAĞI DAİM YÜKSƏKLƏRDƏ DALĞALANACAQ

**Bu gün Azərbaycan inamla ən uca zirvələrin fəthinə doğru gedir və bütün sahələrdə olduğu kimi, idmanda da böyük nailiyyətlərə imza atır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikada başlanan milli olimpiya hərəkatının siyasi və sosial əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Hazırda respublikanın hər tərəfində müasir və beynəlxalq standartlara cavab verən Olimpiya İdman kompleksləri, idman sağlamlıq mərkəzləri tikilərək peşəkar idmançıların, habelə həvəskarların istifadəsinə verilir. Çünki həm fiziki, həm də mənəvi cəhətdən sağlam nəslin yetişdirilməsi dövlətimizin gənclər və idman siyasətinin başlıca prinsipidir və bu işdə idmanın kompleks təşkilinin çox böyük rolu var. Məşhur bir ifadədə deyildiyi kimi: "Sağlam bədəndə sağlam ruh olar".**

**Xalqımız, millətimiz genetik xüsusiyyətlərinə görə fiziki cəhətdən sağlam insanlardan ibarət olan xalqdır, millətdir. Fiziki sağlamlıq və fiziki güc, mənəvi sağlamlıqla bərabər Azərbaycan xalqına, millətinə xas olan xüsusiyyətdir.**

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının ümummilli lideri.**

Son illərdə paytaxt Bakı ilə yanaşı, regionlarda da inşa olunan nəhəng idman mərkəzləri Azərbaycanın idman potensialının nümayişi, eləcə də gənclərin bu sahəyə meylinin artmasının göstəricisidir. Ölkəmizdə bu cür idman obyektlərinin tikilib istifadəyə verilməsinin bir məqsədi var: gənc nəslin sağlam böyüməsi və yetişməsi. Həmçinin Azərbaycanın yüksək səviyyəli beynəlxalq yarışların, mötəbər turnirlərin keçirildiyi idman ölkəsi kimi nüfuzunun genişlənməsi.

**Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncamla həyata keçirilən "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı"nda da gənclərin sağlamlığının qorunması prioritet məsələ olaraq öz əksini tapıb.** Gənclər arasında sağlam həyat tərzinin kütləvi bədən tərbiyəsi və idman vasitəsilə geniş təbliğ edilməsi, bu sahədə maarifləndirmə işinin genişləndirilməsi kimi görülən işlər Dövlət Proqramının başlıca müddəalarındandır. Dövlət başçısı tərəfindən hətta 2012-ci ilin "İdman ili" elan edilməsində, yeni idman-sağlamlıq mərkəzlərinin istifadəyə verilməsində və s. əsas məqsəd gənclərin sağlamlığının qorunması, buna xidmət edən təşviqedici və təbliğat xarakterli tədbirlərin keçirilməsidir. Çünki sağlam gənclik həm də sağlam gələcək deməkdir.

Azərbaycanda idmanın müxtəlif növləri üzrə, o cümlədən futbol, bədii gimnastika, tennis, boks, güləş, həmçinin əlbəyaxa döyüş üsullarından karate-do, dzü-do, taekvando və s. federasiyalarının yaradılması, respublikada idmanın maddi-texniki bazasının daha da möhkəmləndirilməsi istiqamətində görülən işlər idmanda bu gün qazanılan və gələcək uğurların stimulu və rəhnidir.

Respublikamızın müxtəlif dövlət qurumlarında, güc strukturlarında, o cümlədən **Milli Təhlükəsizlik Nazirliyində də əməkdaşların döyüş hazırlıqlarının yüksək səviyyədə saxlanılmasına, fiziki sağlamlıqlarının qorunmasına və möhkəmləndirilməsinə, idmanla mütəmadi məşğul olmalarına xüsusi önəm verilir.** Bu məqsədlə Milli Təhlükəsizlik Nazirliyində ən müasir imkanlara malik İdman və Sağlamlıq Mərkəzi yaradılmışdır. İdman və Sağlamlıq Mərkəzində mütəmadi olaraq müxtəlif idman növləri üzrə yarışlar və turnirlər keçirilir. Mərkəzdə idmanın əksər kütləvi növləri, o cümlədən əlbəyaxa döyüş, güləş, futbol, voleybol, həndbol, basketbol, tennis üzrə yay və qış meydançaları, 25 metrlik üzgüçülük hovuzu, gimnastika, trenajor zalları, məşqçi və təlimatçı, həkim, soyunub-geyinmə otaqları və duşxanalar vardır. Ən qabaqcıl standartlara cavab verən texniki ləvazimat və avadanlıqlarla təmin edilən mərkəzdə MTN-in Heydər Əliyev adına Akademiyasının kursant və dinləyicilərinin, eləcə də nazirliyin əməkdaşlarının idmanla məşğul olmaları, fiziki sağlamlıqlarını möhkəmləndirmələri üçün hər cür şərait yaradılmışdır. Belə sosial təyinatlı obyektlərin istifadəyə verilməsi Azərbaycanın güclənməsinə xidmət edəcək səriştəli və sağlam gənc kadrların yetişdirilməsi məqsədi daşıyır.

Bu gün Azərbaycan idmançıları ilə yanaşı, MTN İdman və Sağlamlıq Mərkəzinin "Titan" idman klubunun üzvləri də respublika və beynəlxalq səviyyəli yarışlarda iştirak edirlər. Onların əldə etdikləri uğurlu nəticələr, Dövlət Himnimizin səsləndirilməsinin sədaları altında Azərbaycan Bayrağının yüksəkliklərə ucaldılması hər birimizə qürur, fəxarət hissi bəxş edir. Son illər milli təhlükəsizlik orqanlarında aparılan təşkilati-struktur islahatlar, maddi-texniki və təlim-tədris bazasının möhkəmləndirilməsi, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi və iş şəraitinin yaxşılaşdırılması ilə yanaşı, əməkdaşların peşəkarlığının, döyüş və fiziki hazırlığının artırılmasına xüsusi diqqət yetirilir. Ölkə rəhbərinin gündəlik diqqət və qayğısı, milli təhlükəsizlik naziri Eldar Mahmudovun təşkilatçılığı, nəzarət və tələbkarlığı həm əməliyyat-xidməti fəaliyyətdə, həm də əməkdaşların idman göstəricilərində öz müsbət əksini tapır, uğurlarla müşayiət olunur. **Müxtəlif, o cümlədən beynəlxalq idman yarışlarında Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşlarının qələbələri artıq ənənəyə çevrilir, ildən-ilə çoxalır.**

Azərbaycanın idman nüfuzunun yüksəlməsinə xidmət edən milli təhlükəsizlik orqanları əməkdaşlarının qazandıqları qələbələrin oxucularımız üçün maraqlı olduğunu nəzərə alaraq, onlardan bəzilərinin qeyd edilməsi yerinə düşərdi:

İlk dəfə beynəlxalq yarışlarda qüvvələrini sınayan, bu ilin iyun ayında Türkiyənin İstanbul şəhərində keçirilən Kyukşin Kaykan karate üzrə 9-cu beynəlxalq turnirdə MTN-in "Titan" idman klubunun üzvləri - C.Əhmədov qızıl, M.Həsənzadə isə gümüş medal qazanmışlar.

2013-cü il iyunun 9-dan 16-dək İspaniyanın Barselona şəhərində "W.A.S.C.O" - Ümumdünya döyüş növləri təşkilatının keçirdiyi Dünya Çempionatında Kunq-fu üzrə yarışda A.Axundov iştirak edərək 2-ci yerə layiq görülmüşdür.

Elə həmin ayın 24-dən 29-dək Ukraynanın İliçevsk şəhərində Universal-döyüş üzrə Avropa Çempionatında M.Fərzəliyev, S.Salmanov və T.Məsimov iştirak etmişlər. M.Fərzəliyev Avropa çempionu adını qazanmışdır. T.Məsimov 2-ci, S.Salmanov isə 3-cü yeri tutmuşlar.

Böyük Britaniya Krallığı Şimali İrlandiyanın Belfast şəhərində cari il avqust ayının 1-dən 11-dək güc strukturları arasında IV Dünya Oyunlarında T.Quliyev, M.Hacımuradov, A.Əmirli, P.Ağayev və S.Salmanov iştirak etmişlər. M.Hacımuradov və S.Salmanov qızıl, A.Əmirli və P.Ağayev gümüş, T.Quliyev isə bürünc medallar qazanmışlar.

A.Menyayev və E.Həbibov isə avqustun 1-dən 13-dək İtaliyanın Torino şəhərində Veteran idmançılar arasında I Dünya Oyunlarında iştirak etmişlər. E.Həbibov cüdo növündə gümüş, A.Menyayev şüvüllə tullanmada bürünc medal qazanmışlar.

Qeyd olunmalıdır ki, Azərbaycanın idman nüfuzunun qorunmasına və möhkəmləndirilməsi işinə layiqli töhfələrin verilməsi məqsədilə "Titan" idman klubunun üzvlərinin nüfuzlu beynəlxalq yarışlarda iştiraklarının təmin edilməsi daim Milli Təhlükəsizlik Nazirliyinin rəhbərliyinin diqqət mərkəzində olmuş və və bütün lazımi təşkilati məsələlər yüksək səviyyədə həyata keçirilmişdir.

Məhz bunun bariz nəticəsidir ki, beynəlxalq yarışlarda iştiraka buraxılmış Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları "Titan" idman klubunun üzvlərinin hamısı həmin turnirlərdən Azərbaycana medallarla qayıtmışlar. Təkcə 2011-ci ildən 2014-cü ilədək MTN-in "Titan" idman klubunun üzvləri **14 qızıl, 15 gümüş və 13 bürünc** medal qazanmışlar. Onlardan V.İskəndərov "Əməkdar məşqçi", M.Fərzəliyev, S.Salmanov və T.Məsimov "İdman ustası" fəxri adlarına, T.Quliyev isə "İdman ustalığına namizəd" dərəcələrinə layiq görülmüşlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Əməkdar məşqçi" V.İskəndərov idman sahəsində uğurlarına görə mənzillə təltif edilmişdir.

Milli təhülkəsizlik naziri Eldar Mahmudov beynəlxalq yarışlarda və turnirlərdə qələbələr qazanmış MTN-in "Titan" idman klubunun üzvləri ilə görüşündə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da idmançılarımıza diqqət və qayğı göstəriləcəyinə əminliyini bildirmiş, onlara bütün turnirlərdə və yarışlarda yeni-yeni qələbələr qazanmağı, ölkəmizin idman imicini uca tutmağı və Azərbaycanın bayrağını daim yüksəklərdə saxlamağı arzulamışdır.

Birincilik kürsüsünə layiq görülmüş idmançılarımız Azərbaycanın Dövlət Himninin səsləndirilməsi və Dövlət Bayrağının qaldırılması anlarının hər bir azərbaycansevərin qəlbində dərin izlər buraxmasından ürəkdolusu danışmışlar:

Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasının əməkdaşı, "Titan" idman klubunun üzvü M.Hacımuradov 1998-ci ildən Şərq əlbəyaxa döyüş növü Ciu-ciutsu ilə məşğul olur. Beşqat respublika çempionudur. 2006-cı ildə Bakıda MDB üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanlarının əməkdaşları arasında əlbəyaxa döyüş növü üzrə keçirilən yarışlarında qüsursuz, ədalətli hakimliyinə və təşkilatçılığına görə Rusiya Federal Təhlükəsizlik Xidmətinin xüsusi diplomu ilə təltif olunub. M.Hacımuradov Bolqarıstanın paytaxtı Sofiya şəhərində Ciu-ciutsu və xüsusi özünümüdafiə üzrə beynəlxalq turnirdə birinci yerə çıxaraq qızıl medala layiq görülüb. Xidmətdə və idmanda əldə etdiyi müsbət nəticələrə görə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin əmri ilə mükafatlandırılıb və "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif edilib.

M.Hacımuradov deyir ki, idmançılarımızın müxtəlif beynəlxalq turnirlərdə əldə etdiyi uğurlar



məhz idmanın inkişafına dövlətimiz, şəxsən Ali Baş Komandan İlham Əliyev tərəfindən göstərilən diqqət və qayğının bariz nəticəsidir: "Ölkəmizdə idman-sağlamlıq infrastrukturunun yenidən qurulması, yeni idman obyektlərinin, Olimpiya İdman komplekslərinin inşa edilməsi bu sahənin inkişafı ilə bağlı möhkəm təməl yaradıb. Bundan başqa, idmançıların daim qayğı ilə əhatə olunması, onların problemlərinin həll edilməsi, yüksək səviyyəli təlim-məşq toplanışlarının keçirilməsi idmançılarımızın beynəlxalq yarışlarda yüksək nəticələr əldə etməsini təmin edir".

Qeyd olunmalıdır ki, 2014-ci il yanvar ayının 24-dən 26-dək ABŞ-ın Nyu-Cersi ştatının Atlantik Siti şəhərində dünya idman aləminin ən mühüm tədbirlərindən biri olan "Döyüş Sənətinin Oskarı" ("Action martial arts magazine hall of honors and spirit awards") mərasimi keçirilmişdir. Döyüş sənətində xidmətlərinə və verdiyi töhfələrə görə namizədlər 36 nominasiyada seçilir və qaliblərə "Döyüş Sənətinin Oskarı" adlı mükafat və xüsusi medal təqdim edilir. Bu möhtəşəm tədbirdə dünyanın hər yerindən 1000-ə yaxın ən yaxşı idmançı, aktyor, məşqçi və jurnalistlər iştirak edir. Döyüş sənətləri sahəsində bu təltif ən nüfuzlu mükafatlardan sayılır. Əlbəyaxa döyüş və ciu-citsu istiqamətinin rəsmisinin təqdimatı əsasında və seçimlərdən sonra "Döyüş Sənətinin Oskarı" ilk dəfə olaraq "Döyüş növlərinin inkişafında verdiyi töhfəyə görə" nominasiyasında Azərbaycandan güc strukturlarının əməkdaşlarının ümumdünya və ümumavropa oyunlarının galibi M.Hacımuradov və "Döyüş növlərində verdiyi yüksək nəticələrə görə" əməkdər məşqçi 8-ci Dan qara kəmər sahibi Mir Əli Seyidov layiq görülmüşlər.

MTN-in "Titan" idman klubunun daha bir üzvü S.Salmanov gənc idmançı olmasına baxmayaraq, artıq bir çox uğurlara imza atmışdır. O, 2012-ci ildə Avstriyanın Vyana şəhərində Ciu-citsu üzrə Dünya Çempionatında bürünc medala sahib çıxmışdır. Əldə etdiyi nailiyyətlərlə kifayətlənməyən, özünün fiziki hazırlığını daha da möhkəmləndirməyə çalışan S.Salmanov əzmlə gündəlik məşqlərini davam etdirir. O, gələcək yarışlarda da qələbələr qazanacağına, milli təhlükəsizlik orqanlarının və Azərbaycanın adını yüksəkliklərə ucaldacağına əmindir.

A.Axundov idmanda əldə etdiyi uğurlarla ölkəmizdən uzaqlarda da şöhrət qazanıb. O, 2011-ci ilin iyulunda digər şərq əlbəyaxa döyüş növü olan uşu-sanda üzrə respublika çempionatında bürünc medalın sahibi olub. Həmin ilin oktyabr ayında isə Ukraynanın Yalta şəhərində qarışıq döyüş növləri üzrə dünya çempionatında 65 kq çəki üzrə yarışlarda dünya çempionu adını qazanıb. A.Axundov Azərbaycanın idman şərəfinin qorunması üçün bundan sonra səylərini əsirgəməyəcəyini bildirir: "Cənab Prezident İlham Əliyev idmanın inkişafını daim diqqətdə saxlayır, idmançılara dəstəyini idman obyektlərinin açılışında və beynəlxalq yarışlarda iştirakı, xeyir-duası ilə ifadə edir. Bu amil həm idmançılarımızın beynəlxalq yarışlarda qazandığı uğuru şərtləndirir, həm də idmanın təbliğini, gənclər və yeniyetmələrin marağını artıraraq, onun kütləviliyini təmin etməklə yanaşı, biz idmançıları yeni-yeni qələbələrə həvəsləndirir".

Vətənə medallarla qayıtmış bütün idmançılarımız əldə etdikləri qələbələrdən iftixarla söz açdılar. "Qələbə sevincini sözlə ifadə etmək çox çətindir. Demək olar ki, həyatımızın ən möhtəşəm anını yaşadıq. Himnimiz çalınanda, bayrağımız yüksəklərdə dalğalananda sevincdən göz yaşlarımızı saxlaya bilmədik. Həmin an xoşbəxtlik deyilən anlamın bizim üçün nə olduğunu bütün varlığımızla hiss etdik. Dövlətimizi, xalqımızı dünyada layiqincə tanıtmaq üçün bundan sonra da əlimizdən gələni əsirgəməyəcəyik", - dedilər.

Qeyd olunmalıdır ki, bu il mart ayının 28-də Azərbaycan milli təhlükəsizlik orqanlarının yaranmasının 95 illiyi tamam olur. Bu münasibətlə, həmçinin hər il olduğu kimi, Azərbaycan milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı ərəfəsində MTN-in İdman və Sağlamlıq Mərkəzində idmanın kütləvi növləri üzrə turnirlər və yarışlar, o cümlədən respublikanın hüquq-mühafizə orqanlarının əməkdaşları arasında qol güləşi üzrə açıq birincilik yarışı təşkil olunacaqdır. Sonda qaliblərin təntənəli mükafatlandırılması mərasimi keçiriləcəkdir.

Bu gün hər sahədə uğurlara doğru cəsarətlə və qətiyyətlə addımlayan Azərbaycanın bütün idmançıları, o cümlədən milli təhlükəsizlik orqanlarının əməkdaşları - idmançıları bundan sonra da yüksək nəticələr əldə edəcək, dövlətimizin şöhrətini dünyanın hər tərəfinə yaymağa nail olacaqlar.

**Milli Təhlükəsizlik Nazirliyinin**
**İctimai Əlaqələr Mərkəzi.**

# Azərbaycan iqtisadiyyatında vaxtilə başlanan hərtərəfli inkişaf meylinin güclənməsi müstəqil ölkəmizin də tərəqqi yoludur

**(əvvəli 25 fevral tarixli sayımızda)**

Qeyd etmək lazımdır ki, uzun müddət imperiyalar tərkibində yaşayan Azərbaycan iqtisadiyyatının imkanlara görə zəif və birtərəfli inkişafı nəticəsində onun ərazisinin başqa hissələrində yüksək tərəqqi daşıyıcıları olan iri şəhərlər sistemi demək olar ki, yaranmamışdır. Təkcə Gəncə şəhərində bu inkişafın ilkin əlamətləri özünü göstərmişdir.

Hər hansı yüksək inkişaf etmiş ölkənin mükəmməl iqtisadi durumunun əlamətləri çoxdur. Onlardan iqtisadiyyatın hərtərəfli və səmərəli inkişafı, eləcə də ölkə ərazisinin əsas regionlarında məhsuldar qüvvələrin tarazlı və yüksək inkişafı bu cəhətdən çox vacibdir. Regionların tarazlı iqtisadi inkişafının düzgün istiqamətləndirilməsi zəruri olsa da, həm də xeyli mürəkkəbdir. Regionların tarazlı iqtisadi inkişafı dedikdə, heç də əsas makroiqtisadi göstəricilərə görə (ÜDM-in, sənaye, kənd təsərrüfatı, tikinti məhsullarının və s.) xüsusi çəkilərinin eyni və ya yaxın olması, adambaşına miqdarı və başqa nisbi göstəriciləri nəzərdə tutulmur. Əlbəttə, regionların tarazlı iqtisadi inkişaf mühitində müəyyən şərtlər daxilində bu göstəricilər üzrə kəskin fərqlər də olmamalıdır. Bu tarazlıq hər şeydən əvvəl müvafiq regionların yerli resurslarından, başqa imkanlarından, əlverişli şəraitlərindən və xarici amillərin təsirindən düzgün və səmərəli istifadə edilməsi əsasında ərazilərin ümumi yüksək sosial-iqtisadi inkişafının təmin edilməsi və yerli problemlərin mümkün qədər öz gücü ilə həllinə nail olmasında ifadə olunur. Bu, özünü ilk növbədə yerli əhalinin məşğulluq əmsalının ən münasib səviyyədə yaxşılaşdırılmasında, onun rifahının yüksəldilməsində, məskunlaşdırılmasının səmərələşdirilməsində, yerli büdcənin əsasən öz imkanları hesabına formalaşmasında, respublikanın yerli tələbatının ödənilməsində, onun beynəlxalq əməkdaşlığının genişləndirilməsində fəal iştirakında və sairədə göstərməlidir.

Hər bir iqtisadi regionun şəraitinə və imkanlarına uyğun inkişaf edən istehsal sahələri içərisində bütün hallarda sənayenin genişmiqyaslı artımının təmin olunması həmişə mühüm yer tutur. Öz dinamikliyi, hər yerdə çoxsahəli iqtisadi inkişafı təmin edən amilləri özündə birləşdirən, istehsal sahələri arasında funksional əlaqələri yaratmaq keyfiyyəti bu sahəni ümumi sosial-iqtisadi tərəqqi təminatçısı şərti kimi dəyərləndirir. Qısa müstəqillik illərində ölkənin iqtisadi qüdrətini artırmaq üçün nəinki bütün respublikada, eyni zamanda onun ayrı-ayrı regionlarında sənaye potensialının genişləndirilməsi bünün əyani parlaq nümunəsidir. Ölkənin neft amilindən asılılığını azaltmaq məqsədilə son zamanlar respublikada qeyri-neft sektorunun müxtəlif sahələrinin inkişafının sürətləndirilməsi hesabına Azərbaycanda sənayenin hərtərəfli artımı və regionların sosial-iqtisadi inkişafının qəbul edilən 2 Dövlət Pproqramı əsasında onlarda bütün infrastruktur sisteminin yenidən qurulması, müasirəşdirilməsi və genişləndirilməsi nəticəsində sənayenin inkişafı üçün münasib biznes və investisiya mühitinin yaradılması öz müsbət nəticələrini müasir tələblər səviyyəsində verməkdədir. İndi bu fəxr doğuran hadisələrin gedişində regionlarda fəaliyyət göstərən 1079 sənaye müəssisəsinin (respublika ümumi sənaye müəssisələrinin 43 faizi) və onların istehsal həcmlərinin artırılması şəraiti xeyli genişləndirilmişdir. İlk növbədə Abşeron meqapolisinin hüdudlarından kənarda yerləşən regionlarda (işğal olunmuş əraziləri nəzərə almadan) əhalisi 50 mindən 100 min nəfərə qədər olan müvafiq ərazilərin mədəni-iqtisadi mərkəzləri (əyalət paytaxtları) funksiyasını yerinə yetirən 10 şəhərdə iqtisadi, xüsusən sənayenin geniş inkişaf zəminləri yaranmışdır.

Yerli şərait və imkanlardan, başqa əlverişli amillərdən səmərəli istifadə etməklə ölkənin daxili tələbatını və onun beynəlxalq əməkdaşlıq fəaliyyətini genişləndirmək məqsədilə zəruri sənaye sahələrinin iri müəssisələrinin bu şəhərlərdə yerləşdirilməsi regionların ümumi sosial-iqtisadi inkişafının həyata keçirilməsini daha da sürətləndirmək üçün çox vacibdir. Paytaxtla yanaşı, demək olar ki, regionun əsas hissələrində təşəkkül edilən məhəlli mədəni-iqtisadi mərkəzlər aqromerasiya prinsipi əsasında (əsas şəhərlə qarşılıqlı istehsal, sosial, mədəni sıx əlaqələri olan ətraf yaşayış məntəqələrinin qovuşması hesabına) vahid meqapolis mərkəzlərində yaranması prosesi baş vermişdir. Müvafiq regionların əsas mədəni-iqtisadi mərkəzləri (regional paytaxtları) həmin ərazilərin ümumi sosial-iqtisadi, o cümlədən məşğulluğun yüksəldilməsində, əhalinin rifahının yaxşılaşdırılmasında, onun səmərəli məskunlaşdırılmasında, yerli insanların mədəni-mənəvi və ruhi tələblərinin ödənilməsində müstəsna əhəmiyyətli rol oynayır. Bununla da səbəbsiz miqrasiyalar, ayrı-ayrı regionlarda, xüsusən paytaxtda və onun ətrafında əhalinin həddən artıq sıxlığının qarşısı alınır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə ölkə iqtisadiyyatının sənayeləşdirilməsinin gücləndirilməsi, xüsusən regionlarda onun potensialını daha da artırmaq məqsədilə müvafiq təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi üçün 2014-cü il respublikada "Sənaye ili" elan edilmiş və onun gücləndirilməsi məqsədilə tədbirlər planı hazırlamağı İqtisadiyyat və Sənaye Nazirliyinə tapşırılması bu sahədə böyük dönüş yaradılacağından xəbər verir. Bu istiqamətdə sənayenin inkişafı üzrə 2015-2020-ci illərdə Dövlət Proqramının hazırlaması barədə ölkə başçısının verdiyi tapşırığın əhəmiyyətini xüsusi qeyd etmək lazımdır.

Sahibkarlıq fəaliyyətinin genişləndirilməsi hesabına məhz iri istehsal sahələrinin regionlarda yaradılması nəticəsində onlar arasında lazımi tarazlığın təmin edilməsindən gözlənilən faydanı qazanmaq imkanı hələ çox böyükdür. İri müəssisələrin ölkə iqtisadiyyatının inkişafında böyük əhəmiyyəti barədə respublika Prezidenti cənab İlham Əliyev dəfələrlə öz fikrini bildirmişdir. Ölkə başçısı həmçinin, qeyd etmişdir ki, böyük müəssisələrin mövcudluğu şəraitində kiçik və orta şirkətlərin fəaliyyəti də çox uğurlu ola bilər.

Qeyd etmək lazımdır ki, qısa müstəqillik illərində Azərbaycan iqtisadiyyatının əldə etdiyi misilsiz nailiyyətlər nəticəsində istehsalın əsas sahələrində, xüsusən sənayedə iri müəssisələrin yaranması imkanları bu gün xeyli artmışdır. Bu cəhətdən ilk növbədə iqtisadiyyatın artım zəmini geniş və əlverişli olan regionların hərtərəfli inkişafının əsas mərkəzləri olan orta və böyük şəhərlərin çox sürətli təşəkkül edən yaşayış mərkəzlərinin əhəmiyyəti xüsusilə əhəmiyyətlidir. Hazırda ölkədə belə geniş funksiyalı iqtisadi-mədəni mərkəz kimi fəaliyyət göstərən 10 şəhər (əyalət paytaxtları) mövcuddur. Yüksək urbanizasiya əsasında inkişaf edən Abşeron iqtisadi regionunun hüdudlarından kənarda yerləşən belə şəhərin yaranması nəinki sosial-iqtisadi uğurun böyük yekunudur, eyni zamanda daha yüksək tərəqqinin çox etibarlı təminatıdır. Bu şəhərlərin inkişafı birinci növbədə Abşeron iqtisadi regionunda əhalinin əvvəlki illərdə nəzərə-çarpan yüksək və sürətli artımının qarşısının alınmasında özünü göstərir. Məsələn, 2012-ci ildə 2005-ci ilə nisbətən respublikada əhalinin 10 faizə qədər artmasına baxmayaraq, Abşeron iqtisadi regionunda onun miqdarı bu müddət ərzində ölkədəki xüsusi çəkisi əsasən sabit qalaraq, 28,1 faizlə 28,7 faiz arasında tərəddüd etmişdir. Bu cüzi artım da əsasən regionun özündə əhalinin yüksək təbii artımı hesabına əldə edilmişdir.

Respublikada müxtəlif zəngin təbii resursların olması, onun zəruri sənaye məhsullarına olan tələbatının daxili imkanlar hesabına təmin edilməsi, ölkənin ərzaq təhlükəsizliyinin həllində kənd təsərrüfatı xammalı emalı sənaye sahələrinin genişləndirilməsi, regionlarda məhsuldar qüvvələrin tarazlı inkişafı və ölkənin ixrac təyinatlı məhsulları imkanını artırmaqla onun beynəlxalq əməkdaşlığının daha da möhkəmləndirilməsi üçün ərazinin bütün hissələrində qeyri-neft sektoru sənayesinin müxtəlif sahələrinin artırılması amilləri hələ olduqca çoxdur. Bu vəzifələrin müstəqil Azərbaycanda ardıcıl həlli zamanın öz tələbidir.

İstehsalın təməl sahələrindən hesab edilən artıq əlvan metallurgiya kompleksinin respublikada yaradılması, Gəncədə nəhəng qara metallurgiya istehsalı tikintisinin tezliklə tamamlanması Azərbaycan iqtisadiyyatında, xüsusən onun regionlarında inqilaba bərabər dönüş yaradacaqdır. Hələlik 1400 nəfər işçinin çalışdığı Gəncə alüminium kompleksində hasil edilən müxtəlif yarımfabrikat məmulatlardan avtomobil, kimya, qida sənayesi, inşaat, elektrik kommunikasiya və digər sahələrdə geniş istifadə olunacaq və aparılan danışıqlar nəticəsində həmin məhsulların xaricə ixracı həyata keçiriləcəkdir. Azərbaycan iqtisadiyyatının əsaslı səmərələşməsi sahəsində eyni funksiyaları Gəncədə qara metallurgiya mərkəzi də yerinə yetirəcəkdir. Bu sənaye sahəsinin Azərbaycanın ümumi sənayesinin tərkibində öz layiqli yerini tapması ölkədə iqtisadiyyatın, o cümlədən onun maşınqayırma kimi mühüm istehsal sahəsinin şaxələnmiş inkişafına güclü təkan verəcəkdir. Bu gün müstəqil Azərbaycanın sərbəst və kənardan asılı olmayan iqtisadiyyatının inkişafı üçün ölkədə dəzgahqayırma, cihazqayırma, alətqayırma, müxtəlif kənd təsərrüfatı texnikası hasil edən istehsal sahələri, vaqonqayırma sənaye sahələrinin yaradılmasına və genişləndirilməsinə ehtiyacı vardır. Əlbəttə, respublikada minik və yük avtomobilləri, traktor və s. yığma istehsal sahələrinin yaradılması çox təqdirəlayiq hadisədir. Bu işdə qazanılan lazımi şərişdədən sonra, artıq onların ən zəruri ehtiyat hissələrinin özümüzdə hasil edilməsi ilə maşınqayırmanın mühüm istehsal sahəsinə çevrilməsi Azərbaycan iqtisadiyyatının mükəmməlliyini daha da artırar. Bu baxımdan respublikada mühərriklər istehsalının yaradılması xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın bütün ərazi hissələrində aralıq mövqe tutan regionların iri şəhərlərinin birində orta istehsal gücünə malik neftemalı zavodunun yaradılması öz aktuallığını saxlayır. Müstəqil ölkənin tələbatına uyğun pambıqçılığın, baramaçılığın və onların xammalını emal edən sənaye sahələrinin bərpası Azərbaycanda ənənəvi toxuculuq və tikiş sənaye sahələrinin əvvəlki şöhrətini özünə qaytarar. Həm də nəzərə almaq lazımdır ki, toxuculuq Azərbaycanın ixrac məhsullarını artırmaq imkanı olan mühüm sənaye sahələrindəndir. Respublikanın böyük tələbatı— gön-dəri və ayaqqabı istehsalına da lazımı diqqət yetirilməsi tələb olunur.

Son 10 ildə Azərbaycanın sosial-iqtisadi inkişafına böyük uğurlar qazandıran qəbul edilmiş çoxlu sayda məqsədli dövlət proqramlarında nəzərdə tutulan güclü sənayeləşmə kursunun həyata keçirilməsində göstərilən istehsal sahələrinin inkişafının da əhəmiyyəti çox böyük olacaqdır.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrasına həsr olunmuş konfransda öz yekun nitqində ölkə başçısı İlham Əliyevin qeyd etdiyi kimi: ".... son 10 il ərzində qarşıda duran vəzifələrin hamısı icra edilib. İki Dövlət proqramı artıqlaması ilə icra edilib. Bu, ölkəmizin inkişafına çox böyük dəstək olmuşdur. Əminəm ki, qəbul ediləcək növbəti—üçüncü proqram da vaxtında icra olunacaq və beləliklə, ölkəmizin uğurlu, dinamik inkişafı təmin ediləcəkdir".

**Asəf NADİROV,**
**akademik, Əməkdar elm xadimi.**

# CƏLİLABAD: SOSİAL-İQTİSADİ İNKİŞAFIN YENİ MƏRHƏLƏSİNDƏ

**Cəlilabad rayonunda iqtisadi və sosial quruculuğu inkişaf etdirmək sahəsində məqsədyönlü layihələr həyata keçirilir. Bu günlərdə rayonun 2013-cü ildə sosial-iqtisadi inkişafının yekunlarına həsr edilmiş yığıncağında bu barədə ətraflı bəhs olundu.**






Yığıncaq iştirakçıları tədbirdən öncə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdilər, rayonun iqtisadi və mədəni həyatını əks etdirən sərgiyə baxdılar. Sonra rayon icra hakimiyyətinin başçısı **Əziz Əzizov** Cəlilabad rayonunun 2013-cü ildə iqtisadi və sosial inkişafının yekunları və qarşıda duran vəzifələr haqqında məruzə ilə çıxış etdi.

Qeyd olundu ki, 2013-cü il Azərbaycanın xarici siyasətində, iqtisadi, sosial və mədəni sahələrdə qazanılmış nailiyyətlər baxımından uğurlu olmuşdur. Bu gün ölkəmiz regionda həlledici mövqeyə malik lider dövlətə çevrilmişdir. Dövlətimiz qarşıya qoyulan bir çox vəzifələrin həllinə nail olmuş, regional və qlobal əhəmiyyətli sənədlərə imza atmışdır. Prezident İlham Əliyevin Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illər üçün sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunmuş konfransda qeyd etdiyi kimi Azərbaycan iqtisadiyyatı dünya miqyasında ən sürətlə inkişaf edən iqtisadiyyatdır.

2013-cü il ölkənin bütün bölgələrində olduğu kimi, Cəlilabad rayonu üçün də uğurlu olmuşdur. Azərbaycan regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramından irəli gələn vəzifələr rayonda ardıcıl surətdə yerinə yetirilmiş, çoxlu əmək qələbəsinə imza atılmışdır. Son vaxtlar rayonda bütün sahələr intensiv surətdə inkişaf etdirilmiş, tikinti-abadlıq işlərinə xüsusi fikir verilmiş, yaşayış məntəqələri öz simasını yaxşılığa doğru xeyli dəyişmiş, vətəndaşların həyat səviyyəsi yüksəlmişdir.

Prezident İlham Əliyev ötən il Cəlilabad rayonuna səfəri zamanı ictimaiyyətin nümayəndələri ilə görüşündə demişdi: “Çox şadam ki, Cəlilabadın inkişafı sürətlidir. Rayon simasını dəyişir, müasirləşir, abadlaşır, gözəl binalar tikilir, köhnə binalar bərpa edilir. Bir sözlə inkişaf, dinamika var və bu dinamika gələcək illərdə də saxlanılmalıdır. Cəlilabad daha da sürətlə inkişaf etməlidir və edəcəkdir”.








Bu sözlər real vəziyyəti, əsl həqiqəti əks etdirir, indi rayonda inkişaf tendensiyası yüksək sürətlə davam edir. Ötən il ərzində tikinti-abadlıq işləri geniş vüsətlə davam etdirilmiş, şəhər və kəndlər bütünlükdə abadlaşan diyara çevrilmişdir. Əsas kapitala yönəldilən investisiyalar 52 milyon manata çatmışdır ki, bu da əvvəlki ildəkindən 36 dəfə çoxdur. Heydər Parkı əsaslı şəkildə yenidən qurulmuş, burada ulu öndərin yeni əzəmətli abidəsi ucaldılmış, 120 çarpayılıq yeni xəstəxana, 120 yerlik uşaq bağçası, 640 şagirdlik 2 saylı Cəlilabad şəhər orta məktəbi istifadəyə verilmişdir. Hazırda Cəlilabad şəhərində Heydər Əliyev Mərkəzinin, Göytəpə şəhərində Heydər Əliyev parkının və mədəniyyət evinin tikintisinə başlanılmışdır. Bir sıra kənd məktəbləri, Cəlilabad şəhər məscidi əsaslı təmir olunur, yaşayış məntəqələri müasir üslubda abadlaşdırılır.

Yolların yenidən qurulması istiqamətində çox böyük miqyasda iş aparılmışdır. Ələt-Astara magistral yolunun rayonun ərazisindən keçən hissəsində bir sıra təmir işləri aparılmış, yolun kənarlarına 1500 ədəd ağac əkilmişdir. 24 min əhalisi olan 14 yaşayış məntəqəsini əhatə edən 17 kilometrlik Cəlilabad-Hamarqışlaq-Sadatlı, 33 min nəfərlik əhalinin yaşadığı 21 kəndi birləşdirən 34 kilometrlik Qarazəncir-Qarakazımlı-Boyxanlı yolunun tikintisi başa çatdırılmış, 45 kəndi əhatə edən 72 kilometrlik Cəlilabad-Yardımlı yolunun çəkilişi sürətlə davam etdirilir. Hazırda Cəlilabad şəhərində su və kanalizasiya sistemlərinin yenidən qurulması işləri gedir.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası nəticəsində ötən il sənayenin inkişafı artan dinamika ilə getmiş, ümumi daxili məhsulun və istehsal olunan sənaye məhsulunun həcmi artmışdır. Son illərdə fəaliyyətə başlayan “Cəlilabad-şərab-2” ASC-nin, “Kristal” MMC-nin, “Voodpeçker” və “Namiq-94” mebel fabriklərinin, “Avanqard” MMC-nin istehsal etdikləri şərab, konserv, mebel və un məmulatlarına təkcə respublikada deyil, MDB məkanında da tələbat getdikcə artır.

2013-cü ildə rayon iqtisadiyyatının əsasını təşkil edən aqrar bölmədə xeyli uğur qazanılmış, kənd təsərrüfatı məhsulları istehsalı 2012-ci illə müqayisədə 3,4 dəfə artmışdır. İl ərzində 139 milyon 519 min manatlıq məhsul istehsal olunmuşdur ki, bunun da 90 milyon 546 min manatı və ya 47 faizi bitkiçiliyin, 102 milyon 973 min manatı və ya 53 faizi heyvandarlığın payına düşür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən kənd təsərrüfatı istehsalçılarına yanacaq almaq və buğda əkmək üçün dövlət yardımlarının verilməsi, güzəştli şərtlərlə gübrələrin və buğda toxumlarının satılması aqrar bölmənin inkişaf etdirilməsində güclü stimul yaratmışdır.

Ənənəvi sahə olan taxılçılığın inkişaf etdirilməsinə xüsusi diqqət yetirilmiş, torpaq mülkiyyətçilərinə 5 milyon 264 min manat məbləğində yardım verilmiş, onlara 2870 ton gübrə güzəştli şərtlərlə satılmışdır. Bunun nəticəsində 65550 hektar sahənin hər hektarından 20,1 sentner məhsul götürülməklə 127,5 min ton taxıl istehsal edilmişdir ki, bu da əvvəlki ildəkindən 11 min ton çoxdur. Ümumi məhsulun tərkibində buğdanın xüsusi çəkisi 90 faizdən çox olmuşdur. “Moskva” dövlət kənd təsərrüfatı məhsulları istehsalı müəssisəsinin bazasında özəl toxumçuluq təsərrüfatı yaradılmış və bu tədbir gələcəkdə taxılın məhsuldarlığını hər hektardan 50 sentnerə çatdırmağa imkan verəcəkdir.

Cəlilabadda üzümçülüyün də inkişaf etdirilməsinə diqqət artırılmışdır. Üzümlüklərin genişləndirilməsi, müvafiq emal müəssisələrinin yaradılması sahəsində məqsədyönlü iş aparılır. Xaricdən gətirilən yüksək məhsuldar üzüm tingləri hesabına üzümlüklərin 5700 hektara çatdırılması nəzərdə tutulur.

Hazırda təsərrüfatlarda 100 min baş mal-qara, 122 min başdan çox davar bəslənilir. Heyvandarlığın inkişaf etdirilməsi istiqamətində Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin uğurla həyata keçirilməsi sayəsində ötən il 19,7 min ton ət, 77,5 min ton süd, 39,8 milyon ədəd yumurta istehsal olunmuşdur ki, bu da 2012-ci ildəkindən müvafiq olaraq bütün növlər üzrə xeyli artıqdır. Süni mayalandırma tədbirlərinin vaxtlı-vaxtında keçirilməsinin nəticəsində hər min baş ana inəkdən 785 baş sağlam bala alınmışdır. “Cəlilabad-broyler” ASC istehlakçılara diri və kəsilmiş quş əti satışında uğurla işləyir. Cəlilabad şəhərində qapalı ət satışı məntəqəsinin tikintisi başa çatmaq üzrədir. Yaxın vaxtlarda Göytəpə şəhərində, Üçtəpə, Günəşli, Allar kəndlərində də belə məntəqələrin yaradılması nəzərdə tutulmuşdur.

2013-cü ildə 82,8 min ton kartof, 1,3 min ton tərəvəz, 310 ton bostan məhsulları, 1,4 min ton meyvə və digər məhsullar tədarük edilmişdir. Yetişdirilmiş məhsulların saxlanılması üçün tədbirlər həyata keçirilmiş, taxıl anbarları, soyuducu kameralar tikilib istifadəyə verilmişdir. Bakı şəhərinin yarmarkalarına yerli sahibkarlar tərəfindən 35 adda kənd təsərrüfatı məhsulları çıxarılmışdır.

İş adamlarına əlverişli şəraitin yaradılması nəticəsində ümumi məhsul buraxılışında qeyri-dövlət sektorunun xüsusi çəkisi artaraq 98 faizə çatmışdır. 2013-cü ildə kənd təsərrüfatı və kommersiya fəaliyyətinə yönəldilən kreditlər yeni istehsal sahələrinin yaradılmasına və məhsul bolluğuna, eyni zamanda yeni iş yerlərinin yaradılmasına müsbət təsir göstərmişdir.

Yığıncaqda qeyd edildi ki, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi birinci dərəcəli vəzifədir. Rayon iqtisadiyyatının inkişafı işçilərin orta aylıq əmək haqqının yüksəlməsinə səbəb olmuşdur. Rayon rəhbərliyi, əlaqədar təşkilatlar aztəminatlı ailələrin maddi vəziyyətinin yaxşılaşdırılması, təqaüdçülərə, əmək və müharibə veteranlarına, ahıllara sosial yardımların göstərilməsi sahələrində öz təşkilatçılıq səylərini uğurla səfərbər edə bilmişlər. İl ərzində pensiyaçılara 40,3 milyon manat vəsait ödənilmişdir ki, bu da 2012-ci ildə olduğundan 1,4 milyon manat çoxdur. İşləyən sığorta olunanlara 713,3 min manat müavinət ödənilmişdir ki, bu da ötən ilin eyni dövründəkindən 46,7 min manat çoxdur. Əhalinin sosial müdafiəsi mərkəzi tərəfindən aztəminatlı ailələrə, müharibə iştirakçılarına, əlillərə və ahıllara xeyli müavinət verilmişdir, tənha şəxslərə sosial-məişət xidməti göstərilmişdir.

Sakinlərə müxtəlif xidmətlərin göstərilməsi yaxşılaşmışdır. 2012-ci illə müqayisədə pərakəndə əmtəə dövriyyəsi, pullu xidmət, rabitə və məişət xidməti artmışdır. Vətəndaşlara və müəssisələrə nəqliyyat xidməti gücləndirilmiş, bir sıra yaşayış məntəqələrinə yeni avtobus marşrutları açılmışdır.

Rayon əhalisini elektrik enerjisi və təbii qazla təmin etmək üçün məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Cəlilabad şəhərində, Uzuntəpə, Hasıllı, Qarazəncir, Abdullu kəndlərində 2 kilometrlik SİP kabelləri çəkilmiş, Göytəpə şəhərində, Əliqasımlı və Sərhədabad kəndlərində 5 kilometrlik yararsız naqillər yeni kabellərlə əvəz olunmuş, Uzuntəpə və Bəcirəvan kəndlərində yeni transformatorlar quraşdırılmış, Cəlilabad şəhərində və Allar kəndində 1688 ədəd SMART tipli sayğac quraşdırılmışdır. Digər yaşayış məntəqələrində 8,3 kilometrlik elektrik naqili, 139 elektrik dirəyi, 20 transformator əsaslı təmir olunmuşdur. Cəlilabad-Uzuntəpə yeraltı qaz kəmərinin 3,8 kilometrinin polietilen borularla əvəz olunması qurtarmış, yeni qazpaylayıcı stansiya istismara verilmiş, korroziyaya uğramış borular yenisi ilə əvəz edilmişdir. Prezident İlham Əliyevin Cəlilabad rayonuna səfəri zamanı verdiyi tapşırığa əsasən Göytəpə şəhərində qaz xətlərinin dəyişdirilməsinə, bir sıra kəndlərin qazlaşdırılmasına başlanılmışdır.

Təhsilin inkişaf etdirilməsi və yeni məktəb binalarının tikilməsi prioritet vəzifəyə çevrilmişdir. Hesabat ilində 5 məktəb binası istifadəyə verilmiş, 2 məktəb binasının inşasına başlanılmış, daha 2 məktəb binasının inşasına dair layihə-smeta sənədləri hazırlanmışdır. Hazırda Cəlilabad şəhər 2 saylı orta məktəb üçün 640 yerlik, Sabirabad kənd 1 saylı orta məktəbi üçün 180 yerlik, Zəhmətabad kənd orta məktəbi üçün 80 yerlik yeni binalar şagirdlərin istifadəsinə verilmişdir. Həziabad kənd orta məktəbi üçün 360 yerlik tədris binası inşa olunur. Cari ildə Məmmədrzalı, İncilli, Cəfərli, Kövüzbulaq kəndlərində məktəblərin tikintisinə başlanacaq.

Görülən tədbirlərin sayəsində ümumtəhsil müəssisələrinin 43-ü beş günlük iş həftəsinə keçmişdir. Ötən il ali məktəblərə 343 nəfər məzun qəbul olunmuşdur. Bu isə təhsilin keyfiyyətinin yaxşılaşdırılması deməkdir. Diqqətəlayiq haldır ki, məzunlardan 82-si C.Naxçıvanski adına Hərbi liseyə, 18-i Heydər Əliyev adına Hərbi Akademiyaya, 7-si Dövlət Sərhəd Akademiyasına, 12-si Fövqəladə Hallar Akademiyasına, 9-u Ali Hərbi Tibb məktəbinə qəbul olunmuşlar.

Əhaliyə səhiyyə xidmətinin səviyyəsi xeyli yüksəlmişdir. Profilaktiki tədbirlərin vaxtında görülməsi sayəsində infeksion xəstəliklər ləğv olunmuşdur, vərəmə qarşı mübarizə tədbirləri gücləndirilmişdir. Ana ölümünə yol verilməmiş, uşaq ölümü respublika səviyyəsindən az olmuşdur. İl ərzində imtiyazlı xəstələrə 256 min manatlıq pulsuz dərman preparatları verilmişdir. 27 həkim ixtisasartırma kurslarında olmuş, 17 həkim sertifikat almışdır. Xəstəxanalarda xeyli təmir işləri aparılmış, müasir avadanlıqlarla təchizat gücləndirilmişdir.

Mədəni xidmətin yaxşılaşdırılması sahəsində də xeyli irəliləyiş vardır. Heydər Əliyev Yaradıcılıq Mərkəzinin yaradılması rayonun mədəni həyatında mühüm hadisə olmuşdur. İncəsənət məktəbinin şagirdlərinin əl işləri Yaponiyada nümayiş etdirilmiş, həmin məktəbin muğam ifaçıları respublika yarışlarında layiqli yer tutmuşlar. Tarix-diyarşünaslıq muzeyinin fəaliyyəti xeyli yaxşılaşmışdır. Rayonda 8 turizm obyekti işləyir, mərkəzi kitabxanada kitabların sayı 563600 nüsxəyə çatdırılmışdır.

Gənclərlə işin səmərəsi artırılmış, idman yarışlarında diqqət çəkən uğurlar qazanılmışdır. Hazırda rayon gəncləri arasında yüzlərlə dərəcəli idmançı və 120 medalçı vardır, təcrübəli məşqçilər kontingenti fəaliyyət göstərir. İdmançılardan Etiqad Abdullayev, Məhəmməd Həsənzadə, İsmayıl Hüseynov, Münasib Məmmədov, Elmar İsmayılov və başqaları beynəlxalq və respublika yarışlarında yüksək nəticələr əldə etmişlər. Gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi, onların ordu sıralarına göndərilməsi yaxşı təşkil olunmuşdur.

Rayon icra hakimiyyəti inzibati orqanlarla, bələdiyyələrlə, siyasi partiyaların yerli qurumları ilə işi yaxşılaşdırmaq üçün məqsədyönlü tədbirlər görmüşdür. Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə gücləndikcə vətəndaşların dövlət orqanlarına etimadı yüksəlir, neqativ halların qarşısının alınmasında və şəffafığın təmin olunmasında müsbət nəticələr qazanılır.

Toplantıda əhalinin ərizə, şikayət və müraciətlərinə münasibətdən daha geniş bəhs olundu, ona nəzarəti bir daha gücləndirmək, məmur özbaşınalığı təzahürlərinə son qoymaq, bu işləri respublika Prezidentinin son tapşırıqlarına müvafiq şəkildə qurmaq əlaqədar təşkilatların və onların rəhbərlərinin qarşısında ən mühüm vəzifə kimi qoyuldu.

Yığıncağın iştirakçıları yol verilmiş bir sıra nöqsanları da kəskin tənqid etdilər və onların ən qısa müddətdə aradan qaldırılması yolları barəsində mülahizələrini bildirdilər, xüsusilə aqrar sahənin problemlərini tezliklə həll etməyin vacib olduğunu göstərdilər. Onlar rayon sakinləri adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi əmin etdilər ki, həmişə olduğu kimi, 2014-cü ildə də qarşıya qoyulmuş vəzifələri yerinə yetirmək və daha böyük nailiyyətlər qazanmaq üçün var qüvvələrini sərf edəcəklər.

Yığıncaqda Prezident Administrasiyasının məsul işçisi Vəfadar Bağırov, millət vəkilləri Malik Həsənov, Fəzail İbrahimli iştirak və çıxış etmişlər.

**Sabir MUSTAFAYEV,**
**“Respublika”.**









# SAMUX İNKİŞAF VƏ TƏRƏQQİ DÖVRÜNÜ YAŞAYIR

*Respublikamızın bütün bölgələrində olduğu kimi, qabaqcıl aqrar rayonlarından olan Samux rayonunda da 2013-cü ilin göstəricilərinə nəzər saldıqda sosial-iqtisadi sahədə ürəkaçan, böyük uğurlar əldə edildiyi bir daha təsdiqlənir.* ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Samux rayonuna daim diqqət və qayğısı sayəsində, samuxluların qurub-yaratmaq əzmini daha da gücləndirmiş, bu isə öz bəhrəsini vermişdir.***

*Samux rayonunun bir illik hesabatını təhlil edən rayon icra hakimiyyətinin başçısı Alı Qocayev geniş məruzə ilə çıxış edərək qeyd etdi ki, "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" ötən il başa çatdı.*





Dövlət Proqramının uğurlu icrası rayonumuzda sosial-iqtisadi inkişafın bütün sahələrində əsaslı dönüş yaratmış və nəticədə yüksək nailiyyətlər əldə olunmuşdur. Əldə olunmuş uğurlar statistik göstəricilərdə də öz əksini tapmışdır. Belə ki, rayonun inkişafını xarakterizə edən əsas makroiqtisadi göstərici — ümumi məhsul buraxılışının həcmi ötən illə müqayisədə 7,6 faiz artaraq 91,2 milyon manat olmuşdur. Ümumi məhsul buraxılışının həcmi 2003-cü ilə nisbətdə 5,3 dəfə artmışdır ki, bu da son on ildə rayonumuzun əsas inkişaf göstəricisidir. Ümumi məhsul buraxılışının adambaşına düşən həcmi 1640 manat olmuşdur. ümumi məhsul buraxılışının 82,7 faizi qeyri-dövlət sektorunun payına düşür.

Hesabat ilində rayon iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatı məhsullarının istehsalı ötən illə müqayisədə 15,0 faiz artaraq 49,4 milyon manat, ticarət dövriyyəsi 16,3 faiz artaraq 23,3 milyon manat təşkil etmişdir, pərakəndə əmtəə dövriyyəsi 18,0 faiz, əhalinin gəlirləri 5,9 faiz artmışdır.

Cari ildə rayon iqtisadiyyatında çalışan işçilərin orta aylıq əmək haqqı 235,0 manat təşkil etmişdir.

Hesabat ilində tikinti-quraşdırma və abadlıq işlərinə geniş yer verilmişdir. İlk növbədə qeyd etməliyik ki, Azərbaycan Respublikası Prezidentinin 14 iyun 2013-cü il tarixli sərəncamı ilə Samux rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədi ilə Samux Rayon İcra Hakimiyyətinə Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 1,0 (bir) milyon manat ayrılmasından sonra bu işlər daha da sürətlənmişdir. Belə ki, ümummilli lider Heydər Əliyevin adını daşıyan mərkəzi istirahət parkında yenidənqurma işləri yüksək sürətlə həyata keçirilmiş və müvəffəqiyyətlə başa çatdırılmışdır. Parkda ümumi sahəsi 1400 kv.m. olan ikimərtəbəli Heydər Əliyev mərkəzi inşa edilmişdir. Mərkəzdə ulu öndərin həyat və fəaliyyətini əks etdirən eksponat zalı, 3D formatlı kinoteatr, rəsm qalereyası, dil öyrənmə kursu, fotostudiya, rəqs dərnəyi, elektron kitabxana və internet klub fəaliyyət göstərəcəkdir. Heydər Əliyev parkında sakinlərin rahat istirahəti üçün bütün şərait yaradılmışdır. Burada kafe, çay evi, rayon tarix-diyarşünaslıq muzeyi üçün bina, 7 ədəd istirahət köşkü inşa edilmiş, böyük monitor quraşdırılmışdır. Ümummilli liderin abidəsinin hər iki tərəfində müasir tipli iki ədəd işıqlandırılmış fəvvarə qurulmuşdur. Uzun illərdən sonra hər bir samuxlunun arzusu olan tarix-diyarşünaslıq muzeyinin yaradılması təmin olunmuşdur. Muzeydə rayonumuzun tarixini əks etdirən çoxlu eksponatlar yerləşdirilmişdir. Ümumi sahəsi 242 kv. metr olan muzeydə arxeologiya, etnoqrafiya, mədəniyyət bölmələri fəaliyyət göstərəcəkdir.

İyun ayında Heydər Əliyev parkının artırılmış hissəsinin müasir layihə əsasında yenidən qurulmasına və Yeni Azərbaycan Partiyası rayon təşkilatının yeni binasının inşasına başlanmış və qısa müddət ərzində başa çatmışdır.

Rayonun giriş hissəsində ad göstəricisi kompleksi yenidən qurulmuş, Kolayır prospektində və Samux-Gəncə yolunda dekorativ yamaclar yaradılmışdır. Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 36 mənzilli 4 mərtəbəli yaşayış binasında işlər tam başa çatdırılmış və istifadəyə verilmişdir. 2013-cü ildə Seyidlər kəndində 180 şagird yerlik və Qarabağlar kəndində 220 şagird yerlik yeni məktəb binaları istifadəyə verilmişdir. Eyni zamanda Qırmızı Samux və Alabaşlı qəsəbə və Zazalı kənd tam orta məktəblərinin binaları əsaslı təmirdən sonra şagirdlərin istifadəsinə verilmişdir. Qırmızı Samux qəsəbəsində həkim məntəqəsinin və Bağbanlar kəndində kitabxana binasının tikintisi başa çatdırılaraq istifadəyə verilmişdir. Rayon telekommunikasiya qovşağının yeni inzibati binasının tikintisinə başlanmışdır.

Rayonda ümumtəhsil müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində işlər davam etdirilir. Əhmədbəyli kəndində 360 şagird yerlik üçmərtəbəli yeni məktəb binasının tikintisi başa çatdırılmışdır və yaxın günlərdə istifadəyə verilməsi gözlənilir.

2013-cü ildə bütün istiqamətlərdə yolların çiyin hissələri plana salınmış, keçid boruların giriş-çıxış hissələri təmizlənmişdir. Rayonun Gəncə-Samux, Samux-Çobanabdallı-İnstitut, Samux-Lək və Samux-Yenikənd-Poylu yollarında təmir işləri aparılmışdır. Eyni zamanda Qırmızı Samux qəsəbəsində, Kəsəmən və Burunqovaq kəndlərində giriş yolları hamarlanmışdır. Samux şəhərinin ümumi uzunluğu 1300 metr olan Tofiq İsmayılov və Həzi Aslanov küçələrində yenidənqurma işləri başa çatmışdır. Heydər Əliyev prospektinin genişləndirilməsinə başlanmışdır.

Əvvəlki illərdə olduğu kimi, hesabat ilində də rayon iqtisadiyyatının inkişafında mühüm rol oynayan sahibkarlığın inkişafına xüsusi diqqət verilmişdir. Hazırda ümumi məhsul buraxılışının həcmində qeyri-dövlət sektorunun payı 82,7 faiz təşkil edir. Sərkar kəndi ərazisində "Samux Quşçuluq" MMC yenidənqurmadan sonra ilkin mərhələdə istehsala başlamışdır. Ümumi sahəsi 3 hektar olan müəssisədə il ərzində 2520 ton diri çəkidə quş əti istehsal ediləcəkdir. Quşçuluq təsərrüfatı qərb bölgəsinin quş ətinə olan tələbatının 20 faizini təmin edəcəkdir. Müəssisənin yaradılmasına ümumilikdə 3,7 milyon manat vəsait istifadə olunmuşdur. Müəssisədə istifadə edilən avadanlıqların bir qismi Almaniya və Hollandiya istehsalıdır. İlin əvvəlində yeni yaradılmış "Aqrikola" MMC istixana kombinatında faraş tərəvəz məhsullarının istehsalına başlanmışdır. Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi tərəfindən yaradılacaq "Aqroenerji" kompleksində işlərə artıq başlanmışdır. İl ərzində Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə rayon sahibkarlarına 82 layihə üzrə 11,1 milyon manat güzəştli kredit verilmiş və bunun hesabına 171 yeni iş yeri yaradılmışdır. 2009-2013-cü il illər ərzində Sahibkarlığa Kömək Milli Fondu tərəfindən rayon sahibkarlarına 211 layihə üzrə 20,6 milyon manat güzəştli kredit verilmişdir ki, bu da öz növbəsində 696 yeni iş yerinin açılmasına imkan vermişdir.




Keçən il əhalinin rifah halının göstəricilərində də müsbət dinamika müşahidə olunmuşdur. Ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi istiqamətində dövlət başçısının məqsədyönlü kursunun davamı olaraq ötən il minimum əmək haqqının 2013-cü ildə ən mühüm sosial məsələlərdən olan işsizliklə də bağlı problemlər öz həllini tapmışdır. Rayon əhalisinin məşğulluğunun təmin olunması prioritet məsələlərdən olmuşdur. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının uğurlu icrasının nəticəsidir ki, bu sahədə müsbət nəticələr əldə olunmuşdur. Hesabat dövründə rayonda 685 yeni iş yeri yaradılmışdır ki, onlardan da 480 iş yeri daimidir. Ümumilikdə son on ildə rayonda 4947-i daimi olmaqla 16075 yeni iş yeri yaradılmışdır.

İqtisadiyyatının əsasını aqrar sektor təşkil edən rayonda cari ildə sahələrdən yüksək məhsul əldə etmək üçün lazımi aqrotexniki tədbirlər həyata keçirilmişdir. 2013-cü ilin məhsulu üçün 9540 hektar sahədə payızlıq səpinlər aparılmışdır. Aparılmış səpinin 5210 hektarı buğda, 3889 hektarı dən üçün arpa, 441 hektarı isə xəsil məqsədi ilə əkilmişdir. 4961 hektar sahədə yazlıq bitkilərin səpini aparılmışdır. Onlardan 724,5 hektarı kartof, 909 hektarı tərəvəz, 1757 hektar sahədə günəbaxan, 465 hektarı bostan, 192 hektar şəkər çuğunduru, 234 hektar qarğıdalı və s. olmuşdur. 01.11.2014- cü il tarixə bütün təsərrüfat kateqoriyaları daxil olmaqla 9225 hektar sahədə taxıl biçini aparılmışdır. Müvafiq olaraq həmin sahələrdən 30480 ton taxıl məhsulu yığılmışdır. Taxıl üzrə məhsuldarlıq 33,1 sentner olmuşdur. Bundan başqa sahələrdən 8202 ton kartof, 10195 ton tərəvəz, 5514 ton bostan bitkiləri, 3463 ton günəbaxan, 806 ton qarğıdalı məhsulu yığılmışdır. Hesabat dövründə 14384 ton meyvə, 7110 ton üzüm istehsal olunmuşdur. Əvvəlki illə müqayisədə bütün kateqoriyalar üzrə hesabat ilində artım qeydə alınmışdır.

2014-cü ilin 01 yanvar tarixinə iribuynuzlu mal-qaranın sayı 21094 baş olmuşdur. Bundan ana inək və camışların sayı 10164 baş, qoyun və keçilərin sayı 167266 baş təşkil edir. Hesabat dövründə 3979 ton diri çəkidə ət, 14041 ton süd, 5608 min ədəd yumurta, 329 ton yun istehsal olunmuşdur.

Nazirlər Kabinetinin "Buğda istehsalçılarının maddi marağının artırılması və buğda istehsalının stimullaşdırılmasına dair" müvafiq qərarına əsasən 2013-cü ildə rayonun 23 ərazi komissiyası üzrə 7799 nəfər istehsalçıya 797463 manat yardım "Kapital Bank" ASC-nin Samux filialı tərəfindən plastik kartlarla ödənilmişdir. Məhsul istehsalçılarına rayon "Aqroservis" filialı tərəfindən güzəştli şərtlərlə 416 ton gübrə verilmişdir.

Kənd təsərrüfatında yüksək məhsul əldə etməyin əsas şərtlərindən biri əkin sahələrinin suvarma suyu ilə tam və vaxtında təmin olunmasıdır. Rayonda suvarma suyu kimi əsasən subartezian quyularından istifadə olunur. Kənd təsərrüfatının digər sahələri kimi suvarma suyu ilə təminatda daim ölkə başçısının diqqətində saxlanılır. Cənab Prezidentin "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" 15 may 2013-cü il tarixli Sərəncamı ilə digər rayonlarla bərabər Samux rayonu ərazisində 6 subartezian quyusunun qazılması təsbit olunmuş və yerinə yetirilmişdir. Məlumat üçün bildirirəm ki, ölkə başçısının növbəti 29 yanvar 2014-cü il tarixli Sərəncamı ilə rayonumuzda daha 13 subartezian quyusunun qazılması nəzərdə tutulmuşdur. Bununla bərabər, rayonda mövcud suvarma qurğu və avadanlıqlarının daim saz vəziyyətdə saxlanması üçün lazımi tədbirlər görülmüşdür. Hesabat dövrü ərzində 273 ədəd nasos, 48 ədəd elektrik avadanlıqları, 21 ədəd quyuda isə güc transformatorları təmir edilmişdir. Suvarmaya xidmət göstərən subartezian quyuları tam işlək vəziyyətdə saxlanılmış və nəzərdə tutulmuş işlər bütövlükdə yerinə yetirilmişdir.

Bakı şəhərində əhalinin kənd təsərrüfatı məhsullarına olan ehtiyacının daha yaxşı təmin olunması məqsədi ilə keçirilən yarmarkalarda rayonumuzun təmsili qrafik üzrə təmin olunmuşdur. İl ərzində yarmarkalara hər həftə olmaqla, ümumilikdə 105,0 ton meyvə, tərəvəz, üzüm və süd məhsulları göndərilmişdir.

2013-cü ildə rayon əhalisinin gəlirləri 119 milyon 522 min manat təşkil etmişdir. Adambaşına düşən gəlirlər 2122,9 manat olmuşdur. Rayon üzrə pensiyaçıların ümumi sayı 7 min 781 nəfər təşkil etmiş, Dövlət Sosial Müdafiə Fondunun Samux rayon şöbəsi tərəfindən 3661 nəfər fiziki və hüquqi şəxs məcburi dövlət sosial sığortasına cəlb olunmuşlar. Rayon üzrə orta aylıq pensiyanın məbləği 155,69 manat təşkil etmişdir. Təqaüd və müavinətlərin vaxtında verilməsi təmin olunmuşdur. Hesabat dövründə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sosial sığortaya cəlb edilməsi gücləndirilmiş, nəticədə fiziki şəxslər üzrə daxilolmalar 5,0 faiz artmışdır.

2013-cü ildə 1390 ailə ünvanlı sosial yardımı almaq üçün Əhalinin Sosial Müdafiəsi Mərkəzinə müraciət etmişdir. Bunlardan 1390 ailəyə sosial yardım təyin olunmuşdur ki, bu da aztəminatlı 6394 nəfərin yaşayışına əhəmiyyətli dərəcədə kömək göstərir. Hər ailəyə ödənilən yardımın orta aylıq məbləği isə 122,52 manat təşkil etmişdir. Bu, ünvanlı sosial yardımın tətbiqinin ilk ili 2006-cı illə müqayisədə 3 dəfə artım deməkdir.

İmtiyazlı təbəqəyə aid olan şəxslərin rayon üzrə yaradılmış imtiyazlı mənzil növbəsinə götürülməsi hesabat ilində də davam etdirilmişdir. İl ərzində 3 nəfər imtiyazlı mənzil növbəsinə daxil edilmişdir. 2013-cü ildə 36 nəfər mənzillə təmin edilmişdir. Ümumilikdə son 10 ildə 55 Qarabağ müharibəsi əlili və şəhid ailəsi mənzillə təmin olunmuşdur. 2 nəfər Böyük Vətən Müharibəsi əlili və 1 nəfər Qarabağ müharibəsi əlili fərdi minik avtomobili ilə təmin olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar rayon Məşğulluq Mərkəzi tərəfindən müəyyən tədbirlər həyata keçirilmişdir. 2013-cü ildə rayonda iqtisadi əmək fəaliyyəti ilə məşğul olanların sayı 28,6 nəfər təşkil etmişdir. Onlardan 4679 nəfəri və ya 16,4 faizi iqtisadiyyatın və sosial bölmənin müxtəlif sahələrində məşğul olur. Məşğulluq Mərkəzinə iş axtaran kimi müraciət edən 283 nəfər vətəndaşdan 218 nəfəri və ya 77,0 faizi müxtəlif sahələrdə işlə təmin edilmişdir. İş axtaranlardan 5 nəfəri işsiz kimi qeydiyyata alınmış, onların hər birinə işsizlik müavinəti ödənilmişdir.

Rayon əhalisinin elektrik enerjisinə, mavi yanacağa və içməli suya tələbatının ödənilməsi istiqamətində də müəyyən işlər görülmüşdür. Belə ki, rayon əhalisini dayanıqlı elektrik enerjisi ilə təmin etmək üçün hesabat dövründə 46 ədəd müxtəlif güclü transformator əsaslı, 28 ədədi isə cari təmir edilərək istismara verilmişdir.

Hesabat ilində əhali təbii qazla fasiləsiz olaraq əsasən təmin olunmuşdur. Bu məqsədlə yüksək və aşağı təzyiqli xətlərdə təmir-bərpa işləri aparılmışdır. 794 yeni abonent qeydiyyata alınmış və hər bir abonent məişət qaz sayğacları ilə təmin edilmişdir. İstismar müddətini başa vurması səbəbindən 2535 qaz sayğacı yenisi ilə əvəz edilmişdir.

Rayon ərazisində mövcud su xətlərində baş verən bütün yeraltı sızmaların və digər neqativ halların qarşısı vaxtında alınmış, əhalinin içməli suya olan tələbatını tam təmin etmək üçün dərinlik nasosları cari təmir edilərək istehsal gücləri artırılmışdır. Samux şəhərinin Elçin Məmmədov və Məmməd Əsədov küçələrinə 260 metr məsafədə yeni su xətti çəkilmiş, küçə sakinlərinin su problemi tamamilə həll edilmişdir. Bunun üçün 1 ədəd subartezian quyusu qazılaraq istifadəyə verilmişdir.

Rayon əhalisinə göstərilən rabitə və poçt xidmətinin yaxşılaşdırılması istiqamətində də müvafiq işlər aparılır. Hesabat dövründə əsas telefon aparatlarının sayı 86 ədəd artırılaraq 8275-ə çatdırılmışdır.

Rayonun təhsil, səhiyyə və mədəniyyət sahələrinin inkişafı da daim diqqətdə saxlanılmışdır. Son illərdə rayonda inşa edilən məktəblər, onların maddi texniki bazasının yaxşılaşdırılması və informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunması rayonun təhsil sisteminə müsbət təsir göstərmişdir. Son 10 ildə rayonda 15 yeni məktəb binası inşa edilmiş, 14 məktəbdə, 4 uşaq bağçasında əsaslı təmir işləri aparılmışdır. Bu baxımdan ötən il də uğurlu olmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi 2013-ci ildə rayonda 3 yeni məktəb binası tikilib istifadəyə verilmiş, 3 məktəb binası isə əsaslı təmir olunmuşdur.

2013-cü ildə 306 nəfər məzun ali məktəbə sənəd vermiş, 157 nəfər və ya 51,3 faizi ali məktəblərə qəbul olmuşdur. Bu ötən illə müqayisədə 40 nəfər çoxdur. 4 nəfər 600-dən yuxarı bal toplamışdır. Bu məzunlar Şəhər 1 və 3 saylı, Çobanabdallı, Sarıqamış kənd tam orta məktəblərinin məzunlarıdır. 8 nəfər 500-600 bal, 15 nəfər 400-500 bal toplamışdır. Orta ixtisas məktəblərinə 49 nəfər qəbul olmuşdur. Yüksək bal toplayan gənclərlə rayon rəhbərliyinin görüşü keçirilmiş, onlara qiymətli hədiyyələr verilmişdir.

2013-cü ildə rayon xəstəxanalarında ana ölümü olmamışdır. 116 nəfər şəkərli diabeti olan xəstə qeydiyyata götürülmüş, 25 nəfər müxtəlif səbəblərdən qeydiyyatdan çıxarılmışdır. Qeydiyyatda olan 851 nəfər şəkərli diabeti olan xəstələr vaxtaşırı olaraq müvafiq dərman preparatları ilə təmin olunmuşdur. Mərkəzi rayon xəstəxanası müasir tələblərə cavab verən flüoroqrafiya aparatı ilə təmin olunmuşdur.

Rayonda fəaliyyət göstərən mədəniyyət evləri, klublar və kitabxanalarda əhalinin səmərəli istirahətinin və gənclərin asudə vaxtlarının təşkili istiqamətində müəyyən işlər görülmüş, əvvəlki illərdə buraxılmış səhvlərin aradan qaldırılması istiqamətində işlər aparılmışdır.

Rayon gənclərinin vətənpərvərlik ruhunda tərbiyəsi və rayonda idmanın kütləviliyinin təmin olunması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Tərtib edilmiş tədbirlər planı əsasında müxtəlif idman növləri üzrə rayon birincilikləri keçirilmişdir. Rayon birinciliklərinin qalibləri mükafatlandırılmış və onların respublika birinciliklərində iştirakı təmin edilmişdir.

Rayonda ideoloji işin təşkili, ictimai-siyasi vəziyyət daim diqqət mərkəzində saxlanılmışdır. 2007-ci ildən fəaliyyət göstərən Heydər Əliyev Mərkəzi hesabat ilində müasir tələblərə cavab verən yeni inşa edilmiş binada fəaliyyət göstərmişdir və mərkəzin işi daha da genişləndirilmişdir. 2013-cü il ərzində mərkəzə gələnlərin sayı 4822 nəfər olmuşdur. Mərkəzə gələnlər ümummilli liderin həyat və fəaliyyəti ilə yaxından tanış olmuş, kino filmlərə baxmışlar. Mərkəzdə fəaliyyət göstərən tədqiqat qrupları tərəfindən ulu öndərin rayona səfərləri tədqiq edilmiş, bu səfərlər zamanı onunla görüşüb ünsiyyətdə olmuş insanlarla gənclərin görüşləri təşkil edilmişdir. Mərkəzdə dil və rəqs kursları təşkil olunmuşdur.

2013-cü ildə şəhər, qəsəbə və kəndlərin sosial-iqtisadi inkişafında, abadlıq-quruculuq işlərində və yerli əhəmiyyətli məsələlərin həllində bələdiyyələr, inzibati ərazi dairələri üzrə nümayəndələrlə birgə yaxından iştirak etmişdir. İl ərzində bələdiyyələr tərəfindən "Bir bələdiyyə-azı bir layihə" çərçivəsində 23 layihə həyata keçirilmişdir. Bu layihələr əsasən ərazilərin abadlaşdırılması və yaşıllaşdırılması, suvarma suyu ilə təchizatı, su arxlarının saxlanması, küçə və yolların təmiri, məişət tullantılarının yığılması və daşınması sahələrini əhatə etmişdir. Layihələrin həyata keçirilməsinə 82,2 min manat vəsait sərf edilmişdir

2013-cü ildə Samux Rayon İcra Hakimiyyəti başçısı aparatına ümumilikdə 681 ərizə, təklif və şikayət daxil olmuşdur ki, bu da ötən illə müqayisədə 200 ərizə və ya 22,7 faiz azdır. Müraciətlərdən 371-i yerli sakinlərdən, 310-u isə respublikanın yuxarı təşkilatlarından daxil olmuşdur. İl ərzində daxil olmuş ərizələrdə qaldırılan məsələlər yerində araşdırılmış, vətəndaşların haqlı tələbləri vaxtında həll edilmişdir.

Yerli icra hakimiyyətlərində operativ idarəetmənin təşkili üçün video müşavirə otaqları yaradılmışdır ki, bu da yerlərə operativ tapşırıqların verilməsini təmin edəcəkdir. Hazırda rayon icra hakimiyyətində və 5 inzibati ərazi dairəsində bu cür otaqlar yaradılmışdır. Eyni zamanda rayon icra hakimiyyətinin internet saytı yaradılmışdır. Burada vətəndaşlar onlayn müraciət etmək imkanına malikdirlər.

2013-ci ildə RİH tərəfindən rayonun hüquq-mühafizə orqanlarının və xidmət təşkilatlarının rəhbərləri ilə birgə həftədə bir dəfə olmaqla rayonun bütün yaşayış məntəqələrində səyyar qəbul-görüşlər keçirilmişdir. İl ərzində keçirilən 44 səyyar qəbul-görüşlərdə 9136 nəfər iştirak etmişdir. Səyyar qəbullar zamanı vətəndaşlar tərəfindən 166 şikayət və təklif daxil olmuşdur ki, onlardan da 115-i və ya 69,3 faizi həll edilmiş, 51-i və ya 30,7 faizi hazırda icradadır.



Növbəti beş il ərzində qarşımızda duran vəzifələr müəyyənləşdirilmişdir. Qeyd etdiyimiz kimi, Samux rayonunun 2014-2018-ci illərdə sosial-iqtisadi inkişaf istiqamətləri ilə bağlı illər üzrə geniş tədbirlər planı tərtib edilmişdir. Tədbirlər planı bütün sahələri əhatə etmişdir. Cari ilin əvvəllərində şəhərin kanalizasiya və mərkəzləşmiş içməli su sisteminin qurulması işlərinə başlanması gözlənilir. Rayonun Sərkar kənd orta məktəbi üçün 650 şagird yerlik, İnstitut qəsəbə tam orta məktəbi üçün 650 şagird yerlik yeni məktəb binalarının, Qarayeri qəsəbə tam orta məktəbi üçün 200 şagird yerlik, Alışağı kənd tam orta məktəbi üçün isə 120 şagird yerlik əlavə korpusların tikintisinin yaxın vaxtlarda həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Rayonun qəsəbə və kəndlərində bir neçə uşaq bağçasının açılması, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün çoxmənzilli yaşayış binasının, səhiyyə və mədəniyyət ocaqlarının tikintisi və əsaslı təmiri ilə bağlı işlər aparılır.

Qarşıda duran ən vacib məsələlərdən biri də rayon iqtisadiyyatının daha da genişləndirilməsi və əhalinin məşğulluğunun tam təmin olunması üçün yeni istehsal və emal müəssisələrinin yaradılmasını təmin etməkdən ibarətdir ki, bu istiqamətdə müvafiq işlər aparılır.

Ölkə başçısı tərəfindən 2014-cü ilin "Sənaye ili" elan edilməsi də qarşıda yeni vəzifələr qoymuşdur. Rayonda fəaliyyət göstərən sənaye müəssisələrinin genişləndirilməsi, yeni müəssisələrin yaradılması istiqamətində ardıcıl və məqsədyönlü işlərin aparılmasına başlanmışdır.

Aparılan irimiqyaslı abadlıq-quruculuq işləri onu deməyə əsas verir ki, 2014-cü ildə qarşıya qoyulan vəzifələrin icrası vaxtında təmin olunacaqdır. Bəli, Samux dinamik inkişafdadır: yeniləşir və müasirləşir, onun təkcə siması deyil, vətəndaşların sosial-iqtisadi və maddi rifahı yüksəlmişdir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**











# Təcrübəli meliorator



Hacı Əliş Talıbov Sabirabad rayonunda hörmət-ehtiram sahibidir. Xeyirxahlığı, insanpərvərliyi, xoş rəftarı, alicənablığı ilə yanaşı, öz peşəsini sevib, ərazidə uzun illər boyu min hektarlarla torpağın safa çıxarılması üçün çəkdiyi zəhmət qazandığı hörmətin üstünə hörmət gətirmişdir. Sabirabad rayonunda müəllim ailəsində anadan olan Əliş Talıbov hələ şagird ikən inşaat işlərinə maraq göstərmiş, əvvəlcə Bakı Politexnik Texnikumu, sonra isə Novoçerkassk Mühəndis-Meliorasiya İnstitutunun meliorasiya fakültəsini bitirmişdir.

Gənc yaşlarından idarə rəisi işləmişdir. Sabirabad Meliorasiya İdarəsinin rəisi olmuş, 15 il Kür-Araz çaylarında Bəndlərin İstismarı İdarəsinə rəhbərlik etmişdir. Əməyi yüksək qiymətləndirilmiş, 2011-ci ildə "Tərəqqi" medalına layiq görülmüşdür. Hazırda Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin Sabirabaddakı Meliorasiya İdarəsinin rəisi vəzifəsini daşıyır. Keçdiyi əmək yolu maraqlı və ibrətamiz olduğundan Hacı Əlişlə görüşərkən söhbətlərimiz də maraqlı keçir. İlk öncə onu deyək ki, Sabirabad rayonunun torpaqları bərəkətlidir. Burada taxılçılar hektardan əksər hallarda 50 sentner, ondan da artıq məhsul toplaya bilirlər. Bu isə səbəbsiz deyil. Muğanın bu bölgəsində illər uzunu genişmiqyaslı, səmərəli meliorasiya tədbirləri həyata keçirilib. Bu tədbirlərin icrası bir qayda olaraq melioratorlara həvalə olunub.

Həyat tarixçəsi zəngindir. Biz o tarixçənin yalnız bəzi səhifələrini vərəqləmək istəyirik. 2010-cu ildə bu ərazilər təbii fəlakətlə üzləşdi. Öz mənbəyini Ərzurum dağlarından alan və əsrlər boyu yurda xeyir-bərəkət, həyat bəxş edən Kür çayı öz məcrasından çıxdı. Minlərlə hektar torpaq sahəsi su altında qaldı. İnsanlar öz yurd-yuvalarını itirdilər, təsərrüfatlar məhv olub sıradan çıxdı. Həmişə olduğu kimi dövlətimiz yenə də əhalinin yanında oldu, insanlara hər cür maddi yardım və köməkliklər göstərildi. Təbii fəlakətlərin fəsadlarını qısa müddətdə aradan qaldırmaq lazım gəlirdi. Sabirabad rayonunun Kür çayı ətrafında yerləşən Əsgərbəyli və Qasımbəyli, Saatlı rayonunun Dəllər və Nərimankənd kəndlərinin ərazilərində su basan torpaqları həyata qaytarmaq ən vacib məsələlərdən biri idi. Yeraltı suları kənarlaşdırmaq



məqsədilə Saatlı rayonunun Nərimankənd kəndində səyyar nasos stansiyasının bərpası Əliş Talıbovun başçılıq etdiyi Meliorasiya İdarəsinə tapşırıldı. Təcrübəli meliorator kollektivin gücünü səfərbərliyə alıb stansiyanın bərpasını həyata keçirdi, stansiyanın tikintisi başa çatdırılaraq istismara buraxıldı.

Əliş müəllim deyir:

—Hazırda həmin ərazilərdə təbii fəlakətin, demək olar ki, izi qalmamışdır. Torpaqlar safa çıxarılmış, həyat öz əvvəlki ritminə qaytarılmışdır. Yolunuz düşsə, diqqət yetirin, Əsgərbəyli, Qasımbəyli, Dəllər, Nərimankənd kəndlərinin fermerləri bu il öz torpaqlarında genişmiqyaslı əkin işləri aparmışlar. Buğda və arpa əkinindən əla çıxış alınmışdır. Şübhə yoxdur ki, inşaallah, bu sahələrdən 40-50 sentner məhsul əldə olunacaq.

Təsərrüfatlararası kollektor-dren şəbəkələrinin lildən təmizlənməsi əkin sahələrinə suvarma suyunun normal axıdılmasına şərait yaradır. Rayonun 24 kəndində bu mühüm işi Meliorasiya İdarəsinin kollektivi həyata keçirir. Təkcə keçən il həmin kəndlərdə 380 kilometrdən çox uzunluğu olan kollektor-dren şəbəkəsi lildən təmizlənmişdir. Rayonun Yolçibəyli, Azadakənd, Muğangəncəli, Cavad və başqa kəndlərində drenaj sistemlərində, hidrotexniki qurğularda 77 ədəd cari, 16 ədəd əsaslı təmir işləri aparılmışdır.

İdarə rəisi deyir ki, meliorativ tədbirlərin səmərəliliyi günbəgün artırılır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin imkanları ildən-ilə genişlənir. ASC-nin sədri Əhməd Əhmədzadənin qayğı və diqqəti sayəsində meliorasiya idarələrinin, digər suvarma sistemlərinin maddi-texniki bazaları dünyada sınaqdan çıxarılmış ən güclü texniki vasitələrlə möhkəmləndirilir.

—Bizim idarə rayonun 3045 kilometr uzunluğunda drenləşdirilmiş təsərrüfatdaxili killektor şəbəkələrinə, həmin şəbəkələr üzərində 3244 ədəd hidrotexniki qurğulara, 5 ədəd meliorativ nasos stansiyasına xidmət edir. Biz gördüyümüz işləri idarənin balansında olan 10 ədəd ekskavatorun və 5 ədəd buldozerin texniki imkanları ilə həyata keçiririk. Yeri gəldikcə, kənar təşkilatların da köməkliyindən istifadə olunur.

Bizim qeyd dəftərçəmizdə Əliş Talıbovun demədiyi başqa rəqəmlər də var. Təkcə keçən il bir sıra nasos stansiyalarında, o cümlədən Şıxlar, Novruzlu, Muradbəyli kəndlərindəki stansiyalarda cari təmir işləri aparılmış, sıradan çıxan, istehsalata yaramayan avadanlıqlar yenisi ilə əvəz olunmuşdur. Ən əsası isə min kubmetrlərlə qrunt suları idarənin xidmət etdiyi ərazilərdən kənarlaşdırılaraq Baş Şirvan və Baş Mil-Muğan kollektorlarına ötürülmüşdür. Bu isə torpağın safa çıxarılması, onun münbitliyinin artırılması deməkdir.

Əliş müəllim davam edir:

—Meliorativ tədbirlərdə fasilələrə yol verilməməlidir. Torpaq canlı orqanizmdir. Ona qayğı göstərməyib diqqət yetirməyəndə öz sahibindən üz döndərir, üstündə yaşamaq istəyənin əlini ruzi-bərəkətdən çıxarır. Respublikanın bəzi bölgələrinə səfər zamanı şoranlaşmış torpaq görür və təəssüf hissi keçirirəm. Həmin torpaqları həyata qaytarmaq xeyli çətinliklər yaradır. Çünki şoranlaşmanın qarşısı vaxtında alınmalıdır. Bizim ərazidə də narahatlıq doğuran əməllərə yol verilir. Ayrı-ayrı vətəndaşlar ərazidə süni balıq gölləri yaradırlar. Bu heç də pis deyil. Lakin qeyri-qanuni şəkildə həmin göllərin suyunun kollektorlara axıdılması ümumi işimizə ziyan vurur.

Söhbət zamanı onu da öyrənirik ki, Sabirabad Meliorasiya İdarəsinin öhdəsinə yenicə qarşılaşdığımız 2014-cü ildə də mühüm vəzifələr qoyulub. Bu il 400 kilometrdən çox kollektor-dren şəbəkələrin təmizlənməsi, 165 min kubmetrdən çox torpaq işinin görülməsi, 70 ədəd hidrotexniki qurğuda cari, 15 ədədində isə əsaslı təmir işləri həyata keçirmək nəzərdə tutulmuşdur.

Bu və ya gigər tapşırıqlara, ən mühüm vəzifələrə Əliş Talıbovun başçılıq etdiyi kollektiv tərəfindən yüksək keyfiyyətlə əməl olunacağı inamı ilə biz təcrübəli melioratordan ayrılırıq.

**Tofiq HÜSEYN,**
**"Respublika".**

# Uğurlarımızı möhkəmləndiririk



Füzuli rayonunun 7 saylı tam orta məktəbi bu gün nümunəvi tədris ocaqlarından hesab olunur. Məktəb zəngin tarixi keçmişə, möhtəşəm təhsil ənənələrinə malikdir. Hazırda bu təlim-tərbiyə ocağına zəngin pedaqoji iş, həyat təcrübəsinə malik olan, yüksək intellektli pedaqoq kimi tanınan və nüfuz qazanan **Sahirə Məmmədova** başçılıq edir.

Onunla görüşüb söhbət edərkən bu şəhərdə, doğmaları arasında sığınacaq tapan, köçkün həyatı yaşayan, lakin gələcəyə, torpaqlarımızın azad olunacağına inamını itirməyən, ümidlə yaşayan bu təlim-tərbiyə ocağının kollektivinin təhsil sahəsində qazandığı uğurlu göstəricilərdən, həyata keçirilən vacib tədbirlərdən və qarşıda duran vəzifələrdən söz saldıq:

—Sumqayıtda yerləşməyimizə və isti sığınacaq qurmağımıza yaxşı şərait yaradılıb. Biz bu böyük qayğı, xeyirxahlığa görə əlaqədar təşkilatlara, yaxından yardım, köməklik edib arxa, dayaq duranlara öz dərin minnətdarlığımızı bildirmək istəyirik. Bu, biz qaçqınlara göstərilən qayğının parlaq təzahürüdür. Hazırda məktəbimizdə təhsil alan, elmin sirlərinə böyük həvəs, maraq göstərən 152 şagirdə tədrisin müasir səviyyədə keçirilməsinə möhkəm təminat var. Belə ki, bu tədris ocağı bütün texniki avadanlıq, ləvazimatla təchiz olunub. Balalarımızın təlim-tərbiyəsi, onların gələcək, müstəqil həyata, yeni cəmiyyət quruculuğuna hazırlanması üçün pedaqoji kollektivimizin hər bir üzvünün, xüsusilə Həqiqət Hüseynova, Məftunə Kərimova, Elyar Mirzəyev və Şəfiqə Fərhadovanın göstərdiyi fədakarlıq təqdirəlayiqdir. Dərsə davamiyyət, nizam-intizam da yüksək əsaslar üzərində qurulub. Söz yox, keçilən dərslərin, təlim-tərbiyənin keyfiyyəti də yüksək səviyyədədir. Bunun nəticəsidir ki, biz tədris, təlim-tərbiyə və idman sahəsində bir sıra uğurlar əldə etmişik. Keçən tədris ilində məktəbimizi uğurla bitirən, respublikamızın müxtəlif ali tədris müəssisələrinə imtahan verib öz güc, bilik və qabiliyyətini sınayan məzunlarımızdan Hüseyn Quluzadə və Nicat İmanlı 600-dən yuxarı bal toplayıb tələbə adına layiq bilinənlərdir. Bu, sözsüz ki, təlim-tərbiyə və tədrisin düzgün, yeni, müasir dövrün tələbləri baxımından qurulmasına, şagirdlərə dərin, əsaslı bilik, savad verilməsinə, öyrədilməsinə və elmin sirlərinə mükəmməl yiyələnməsinə əyani sübutdur.

Biz təhsil uğurlarımızı bundan sonra da davam etdirəcəyik. Buna tədris ocağında yaradılan imkan və şərait zəmanət verir. Onu da deyim ki, məktəbimizin şagirdləri respublika üzrə keçirilən müxtəlif fənn olimpiadalarında, inşa müsabiqələrində də uğurla iştirak edirlər. Onların peşə yönümünə düzgün istiqamətləndirilməsinə xidmət edən tədbirlərin həyata keçiririk. Bununla belə, məktəbimizin şagirdləri idman sahəsində də qeyri-adi göstəricilərə malikdir və respublikamızın şərəfini inamla qoruyaraq milli-bayrağımızı dəfələrlə yüksəklərə qaldırmağa onun adını ucaltmağa nail olublar. Məsələn, məktəbimizin yetirməsi Zülfüqar Quliyev Bolqarıstanın paytaxtı Sofiyada keçirilən cüdo güləş növü üzrə dünya çempionatında fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq yarışın qızıl medalına layiq görülmüşdür. 11-ci sinif şagirdi Orxan Əliyev isə Rusiyada təşkil olunmuş yarışda erməni rəqibinə inamla qalib gələrək üçüncü yerə çıxıb. Məktəbimiz respublika və şəhər birinciliklərı üzrə keçirilən yarışlarda da uğurlu çıxışlarla bizi sevindirib.

Sözsüz ki, bu tədris ilini də uğurlu təhsil göstəriciləri ilə başa vurmağa, yüksək nailiyyətlər qazanmağa çalışacaq, butun potensial imkanlarımızı səfərbər edib, nəyə qadir olduğumuzu göstərəcəyik.

**S.HƏSƏNLİ.**

# Xocalı soyqırımı qurbanlarının xatirəsi yad olunmuşdur

Bu günlərdə Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) Natəvan adına 4 saylı (filial) uşaq kitabxanasında Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş tədbir keçirilmişdir.

Xocalı Rayon İcra Hakimiyyəti nümayəndələrinin, şəhid ailələrinin, 225 saylı tam orta məktəbin müəllim və şagird kollektivinin, KİV nümayəndələrinin iştirakı ilə keçirilmiş tədbiri kitabxananın direktoru Sədaqət Seyidzadə açmış və vətən uğrunda, torpaqlarımızın azdlığı yolunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Xocalı Rayon İcra Hakimiyyətinin Bakıdakı nümayəndəsi, müharibə veteranı Xəlil Vəliyev geniş və məzmunlu çıxış etmişdir. Natiq vurğulamışdır ki, qədim tarixə malik, strateji əhəmiyyətli, bənzərsiz təbiəti, füsunkar gözəlliyi olan Xocalı şəhəri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə 366-cı alayın yarı erməni-yarı rus əsgərləri tərəfindən yerlə-yeksan edilmiş, körpələr, qocalar, qadınlar amansızlıqla insanlığa sığmayan vəhşiliklə qətlə yetirilmişdir. Həmin illərdə Bakıda kreslo davası gedirdi. Hakimiyyətin sanki bu faciədən xəbəri yox idi. Hər tərəfdən Xocalıya yolların bağlandığı bir vaxtda biz döyüşə atıldıq. Qeyri-bərabər döyüşdə neçə-neçə əzizlərimizi itirsək də, sınmadıq.

Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyev Xocalı aeroportunun komendantı idi.



Mərhum Aqil Quliyev Bakıdan 23 nəfər polis işçisi ilə köməyə gəlmişdi.

Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun fədakarlığı ilə Seyidağa Mövsümov və Çingiz Mustafayev Kətik dağının ətrafında səpələnmiş soydaşlarımızın fotolarını çəkərək bütün dünyaya bəyan etmişlər. Hansı ki, faciə olduğu halda Mütəllibov televiziyadan xalqa müraciət edərək demişdir ki, cəmi 2 nəfər şəhid olmuşdur.

2003-cü ildə yenidən hakimiyyətə qayıtmış ümummilli lider Heydər Əliyev Xocalı faciəsinə siyasi qiymət verilməsinə nail oldu. İndi dünyanın əksər dövlətləri bu ağlasığmaz faciəni, erməni vandalizmini, terrorunu, qətliamını pisləyir.

Şəhidlərimizin qanları yerdə qalmamalıdır. Beynəlxalq ictimaiyyətə göstərməliyik ki, biz mərhəmətli xalqın övladlarıyıq ki, vaxtında ermənilərə qucaq açmışıq, torpağımızda onlara yer vermişik. Onlar isə bütün bu yaxşılıqların əvəzinə bizi öz dədə-baba yurdumuzdan vəhşiliklə qovmuş və soyqırımı törətmişlər.

Tədbirdə Milli Məclisin deputatı Elman Məmmədovun köməkçisi Mahir Rzayev, Xocalı şəhər sakini, III qrup əlil, döyüşçü Musəvi Əzimov, hər iki valideyni amansızlıqla qətlə yetirilmiş Tofiq Əzimov xatirələrini söyləmişlər.

Yasamal rayonu 225 saylı tam orta məktəbin şagirdləri vətənpərvər ruhlu şeirlər söyləmiş və şəhidlərimizin xatirəsinə ehsan süfrəsi təşkil edilmişdir.

Sonda Yasamal rayon MKS-nin metodika və biblioqrafiya şöbəsinin müdiri Təranə Cəfərova və rayon 4 saylı (filialın) uşaq kitabxanasının baş kitabxanaçısı İradə Hüseynova Xocalı sakinlərinə və tədbirdə iştirak edən qonaqlara təşəkkürünü bildirmişdir.

**Rauf İLYASOĞLU,**
**"Respublika"**
**Foto: S.MƏMMƏD.**

## ● Nəqliyyat

**Müşfiq MİRZƏ,**
**"Respublika".**

### 1,4 milyon ton yük daşınıb

Nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 2014-cü ilin yanvar ayı ərzində 16,5 milyon ton yük daşınmışdır. Qeyri-neft yüklərinin həcmi 5,1 faiz artaraq 11,4 milyon tona çatmışdır. Nəqliyyat vasitələri ilə daşınmış yüklərin 53,7 faizi avtonəqliyyat, 32,8 faizi boru kəməri, 8,3 faizi dəmir yolu, 5,2 faizi dəniz nəqliyyatı vasitələri ilə həyata keçirilmişdir. **Dəmir yolu nəqliyyatı** ilə yük daşınması cari ilin yanvar ayında 1,4 milyon ton olmuşdur. Orta hesabla sutkada 483 vaqon yüklənmiş, 462 vaqon boşaldılmışdır. Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 19,8 min ton, qərb istiqaməti üzrə 4,4 min ton və cənub istiqaməti üzrə 3,7 min ton yüklənmə işi yerinə yetirilmişdir.

### Daşınmış yüklərin həcmi 0,9 min ton olub

**Dəniz nəqliyyatında** daşınmış yüklərin həcmi 0,9 milyon ton təşkil etmişdir. Yüklərin 56,5 faizini neft yükləri, 43,4 faizini isə quru yüklər təşkil etmiş və bütün daşınmalar xarici əlaqələr üzrə həyata keçirilmişdir. 2014-cü ilin yanvar ayında dəniz limanlarında 1,2 milyon ton yüklənmə-boşalma işləri həyata keçirilmiş və 0,5 faiz artım olmuşdur. Cari ilin fevralın 1-nə kimi limanlarda göndərilmək üçün 9 min ton idxal yüklərin qalığı olmuşdur.

### Metrodan 17,3 milyon nəfər istifadə edib

Nəqliyyat sektorunda daşınmaların həcminə görə ən böyük paya malik olan **avtomobil nəqliyyatı** ilə 8,8 milyon ton yük, 114,6 milyon sərnişin daşınmışdır. Sərnişinlərin 96,6 faizi avtobus, 3,4 faizi isə minik taksilərinin xidmətlərindən istifadə etmişlər. Yük dövrüyəsi 5,8 faiz, sərnişin dövrüyyəsi isə 7,7 faiz artmışdır. **Metro nəqliyyatının** xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 17,3 milyon nəfər olmaqla 1,5 faiz artmışdır. **Hava nəqliyyatı** ilə 125 min və ya 5,8 faiz çox sərnişin daşınmış, daşınmanın 99,8 faizi dövlət, 0,2 faizi isə özəl müəssisələrə məxsus hava gəmiləri ilə həyata keçirilmişdir. Bu qəqliyyat növü ilə yük daşınma 29,9 faiz artaraq 10 min tona çatmışdır.

### 3,7 milyon ton neft, 2,3 milyard kubmetr qaz

**Magistral neft kəmərləri** ilə 3,7 milyon ton neft nəql edilmişdir. Nəql etmənin dörddə üç hissəsi Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri ilə həyata keçirilmiş və bu ilin yanvar ayında bu kəmər vasitəsilə 2,9 milyon ton neft ötürülmüşdür. Dövr ərzində gəmilər vasitəsilə ölkəyə gətirilərək Səngəçal terminalından BTS kəməri ilə 488,3 min ton tranzit Türkmənistan nefti nəql edilmişdir. **Magistral qaz kəmərləri** ilə 2,3 milyard kubmetr və ya 16,4 faiz çox qaz nəql edilmişdir. Nəql edilmiş qazın 27,5 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmiş və 0,7 milyard kubmetr qaz ötürülmüşdür.

### 106,5 milyon manatlıq gəlir

Ötən ilin yanvar-dekabr aylarında **"İpək yolu"nəqliyyat dəhlizinin** Azərbaycan ərazisində 59 milyon ton və ya 3,8 faiz çox yük, 285,2 milyon nəfər və ya 9,3 faiz çox sərnişin daşınmışdır. Yüklərin 21,4 milyon tonu və ya 36,2 faizi dəmir yolu nəqliyyatı, 10,2 milyon tonu və ya 17,3 faizi dəniz nəqliyyatı, 27,4 milyon tonu və 46,5 faizi avtomobil nəqliyyatı ilə daşınmışdır. Yük daşınmaları fəaliyyətindən 476,4 milyon manat, sərnişin daşınmasından isə 106,5 milyon manat gəlir əldə olunmuşdur.

# 13,3 milyard dollarlıq müsbət saldo

Azərbaycan iqtisadiyyatı gücləndikcə, onun xarici ticarət dövriyyəsinin həcmi də artır.

Dövlət Statistika Komitəsi məlumat verir ki, ötən il ölkəmiz dünyanın 149 dövləti ilə iqtisadi əmakdaşlıq etmiş, o cümlədən 105 ölkəyə müxtəlif məhsullar ixrac etmişdir.

2013-cü ildə xarici ölkələrlə 34, 7 milyard ABŞ dolları məbləğində ticarət, o cümlədən 24 milyard dollarlıq ixrac və 10,7 milyard dollarlıq ixrac əməliyyatları aparılmışdır. Nəticədə 13,3 milyard dollarlıq müsbət saldo yaranmışdır. 2012-ci ilə nisbətən əmtəə mübadiləsinin dəyəri müqayisəli qiymətlərlə 6,3 faiz, o cümlədən ixracın həcmi 5,1 faiz, idxalın həcmi isə 9,1 faiz artmışdır.

Ticarət əlaqələrinin 88,3 faizi və ya 30,6 milyard dolları MDB üzvü olmayan digər dövlətlərlə (o cümlədən 44 faizi və ya 15,3 milyard dolları Avropa İttifaqı ölkələri ilə), 11,7 faizi və yaxud 4,1 milyard dolları isə MDB üzvü olan ölkələrlə həyata keçirilmişdir.

Xarici ticarət dövriyyəsinin beşdə dörd hissəsindən çoxu (83,9 faizi) İtaliya, İndoneziya, Rusiya, Almaniya, Türkiyə, ABŞ, Fransa, Böyük Britaniya, İsrail və digər dövlətlərin payına düşür. Mal mübadiləsinin 87,8 faizi ,o cümlədən ixracın 94 faizi və idxalın 74,2 faizi sərbəst dönərli valyuta ilə hesablanaraq həyata keçirilmişdir.

MDB üzvü olan ölkələr istisna olmaqla digər dövlətlərə ixrac olunmuş malların dəyəri müqayisəli qiymətlərlə 4,4 faiz artmışdır. Həmin ölkələrə göndərilən malların həcmi 22,5 milyard dollar təşkil etmişdir.

MDB üzvü olan ölkələrə göndərilən malların həcmi isə 20,2 faiz artaraq 1,5 milyard dollara çatmışdır.

**N.CAVADOV**
**"Respublika".**

# Dövlət Statistika Komitəsində Dünya Bankının nümayəndələri ilə görüş keçirilmişdir

**Bakı, 27 fevral (AzərTAc).** Dövlət Statistika Komitəsi sədrinin müavini Rauf Səlimov Dünya Bankının nümayəndə heyəti ilə görüşmüşdür.

Komitədən bildirmişlər ki, yoxsulluğun qiymətləndirilməsi ilə bağlı texniki yardımın və digər məsələlərin müzakirə edildiyi görüşdə R.Səlimov Dünya Bankı ilə əməkdaşlıqdan məmnunluğunu ifadə etmişdir. Komitə sədrinin müavini müxtəlif beynəlxalq təşkilatların məlumat bazalarında milli məlumatların təhrif olunması, çoxsaylı uyğunsuzluqlara yol verilməsi barədə danışmışdır. Bildirilmişdir ki, bir sıra hallarda milli statistika orqanının rəhbərliyi tərəfindən təsdiq edilərək beynəlxalq təşkilatlara göndərilmiş ölkə məlumatları redaktə olunur, qiymətləndirmələr aparılır, bu məlumatlar ölkənin razılığı olmadan müxtəlif dəyişikliklərə məruz qalır.

Görüşdə mövcud problemlərin həll olunması üçün müvafiq işçi qrupunun yaradılması ilə bağlı təkliflər irəli sürülmüş və bu sahədə əməkdaşlığın perspektivləri nəzərdən keçirilmişdir.

Dünya Bankının nümayəndəsi xanım Nista Sinha görüşdən razı qaldığını, tərəflər arasında əməkdaşlığın gələcəkdə daha da inkişaf etdiriləcəyinə əminliyini bildirmişdir. ■

# Ölkə rabitəsi inkişafdadır

Ölkəmizin son 10 ildə siyasi, sosial-iqtisadi, mədəni-humanitar sahələrdə əldə etdiyi yüksək nəticələr və möhkəm təməl üzərində formalaşmış ictimai-siyasi sabitlik, eyni zamanda dünyada sivil, demokratik inkişaf yolu ilə irəliləyən, beynəlxalq hüquq normalarına və prinsiplərinə hörmətlə yanaşan ölkə imicini daha da möhkəmləndirib Azərbaycanın müasir, qüdrətli ölkəyə çevrilməsi istiqamətində Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla reallaşan işlərin müsbət nəticələri bütün sahələrlə bərabər rabitə və informasiya texnologiyaları sahəsində də özünü qabarıq şəkildə büruzə verir. Prezidentin sərəncamı ilə 2004-cü ilin fevralında Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yaranmasından ötən 10 ildə bu sahənin inkişafında əsas mərhələ olmuşdur.

Ölkə rəhbərliyi tərəfindən İnformasiya-kommunikasiya texnologiyaları (İKT) sektorunun inkişafına göstərilən diqqət və qayğı qəbul edilən qərarlar və 2013-cü ilin ölkəmizdə "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan olunması bu mühüm saktorun uğurlarını daha da artırmışdır. Ötən ilin fevralında ilk milli telekommunikasiya peykinin orbitə göndərilməsi ilə Azərbaycan dünya kosmik ailəsinin fəal üzvlərindən birinə çevrildi. Bundan başqa, Azərbaycan hökumətinin təşəbbüsü ilə irəli sürülən "Trans-Avrasiya Super İnformasiya" Magistralı layihəsi BMT-nin ən üst qurumları tərəfindən yekdilliklə dəstəklənib və bu layihənin icrası istiqamətində real işlərə başlanılıb.

Bu gün ölkədə göstərilən elektron xidmətlərinin sayı və çeşidi durmadan artır. "Elektron hökumət" xidmətlərindən ay ərzində 50 mindən artıq insan istifadə edir. İndiyədək ölkə əhalisinə təxminən 820 mindən çox elektron xidmət göstərilib. Ölkə başçısının qayğısı ilə artıq 19-cu dəfə Bakıda təşkil olunmuş "Bakutel-2013" Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgi-konfransı respublikamızın İKT sahəsində böyük inkişaf potensialına malik olduğunu, regionun əhəmiyyətli qlobal layihələri özdaxili imkanlar hesabına uğurla reallaşdırdığını bir daha təsdiqləmişdir. Bu gün fəxrlə deyə bilərik ki, son 10 ildə həyata keçirilən işlərin məntiqi nəticəsidir ki, respublikamız nüfuzlu beynəlxalq qurum və təşkilatların reytinq cədvəlində İKT sahəsində bir çox göstəricilərinə görə lider mövqedədir. Dünyanın aparıcı təşkilatlarından olan Dünya İqtisadi Forumunun "Qlobal informasiya texnologiyaları-2013" adlı hesabatına görə, Azərbaycan 144 ölkə arasında İKT-ni ölkədə prioritet sahə hesab edən dövlət kimi 9-cu internet əlçatanlığı göstəricisinə görə 20-ci, mobil rabitə tariflərinə görə 28-ci, internet tariflərinə görə 16-cı, digər göstəricilərlə MDB və Mərkəzi Asiya ölkələri arasında liderlik mövqeyini qoruyub saxlayır.

**Əli SADIQOV,**
**"Respublika".**

# Təmir-bərpa və yenidənqurma işləri enerji obyektlərində uğurla yerinə yetirilir

İstehlakçilara göstərilən xidmətin səviyyəsinin artırılması istiqamətində icra edilən bu tədbirlər Şamaxı şəhərinin, eyni zamanda rayonun Nağaraxana, Qızmeydan, Çuxuryurd və digər kəndlərindən də yan keçməyib. "Şamaxı" EŞ-dən "Azərenerji" ASC-nin Mətbuat Xidmətinə daxil olan məlumatda bu ərazilərdə aparılan yenidənqurma və təmir işlərinin geniş vüsət aldığı diqqətə çatdırılır. Belə ki, son üç ay ərzində 35 kV-luq "Pirqulu" yarımstansiyasında gərginlik transformatoru, "Hacıqədirli" yarımstansiyasında isə cərəyan transformatoru yenisi ilə əvəzlənmişdir. Qeyd edək ki, sözügedən dövrdə müəssisənin xidməti ərazisində olan 0,4 kV-luq elektrik şəbəkələrinin yenidən qurulması, elektrik şəbəkəsinin istismarının asanlaşdırılması və elektrik şəbəkəsində itkilərin azaldılması məqsədi ilə 0,4 kV-luq hava xətlərinin 1,2 kilometrə yaxın hissəsi Özünüdaşıyan İzolyasiyalı Naqillər (SİP) ilə əvəz olunmuş və 25-dən artıq yeni dayaq basdırılmışdır. Eyni zamanda sayğac uçot komplektinə nəzarətin gücləndirilməsi məqsədilə 45 ədəd yeni sayğac quraşdırılmış və 65-dən artıq sayğac isə dəyişdirilmişdir. Mənbəyə istinadən onu da qeyd edək ki, şəbəkənin xidməti ərazisində olan 20-dən artıq TM-də müxtəlif təyinatlı təmir işləri həyata keçirilmişdir. Eyni zamanda müəssisənin balans mənsubiyyətinə aid olan bir neçə transformator daha güclüsü ilə əvəz edilmişdir. Belə ki, M. Ə. Rəsulzadə küçəsindəki 320 kVA transformator 630 kVA transformatorla, H. Aslanov küçəsindəki 160 kVA transformator 250 kVA transformatorla, Sabirli kəndindəki 63 kVA transformator isə 100 kVA transformatorla əvəz edilmişdir. Bütün bunlarla yanaşı, transformatorlara baxış keçirilmiş və yağ əlavə edilmişdir.

Mənbədən əldə etdiyimiz digər bir məlumata görə, ötən il ərzində müəssisənin xidməti ərazisində keçirilmiş reydlər zamanı 335-dən artıq istehlakçının (bunun 290-a yaxını məişət abonenti (əhali) istehlakçılar qrupuna aiddir) elektrik enerjisindən istifadə qaydalarını pozması faktı aşkar edilmişdir. Aşkar edilmiş qayda pozuntuları müvafiq qaydada aktlaşdırılmış və 774,3 min kilovat-saatdan artıq (bunun 326,4 min kilovat-saatdan çoxu məişət abonenti (əhali) istehlakçılar qrupuna aiddir) itirilmiş elektrik enerjisinin 46,5 min manata yaxın istehlak dəyəri bərpa edilmişdir. Həyata keçirilən müvafiq tədbirlər nəticəsində hesabat dövründə həmin bu məbləğin 65 faizə yaxın hissəsinin ödənişi təmin edilmiş və qalan hissənin ödənilməsi istiqamətində isə müvafiq tədbirlər həyata keçirilir. Yeri gəlmişkən, cari ilin yanvar ayında müəssisənin xidməti ərazisində keçirilmiş reydlər zamanı elektrik enerjisindən istifadə qaydalarının pozulması ilə bağlı 30 fakt (bunun 26-ı məişət abonenti (əhali) istehlakçılar qrupuna aiddir) aşkar edilərə müvafiq qaydada aktlar tərtib edilmişdir. Nəticədə 31,9 min kilovat-saata yaxın (bunun 14,6 min kilovat-saata yaxını məişət abonenti (əhali, istehlakçılar qrupuna aiddir) itirilmiş elektrik enerjisinin 1,9 min manatdan artıq istehlak dəyəri bərpa edilmişdir.

Mənbə onu da bildirdi ki, 2013-cü ildə müəssisənin xidməti ərazilərində istehlakçılar tərəfindən 65,5 milyon kilovat-saata yaxın elektrik enerjisi istehlak edilmişdir ki, bu da 2012-ci ildəki istehlakla müqayisədə 4,1 milyon kilovat-saat çoxdur. Ümumi ödəniş isə 2012-ci ildəki göstərici ilə müqayisədə mütləq 8 faizdən çox artmışdır. O cümlədən daimi əhali istehlakçı qrupu üzrə isə 39,1 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehlak edilmişdir. Nəticədə 2012-ci illə müqayisədə istehlak 1,1 milyon kilovat-saat, ödəniş isə mütləq 7 faizdən artıq olmuşdur.

Onu da qeyd etmək yerinə düşərdi ki, cari ilin yanvar ayında burada 6,7 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehlak edilmişdir. Nəticədə ötən ilin müvafiq dövrü ilə müqayisədə istehlak 513 min kilovat-saata yaxın, ümumi ödəniş isə mütləq 7 faizə yaxın artmışdır. O cümlədən daimi əhali istehlakçı qrupu üzrə 4 milyon kilovat-saata yaxın elektrik enerjisi istehlak edilmişdir ki, bu da ötən ilin müvafiq dövründəki istehlakla müqayisədə 386 min kilovat-saat çoxdur.

Sonda mənbə onu da bildirdi ki, həyata keçirilmiş bütün bu işlər istehlakçıların daha da keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təmin edilməsinə, texnoloji itkilərin müəyyən edilmiş həddə saxlanılmasına, ifrat yüklənmələrin qarşısının alınmasına xidmət edir.

**T.ƏBDÜLƏZİZOĞLU,**
**"Respublika".**

# Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2014-cü ilin mart ayında şəhər və rayonlarda vətəndaşların qəbulu

## C Ə D V Ə L İ

| Mərkəzi İH orqanı | Qəbul günü | Qəbulun keçirildiyi şəhər | Əhatə olunan şəhər və rayonlar |
|---|---|---|---|
| **Fikrət Məmmədov** **Ədliyyə naziri** | 05 | Şamaxı | Şamaxı, Ağsu, Qobustan |
| **Hicran Hüseynova** **Ailə, qadın və uşaq problemləri üzrə dövlət komitəsinin sədri** | 06 | Göyçay | Göyçay, Ağsu, Şamaxı, İsmayıllı, Qobustan |
| **Qərib Məmmədov** **Dövlət torpaq və xəritəçəkmə komitəsinin sədri** | 07 | Lənkəran | Lənkəran, Astara, Masallı, Cəlilabad, Lerik, Yardımlı |
| **Azad Rəhimov** **Gənclər və idman naziri** | 11 | Masallı | Masallı, Lənkəran, Astara, Cəlilabad, Lerik, Yardımlı |
| **Səlim Müslümov** **Əmək və əhalinin sosial müdafiəsi naziri** | 12 | Şirvan | Şirvan, Hacıqabul, Sabirabad, Saatlı |
| **Elman Mehdiyev** **Dövlət sosial müdafiə fondunun sədri** | 12 | Saatlı | Saatlı, Şirvan, Hacıqabul, Sabirabad, Salyan, Neftçala, Biləsuvar, Cəbrayıl |
| **Məleykə Abbaszadə** **Tələbə qəbulu üzrə dövlət komissiyasının sədri** | 12 | Qusar | Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən, Xızı |
| **Zakir Qaralov** **Baş prokuror** | 14 | Qusar | Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən |
| **Hüseynqulu Bağırov** **Ekologiya və təbii sərvətlər naziri** | 14 | İmişli | İmişli, Saatlı, Sabirabad, Beyləqan |
| **Şahin Mustafayev** **İqtisadiyyat və sənaye naziri** | 14 | Sumqayıt | Sumqayıt, Abşeron |
| **Heydər Əsədov** **Kənd təsərrüfatı naziri** | 14 | Cəlilabad | Cəlilabad, Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı |
| **Ziya Məmmədov** **Nəqliyyat naziri** | 14 | İsmayıllı | İsmayıllı, Şamaxı, Ağsu, Qobustan |
| **Oqtay Şirəliyev** **Səhiyyə naziri** | 14 | Lənkəran | Lənkəran, Astara, Biləsuvar, Cəbrayıl, Cəlilabad, Masallı, Lerik, Yardımlı |
| **Kərəm Həsənov** **Əmlak məsələləri dövlət komitəsinin sədri** | 14 | Mingəçevir | Mingəçevir, Yevlax, Ağdaş, Bərdə, Tərtər |
| **Əli Abbasov** **Rabitə və informasiya texnologiyaları naziri** | 15 | Tərtər | Tərtər, Yevlax, Ağdam, Bərdə, Xocalı |
| **Elşad İskəndərov** **Dini qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri** | 15 | Xaçmaz | Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən |
| **Mikayıl Cabbarov** **Təhsil naziri** | 17 | Goranboy | Goranboy, Gəncə, Naftalan, Daşkəsən, Göygöl, Samux, Xocalı |
| **Arzu Rəhimov** **Səfərbərlik və hərbi xidmətə çağırış üzrə dövlət xidmətinin rəisi** | 27 | Şamaxı | Şamaxı, Ağsu, İsmayıllı, Qobustan |
| **Əbülfəz Qarayev** **Mədəniyyət və turizm naziri** | 28 | Ağsu | Ağsu, Şamaxı, Qobustan, İsmayıllı, Qəbələ, Oğuz |
| **Aydın Əliyev** **Dövlət gömrük komitəsinin sədri** | 28 | Qəbələ | Qəbələ, Oğuz, İsmayıllı, Ağdaş |


AtaSığorta | 10 il

# "AtaSığorta" ASC 2013-cü ilə yekun vurdu

"AtaSığorta" ASC 2013-cü il üzrə fəaliyyətinin nəticələrinə yekun vurmuşdur. Məlumata əsasən cari il ərzində şirkətin sığorta haqqı üzrə yığımları 12,6 milyon manat təşkil etmişdir. 2012-ci illə müqayisədə sığorta haqqı yığımları 1,7 milyon manatdan çox artmışdır. 2013-cü ildə sığorta ödənişlərinin həcmi əvvəlki ilə nisbətən 0,25 milyon manat artaraq 3,0 milyon manatı ötmüşdür. Şirkətin nizamnamə kapitalı cari ildə 2,6 milyon manat artırılaraq 7,6 milyon manata çatdırılmış, aktivlərin ümumi həcmi isə 21 milyon manatı ötmüşdür. "AtaSığorta" ASC-nin 2013-cü il üzrə balans mənfəəti 1,7 milyon manat təşkil etmişdir.

Bundan əlavə şirkət cari il ərzində həm əməkdaşların sayı, həm də əhatə dairəsinə görə inkişaf etmişdir. Belə ki, 2013-cü il ərzində şirkətə 54 nəfər yeni əməkdaş işə qəbul edilmiş və şirkətin xidmət şəbəkəsinə 1 filial, 6 nümayəndəlik və 5 yeni satış ofisi əlavə olunmuşdur. Bütün qeyd olunanları nəzərə alaraq, şirkət 2013-cü ildə qarşıya qoyduğu hədəfləri yerinə yetirmiş və dinamik inkişafını davam etdirmişdir.

"AtaHolding" Şirkətlər Qrupuna daxil olan AtaSığorta 2004-cü ildən sığorta bazarında fəaliyyət göstərir. Şirkət 22 könüllü və 4 icbari sığorta növü üzrə müştərilərinə xidmət göstərir. İcbari Sığorta Bürosunun təsisçisi və iştirakçısıdır. "AtaSığorta" ASC-nin xidmət şəbəkəsinə 5 filial, 8 nümayəndəlik və 6 satış ofisi daxildir.


# Azercell Telekom MMC ötən ilin hesabatını təqdim etdi



Dünən Nizami Kino Mərkəzində "Azercell Telekom" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) informasiya-kommunikasiya texnologiyaları (İKT) elan edilən 2013-cü ilin yekunlarına həsr olunmuş mətbuat konfransı keçirmişdir. Tədbirdə şirkətin prezidenti Kirill Qaburiç çıxış edərək bildirdi ki, 2013-cü il üçün əsas nailiyyət, şəbəkənin 20%-ə qədər rekord səviyyədə gücləndirilməsi hesab edilir. Belə ki, ötən il ərzində Azercell Telekom 1200-dən artıq yeni baza stansiyası quraşdırıb ki, bunlar da bütün ölkə boyu səs xidmətləri və internet-rabitənin yüksək keyfiyyətini təmin etməkdədir. 2013-cü ilin sonuna Azercell Telekom MMC-nin şəbəkəsi 5500 baza stansiyadan ibarət olub ki, onların da 260-dan çoxu məhz Bakı və Abşeron yarımadasını əhatə edən LTE (4G) şəbəkəsinə xidmət edir və yüksək internet sürəti ilə bərabər, CSFB sistemi üzərindən səsli rabitəni dəstəkləyir. Ötən ildə həmçinin Ookla Net İndex tərəfindən aparılan araşdırmaların nəticələrinə əsasən, Azərbaycanda ən yüksək mobil internet sürətini məhz Azercell şirkəti təmin edir. Bundan əlavə, hər ikinci abunəçinin fəal mobil internet istifadəçisi olduğu halda, Azercell abunəçiləri arasında mobil internetdən istifadənin artım göstəricisi 120%-dən artıq olmuşdur. K. Qaburiçin sözlərinə görə, 2013-cü il Azercell üçün ASAN-İmza, "Ağıllı Ev" və digər layihələrlə yaddaqalan olub. Ötən il ərzində Azercell dünyanın 100-dən artıq operatoru ilə rouminq tariflərini endirib. Paytaxtda və regionlarda öz xidmət mərkəzləri şəbəkəsinin genişləndirilməsini davam etdirib. Hazırda 560-dan çox müxtəlif xidmət məntəqəsi fəaliyyət göstərir.

Bu gün şirkətin mobil rabitə şəbəkəsi ölkə əhalisinin 99,8% əhatə edir, abunəçilərin sayı isə 4,5 milyon nəfərə çatmışdır. 2013-cü ildə Azercell dövlət büdcəsinə təqribən 111 milyon manat, ölkədə fəaliyyət göstərdiyi 17 il ərzində isə 1 milyard manat vəsait ödəyib. Ötən il ərzində Azərbaycanda telekommunikasiyanın inkişafına təqribən 84.5 milyon manat, 17 il ərzində isə 1 milyard manat sərmayə yatırmışdır. 2013-cü il ərzində şirkət öz əməkdaşlarının peşəkar inkişafına da 1 milyon manat xərcləmişdir. Sosial layihələrin həyata keçirilməsinə isə 0,4 milyon manat vəsait sərf olunmuşdur.

Tədbirdə mətbuat nümayəndələrini maraqlandıran suallara cavab verildi.

**Gülşən HÜSEYNOVA,**
**"Respublika".**

# "Synergy Baku"nun üzvü dünya çempionudur



Azərbaycanın ilk peşəkar velosiped komandası "Synergy Baku"ya daha bir şad xəbər Kolumbiyadan gəlib. Belə ki, ötən gün bu ölkənin Kali şəhərində start götürən trek yarışları üzrə dünya çempionatında komandamızın avstraliyalı üzvü Lük Deyvison öz ölkəsinin yığmasının heyətində 4000 metr məsafəyə komanda izləmə yarışlarında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Qeyd edək ki, Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) mövcud qanunları idmançılara həm şose, həm də trek yarışlarında iştirak etməyə imkan verir. Bu da "Synergy Baku"da şose növündə çıxış edən Lük Deyvisona öz millisi ilə Kolumbiyaya - trek üzrə dünya çempionatına yollanaraq qızıl medal qazanmağa şərait yaradıb.

Həmkarlarını dünya çempionluğu münasibətilə təbrik edən "Synergy Baku" üzvləri bu nailiyyətin onlara əlavə ruh yüksəkliyi verdiyini bildiriblər.

**Xaqani KOSAYEV,**
**"Respublika".**

# BİLDİRİŞ

Azərbaycan Memarlıq və İnşaat Universiteti "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 49-cu maddəsinə uyğun olaraq kotirovka sorğusu ilə "AzMİU-nun kommunal və kommunikasiya xidmətləri işləri" üzrə satınalınmasını həyata keçirir.

Satınalmada iştirak etmək istəyənlər 05 mart 2014-cü il tarixində saat 17:00-dək Azərbaycan Memarlıq və İnşaat Universitetinin tender komissiyasına müraciət edə bilərlər.

Təkliflər 06 mart 2014-cü il tarixində saat 11:00-da Azərbaycan Memarlıq və İnşaat Universitetinin 309-cu otağında tender komissiyasında açılacaq.

İddiaçıların səlahiyyətli nümayəndələri təkliflərin açılışında iştirak edə bilərlər.

***Ünvanımız:***
**Bakı şəhəri, Ayna Sultanova küçəsi 5**
**Əlaqə telefonu: 510-64-31**
**Əlaqələndirici şəxs: Sarvan Səfərov**

**Tender Komissiyası.**

# Təhsil şöbəsinin müdiri barəsində olan cinayət işi baxılması üçün məhkəməyə göndərilmişdir

**Bakı, 27 fevral (AzərTAc).** Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsində Quba rayon təhsil şöbəsinin müdiri Süleyman Aslanovun qanunsuz hərəkətlərə yol verməsi faktlarına görə başlanmış cinayət işinin istintaqı yekunlaşmışdır.

Aparılmış istintaqla S.Aslanovun vəzifə səlahiyyətlərindən qulluq mənafeyinə zidd olaraq saxta diplomlar əsasında Quba rayon sakinlərinin rayonun orta və tam orta məktəblərinə müəllim təyin edilməsinə nail olmaqla həmin şəxslər tərəfindən keyfiyyətsiz tədris aparılmasında, həmçinin dövlət büdcəsindən təhsilin maliyyələşdirilməsi üçün ayrılmış 103 min 455 manat məbləğində vəsaitin əmək haqqı kimi onlara qanunsuz olaraq verilməsinə şərait yaradaraq təhsil sistemini nüfuzdan salan hərəkətləri ilə dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurmasında şübhələr üçün əsaslar olduğundan o, iş üzrə Cinayət Məcəlləsinin 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilmişdir.

Baş Prokurorluğun mətbuat xidmətindən bildirmişlər ki, cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir. ■

# Sabunçu rayonunda törədilmiş ağır cinayət hadisəsi üzrə istintaq davam etdirilir

**Bakı, 27 fevral (AzərTAc).** Xəbər verdiyimiz kimi, fevralın 23-də Sabunçu rayonunda münaqişə zəminində odlu silahdan açılmış atəş nəticəsində Fərid Qədirovun qəsdən öldürülməsi, Yusif Alpaşayev, Akif və Asif Nəzərovların isə xəsarət almaları faktına görə Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) və 29,120.2.7-ci (iki və daha çox şəxsi öldürməyə cəhd) maddələri ilə başlanmış cinayət işi üzrə istintaqın aparılması Bakı Şəhər Prokurorluğunun istintaq idarəsinə həvalə edilmişdir.

Bakı Şəhər Baş Polis İdarəsi və Şəhər Prokurorluğu əməkdaşlarının həyata keçirdikləri təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində əvvəllər məhkum olunmuş Gülağa Lətifov tutularaq istintaqa cəlb edilmişdir.

Bakı Şəhər Prokurorluğunun daxil olmuş məlumatında bildirilir ki, Yusif Alpaşayev aldığı xəsarətlərdən xəstəxanada vəfat etdiyindən, eyni zamanda, G.Lətifovun torpaq üzərində qanunla müəyyən edilmiş mülkiyyət hüququnu pozaraq torpaq sahəsini özbaşına tutmasında, xuliqanlıq niyyəti, zərərçəkmiş şəxslərin ictimai borclarını yerinə yetirmələri ilə əlaqədar xüsusi amansızlıq, eləcə də ümumi təhlükəli üsulla iki şəxsi qəsdən öldürməsində, həmin niyyətlə zərərçəkmiş şəxslərin ictimai borclarını yerinə yetirmələri ilə əlaqədar onların özlərini və ümumi təhlükəli üsulla daha çox şəxsi öldürməyə cəhd göstərməsində şübhələnməyə kifayət qədər əsaslar olduğundan cinayət işi Cinayət Məcəlləsinin 120.2.2-ci (xuliqanlıq niyyəti ilə adam öldürmə), 120.2.3-cü (zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özünü və ya yaxın qohumlarını öldürmə), 120.2.4-cü (xüsusi amansızlıq və ümumi təhlükəli üsulla adam öldürmə), 120.2.7-ci (iki və daha çox şəxsi öldürmə), 188-ci (torpaq üzərində mülkiyyət hüququnu pozma) və 29,120.2.2-ci (xuliqanlıq niyyəti ilə adam öldürməyə cəhd), 29,120.2.3-cü (zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özünü və ya yaxın qohumlarını öldürməyə cəhd), 29,120.2.4-cü (xüsusi amansızlıq və ümumi təhlükəli üsulla adam öldürməyə cəhd), 29,120.2.7-ci (iki və daha çox şəxsi öldürməyə cəhd) maddələrinə tövsif edilmişdir.

G.Lətifova həmin maddələrlə ittiham elan edilməklə barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda iş üzrə istintaq davam etdirilir. ■

# Dələduzluqla məşğul olan şəxs cinayət başında yaxalanmışdır

**Bakı, 27 fevral (AzərTAc).** Bakı şəhər sakininin Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciəti üzrə təxirəsalınmaz əməliyyat-istintaq tədbirləri həyata keçirilmişdir.

Özünü Bakı Slavyan Universitetinin müəllimi kimi təqdim edən Şəlalə Hüseynovanın Bakı şəhər sakinindən ona ali təhsil haqqında diplom təşkil edəcəyi adı ilə 8 min manat pul tələb edərək həmin məbləğin 3,7 min manatını alıb, sonradan qalan 4,3 min manatını alarkən cinayət başında yaxalanmasında şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq) və 310-cu (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) maddələri ilə cinayət işi başlanmışdır.

Baş Prokurorluğun mətbuat xidmətindən bildirmişlər ki, aparılmış əməliyyat tədbirləri zamanı Ş.Hüseynovanın yaşadığı mənzildən müxtəlif vətəndaşlara aid şəxsiyyət vəsiqələrinin surətləri, pasportlar, diplomlar, attestatlar, müvəffəqiyyət kitabçaları, hərbi biletlərin surətləri və istintaq üçün əhəmiyyət kəsb edən digər sənədlər aşkar olunaraq götürülmüşdür.

Ş.Hüseynova Cinayət Məcəlləsinin həmin maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək himayəsində iki azyaşlı övladının olması nəzərə alınmaqla barəsində polisin nəzarəti altına vermə növündə qətimkan tədbiri seçilmişdir.

Hazırda Ş.Hüseynova tərəfindən törədilməsi ehtimal olunan digər cinayətlərin aşkarlanması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir. ■

## DÜNYA BUGÜN

*FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR*

### ❑ ARSENİ YASENYUK UKRAYNANIN YENİ BAŞ NAZİRİ SEÇİLİB



Ukrayna Ali Radasında yaradılan "Avropa seçimi" koalisiya çoxluğu baş nazir vəzifəsinə "Batkivşina" fraksiyasının lideri Arseni Yasenyukun namizədliyini irəli sürüb. "APA"nın Ukrayna mətbuatına istinadən verdiyi məlumata görə, 1974-cü il təvəllüdlü Arseni Petroviç Yasenyuk 371 deputatın səsi ilə baş nazir vəzifəsinə təsdiqlənib.

A.Yasenyuk deputatlar qarşısında çıxış edib. O, 1994-cü ildə imzalanmış Budapeşt Memorandumunun tərəflərini (ABŞ, Britaniya, Rusiya) Ukraynanın ərazi bütövlüyünə təminat verməyə çağırıb.

Bununla yanaşı, A.Yasenyuk bildirib ki, Krım Ukrayna ərazisi olub və olacaq: "Hazırda siyasi maraqlarla əlaqədar Ukraynanın ərazi bütövlüyünə iddia irəli sürmək cəhdləri var. Bəyan edirəm ki, Ukrayna öz ərazi bütövlüyünü qorumaq üçün bütün legitim və konstitusion vasitələrdən istifadə edəcək".

Yeni baş nazir çıxışında ölkədə yaranmış ağır sosial-iqtisadi durumun üzərində xüsusi dayanıb. O bildirib ki, Yanukoviç-Azarov hakimiyyəti offşor zonalar vasitəsilə ölkədən 70 milyard dollar çıxarıb, dövlət borcu 75 milyard dollara çatıb, xəzinə talan edilib və boşdur: "20 milyard dollardan çox qızıl-valyuta ehtiyatı talanıb, alınan 37 milyard dollar kredit, naməlum istiqamətdə yoxa çıxıb. Vahid xəzinə hesabında 4,3 milyon qrivna qalıb ki, bu məbləğ heç nəyə çatmaz. Biz inanılmaz iqtisadi təhlükələr qarşısında qalmışıq. Mən Ukrayna xalqı qarşısında səmimi olmaq istəyirəm: "Bu vəziyyətdən çıxmaq və ölkənin maliyyə sistemini qoruyub saxlamaq üçün subsidiyalar, tariflərlə bağlı həddən artıq qeyri-populyar qərarlar qəbul etmək və sosial proqramları ixtisar etmək məcburiyyətindəyik. Bizim hazırda sosial güzəştlər və subsidiyaları ödəmək imkanımız yoxdur. Mən nə bu gün, nə də sabah yaxşılaşma vəd etmirəm".

Yasenyuk hesab edir ki, təcili şəkildə beynəlxalq valyuta qurumları ilə danışıqları bərpa etmək lazımdır. Onun sözlərinə görə, maliyyə sistemini sabitləşdirmək üçün imkanlar var. Baş nazir hökumətin proqramında bir nömrəli vəzifənin Avropa Birliyi ilə assosiasiya sazişinin imzalanması olduğunu açıqlayıb.

### ❑ PENTAQON BAŞÇISI RUSİYANI İKİLİ ADDIM ATMAMAĞA ÇAĞIRIB



ABŞ-ın müdafiə naziri Çak Heygel Rusiyanı "səhv başa düşülən" addımlar atmaqdan yayınmağa çağırıb. Bu barədə "Röyters" agentliyi xəbər verib. Müdafiə nazirinin sözlərinə görə, o, Rusiya qoşunlarının Ukrayna sərhədləri yaxınlığında hərbi təlimlərini diqqətlə izləyir. Bu barədə "Assoşieyted Press" agentliyi xəbər verib.

Çak Heygel bəyanatını fevralın 27-də NATO ölkələrinin müdafiə nazirlərinin Brüsseldə görüşün nəticəsi olaraq səsləndirib. Bəyanat Rusiya Federasiyasının prezidenti Vladimir Putinin əmri ilə Qərb və Mərkəzi Hərbi Dairənin qoşunlarında hərbi döyüş qabiliyyətinin yoxlanılmasına başlandıqdan sonra səsləndirilib.

Hərbi təlimlərə Böyük Britaniyanın müdafiə naziri Filipp Hammond da reaksiya verərək, təlimləri izləyəcəyinə söz verib. Manevrlərin Ukraynaya müdaxilə üçün hazırlıq olub-olmadığı haqda bir söz deməyən F.Həmmond ukraynalılara gələcəklərini müəyyən etməyə imkan verməyə çağırıb.

Rusiyanın müdafiə naziri Sergey Şoyqunun bəyan etdiyi kimi, hərbi təlimlər və Ukraynadakı hadisələr arasında heç bir əlaqə axtarmaq lazım deyil. O qeyd edib ki, manevrlərin keçdiyi regionlar digər xarici ölkələrlə də sərhəd təşkil edir.

Məlumata görə, hərbi təlimlər fevralın 26-dan martın 3-nə kimi davam edəcək.

Bununla yanaşı, fevralın 27-də Simferopolun küçələrinə guya rus zirehli texnikasının yeridildiyi barədə informasiya yayılıb. Bu, naməlum insanların Krım hakimiyyəti orqanlarını tutmasından sonra baş verib. ■

Azərbaycan Milli Elmlər Akademiyası Respublika Seysmoloji Xidmət Mərkəzi açıq tender elan edir

Tender 5 (beş) lot üzrə keçirilir:

Lot-1. Dəftərxana xərci

Lot-2. Lerik sts, Saatlı sts, Qazax sts, Kürdəmir sts, Mingəçevir sts, Altıağac sts cari təmir işləri

Lot-3. Avadanlıq işlərinin görülməsi

Lot-4. Kimyəvi raektivlərin alınması

Lot-5. Abadlaşma işlərinin görülməsi.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

İştirak haqqı:

Lot-1 — 50 (əlli) manat
Lot-2 — 120 (yüz iyirmi) manat
Lot-3 — 100 (yüz) manat
Lot-4 — 100 (yüz) manat
Lot-5 — 50 (əlli) manat.

DXA
Kod: 210005
VÖEN: 1401555071
M/h: AZ85NABZ01360100000003003944
S.W.I.F.T.: CTREAZ22
Adı: AMEA RSXM
H/H: AZ34CTRE00000000000004138305
VÖEN: 1700434611
Büdcə səviyyəsinin kodu: 1
Büdcə təsnifat kodu: 4138305
Maddə: 142319

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

—tenderdə iştirak etmək üçün yazılı müraciət;

—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

—tender təklifi (zərflərin açıldığı gündən sonra 30 bank günü qüvvədə olmalıdır);

—tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü müddətində qüvvədə olmalıdır);

—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;

—iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;

—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

—iddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensial imkanı haqqında məlumat.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilində tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank zəmanəti, iş qrafiki istisna olmaqla) 15 aprel 2014-cü il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 21 aprel 2014-cü il saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 22 aprel 2014-cü il saat 11:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Ünvan: Bakı şəhəri, Səbail rayonu, N.Rəfibəyli küç.-9

Telefon: (012) 492-50-70

Faks: (012) 492-50-70.

Tender Komissiyası.

# “Bahar Sevincləri”ndən sevinc payınızı alın!

Lotereya həvəskarları üçün cari il çox nikbin notlarla başlayıb. Bu nikbinlik günbəgün artmaqdadır. Elə bir tiraj olmur ki, onlarca evdə sevinc və həyəcan dolu “uddum!” sədaları eşidilməsin, elə bir həftə olmur ki, bir neçə həmvətənimiz avtomobil udmasın. Lotereya iştirakçıları başa çatmaqda olan qışı hələ uzun müddət xatırlayacaqlar. “Klassik Loto” lotereyasında Nissan “Sunny” avtomobillərini udan Seymur Əliyev, Samid Həsənov, Rauf Kərimov bu qışı hələ çox xatırlayacaqlar. Abdulməcid Abdullayev və Elçin Məlikov da “Binqo” lotereyasında udduqları Chevrolet “Aveo” avtomobillərinin sevincini yaşayırlar. Tovuz rayon sakini Mahir Ömərov və Şəmkir sakini Şükür Babayev isə “6/40” lotereyasında müvafiq olaraq, 26 min 800 manat və 22 min 700 manat məbləğində “Cek Pot”lara sahib olublar. Uduşlar artdıqca istehlakçılar arasında lotereyalar populyarlaşır və “Azərlotereya” dövlət şirkəti yeni-yeni layihələri lotereya həvəskarlarının ixtiyarına verir.

Ötən yazımızda biz oxucularımızı “Binqo+8” lotereyası haqqında məlumatlandırmışdıq. Mart ayının ilk zəriflik və gözəllik bayramı üçün nəzərdə tutulan bu lotereya ayın yeganə yeni layihəsi deyil. Mart ayında xalqımızın sevimli Novruz bayramında da “Azərlotereya” lotereyaseverləri yeni, maraqlı bir layihə ilə sevindirəcək. Mart ayının 21-də tirajı “Space” TV-də canlı yayımlanacaq “Bahar Sevincləri” lotereyası öz sadəliyi ilə seçilir. Biletin üzərində beş sətirdən ibarət lövhə əks olunub. Birinci turda biletin üfüqi sıralarından hər hansı biri, ikinci turda hər hansı ikisi, üçüncü turda hər hansı üçü, dördüncü turda hər hansı dördü və nəhayət, beşinci turda üfüqi sıraların beşi də tam dolmuş bütün biletlər uduşlu sayılırlar. Hər turun qalibi və ya qalibləri sanballı pul uduşları qazanacaqlar. Bundan başqa, əvvəla, bütün turlarda ilk “gözləyənlər” mükafatlandırılır, ikincisi, hər hansı turda istənilən uduşa düşmüş lotereya bileti oyunu sonadək davam etdirir və bütün uduşlar cəmlənir.




“Bahar Sevincləri” lotereyası daha bir özəlliyə malikdir. Məsələ burasındadır ki, burada əsas həyəcan həvəsləndirici turlarda yaşanır. Belə ki, əsas oyun başlanmazdan əvvəl 0-dan 9-dək nömrələnmiş şarların lototrondan çıxarılması ilə müəyyən edilmiş altı rəqəm lotereya biletinin nömrəsi ilə uyğun gələrsə, bilet Chevrolet “Captiva” avtomobili udur. Uduşlu nömrə satılmamış lotereya biletinə təsadüf etdiyi halda şarlar yenidən lototrona qaytarılır və yeni uduşlu nömrə müəyyən edilir. Başqa sözlə, Chevrolet “Captiva” avtomobili 100% uduşludur. Əsas turlar başa çatdıqdan sonra iştirakçılar daha iki dəfə avtomobil udmaq şansına malik olacaqlar. Əvvəlcə lotereya biletlərinin seriya nömrələri ilə Chevrolet “Aveo” avtomobili, ardınca isə Kia “Rio” avtomobilləri oynanılır. Yeri gəlmişkən, bu avtomobillər də 100% uduşludurlar. Həvəsləndirici turlarda da, uduşa düşmüş lotereya biletləri oyunu, əsas turlar da daxil olmaqla, sonadək davam etdirir və bütün uduşlar cəmlənir.

Novruz xonçasından bir şəkərbura və ya paxlavanın verdiyi sevinci bir anlığa təsəvvür edin. Bəs bu xonçadan sanballı pul və ya gözəl avtomobillər alsanız, onda necə? Novruz günü “Bahar Sevincləri”ndən sevinc payınızı alın!

## Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Hacıqabul Mədəniyyət və Turizm Şöbəsi 2014-cü il üçün tələb olunan maddələr üzrə

## AÇIQ TENDER ELAN EDİR

**Lot-1. Bərk inventarların alınması.**
**Lot-2. Maşın və avadanlıqların alınması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər Lot üzrə 100 manat məbləğində iştirak haqqını aşağıda döstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusu Hacıqabul Mədəniyyət və Turizm Şöbəsindən ala bilərlər.

**İştirak haqqı:**
**Lot-1 Bərk inventarların alınması.**
**Lot-2 Maşın və avadanlıqların alınması.**
**Təşkilat: Hacıqabul Mədəniyyət və Turizm Şöbəsi, Hacıqabul Rayon YXO**
**Hesab: AZ78AİİB32051019446300201163**
**VÖEN: 8100012061**
**Bank: Kapital Bank Hacıqabul filialı**
**Kodu: 200639**
**Müxbir hesabı AZ81NABZ01350100000003001944**
**S.W.İ.F.T.BİK AİİBAZ 2X**

İştirak haqqı heç bir halda gerı qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- Tenderdə iştirak etmək üçün yazılı müraciət;
- Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- Tender təklifi ( zərflərin açıldığı gündən sonra 30 bank günü qüvvədə olmalıdır);
- Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü qüvvədə olmalıdır)
- Azərbaycan Respublikasında vergilərə və digər icbarı ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;
- İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- İddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensial imkanı haqqında məlumat.

Sənədlər Azərbaycan dilində iki nüsxədə (əsli və surəti ) tərtib olunmalidir (xarici dildə olan tender təklifləri Azərbaycan dilində tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcək.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla) 15 aprel 2014-cü il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 21 aprel 2014-cü il saat 17:00-a qədər Hacıqabul Mədəniyyət və Turizm Şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır

İddiaçıların təklifləri 22 aprel 2014-cü il saat 11:00-da Hacıqabul Mədəniyyət və Turizm Şöbəsində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Ünvan:*** **Hacıqabul rayonu, Həmid Həmidov-1**
**Əlaqə telefonu: 021 20 4 29 77**

**Tender Komissiyası.**

## BİLDİRİŞ

Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası dərman preparatlarının və sarğı ləvazimatlarının təkliflər sorğusu üsulu ilə satınalanmasını həyata keçirir. Maraqlanan təşkilatlar (024) 27 6-02-31 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 06.03.2014-cü il tarixə qədər qəbul olunur.

**Mingəçevir şəhəri, AzDRES qəsəbəsi, Natavan küçəsi (Rayonlararası Doğum evi).**

**Tender Komissiyası.**

## Şuşa rayon İH-nin Şuşa Şəhər Kommunal Müəssisələri Kombinatı Bakı şəhər Suraxanı rayonu Ramana 450 qəsəbəsində abadlaşdırma işlərinin görülməsinə aid tender keçirir

**Lot-1. Abadlaşdırma işlərinin görülməsi**

Tenderdə iştirak etmək üçün iddiaçılar Lot üzrə 100 (yüz) manat məbləğində pul vəsaitini aşağıdakı hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu Tender Komissiyasından ala bilərlər.

**Bank: ABB Nərimanov filialı**
**Kodu: 805540**
**VÖEN:/int 9900001881**
**S .W. İ. F. T İBAZAZ 2X**
**Şif. Şuşa YXO**
**Hesab: N-Az 68İBAZ 3601001944759902206**
**VÖEN: 860000751**
**Şuşa şəh: KMK 148002022**
**Əlaqə tel: 050-559-94-44**
**055-261-03-33**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün 14 aprel 2014-cü il saat 17:00-a qədər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün müraciət;*
*—iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
*—iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (forma 1 və forma 2);*
*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*—analoji işlərdə təcrübəsi, iddiaçının potensial texniki və kadr imkanları haqqında rəsmi məlumat;*
*—iddiaçının tender təklifləri Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.*

Tender təklifi 2 nüsxədə (əsli və surəti) tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı ilə birlikdə 21 aprel 2014-cü il saat 17:00-a qədər ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə təqdim edilməlidir. Tender təklifi tender proseduru keçirildiyi tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır.

Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender proseduru keçirildiyi tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmaqla tender təklifi ilə birlikdə təqdim olunur. Bank təminatını tender təklifi zərfində təqdim etməyən iddiaçının tender təklifi etibarsız sayılır və qiymətləndirməyə buraxılmır.

İddiaçıların tender zərfləri 22 aprel 2014-cü il saat 15:00-da Şuşa Rayon İcra Hakimiyyətində açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## Zaqatala Rayon Mərkəzi Xəstəxanası

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 2 lot üzrə aparılır.**
**Lot-1. Bərk inventar**
**Lot-2. Digər maşın və avadanlıqların alınması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**Lot-1. 125 manat**
**Lot-2. 125 manat.**
**Əlaqələndirici şəxs: Əhmədov Rövşən**
**Telefon: 5-57-76**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

**Bank: Kapitalbankın Zaqatala rayon filialı**
**Kodu: 200394**
**VÖEN: 9900003611**
**M/h: 3928010000**
**Hesab: 32050019443960201139**
**VÖEN: 5100030091**
**AİİBAZ 2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün ərizə;*
*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*—tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*—tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*—iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank arayışı;*
*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*—iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 15 aprel 2014-cü il saat 17:00-a qədər, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 21 aprel 2014-cü il tarixdə saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 22 aprel 2014-cü il tarixdə saat 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## Masallı RİHB-nin Masallı şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi 2014-cü il üçün

## KOTİROVKA SORĞUSU ELAN EDİR

**Lot 1. Dəftərxana ləvazimatları və təsərrüfat xərcləri**
**Lot 2. Digər maşın və avadanlıqların alınması**
**Lot 3. Məktəbə inventarların alınması**
**Lot 4. Abadlaşma avadanlığı.**

Masallı RİHB-nin Masallı şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi 2014-cü il üçün təsdiq edilmiş xərclər smetasına əsasən yuxarıda göstərilən lotlar üzrə kotiroka sorğusu elan edir. İddiaçılar təklif edilən sənədləri təsdiq edilmiş şəkildə 28 mart 2014-cü il saat 17:00-a kimi təqdim etməlidirlər. Təklif zərfləri 31 mart 2014-cü il saat 10:00-da Masallı şəhəri, Talışxanov prospekti 84 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

Nəsimi Rayon Polis İdarəsi tərəfindən Ağayev İsmət Adiyeviçin adına verilmiş şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Reyestri tərəfindən Mənsumova Heyranə Elşad qızının adına verilmiş Bakı şəhəri, Nərimanov rayonu, Bakıxanov küçəsi-62, mənzil 161 ünvanına aid evin 249058 nömrəli qeydiyyat vəsiqəsi (kupçi) itdiyi üçün etibarsız sayılır.

Əliyev Elçin Feyruz oğlunun adına Yasamal rayonu, Kamal Rəhimov kuçəsi, ev N 30, mənzil N 77, N 0142777 çıxarış itdiyi üçün etibarsız sayılır.

Mərhum Məmmədova Xanımana Nəcəf qızının adına verilmiş Abşeron rayonu, Saray qəsəbəsi torpağa mülkiyyət hüququna dair JN-3409, kod 30800086 Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Mərhum Rəhmanov Kamil Həbib oğlunun adına Bakı şəhəri, Nəsimi rayonu, II mkr, H.B.Əliyev, ev N 17, mənzil N 51 ünvanının qeydiyyat vəsiqəsi (kupçi), texniki pasport və AZ N 072604 ölüm haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Mərhum Rəhmanov Kamil Həbib oğlu və Nuriyeva Mədinə Fəttah qızı aralarında bağlanmış İE N 303026 nikah haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır (Yasamal rayonu).

Şəmkir Mərkəzi Rayon Xəstəxanası dərman preparatlarının satınalınmasını təkliflər sorğusu üsulu ilə həyata keçirir. Təkliflər 4 mart 2014-cü il saat 11:00-da açılacaqdır. Tender Komissiyası.

Cəfərli Orxan Mərdan oğlunun adına GEEY EMGRAND-a məxsus 10 SD 891 maşının texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Aşurlu Elşən Kənan oğlunun adına 18.10.2010-cu il tarixli 77 N-li qərarı ilə Biləcəri bələdiyyəsi tərəfindən fərdi yaşayış evinin tikintisi üçün ayrılmış 770,5 kv.m torpaq sahəsinin sənədləri itdiyi üçün etibarsız sayılır.

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən 12.04.2006-cı il tarixdə Yunis Xalid oğlu Osmanovun adına Bakı şəhəri, Sabunçu rayonu, Bilgəh qəsəbəsində yerləşən bağ sahəsi üçün verilmiş qeydiyyat şəhadətnaməsi (Kod-0501016, JN-29021) itdiyi üçün etibarsız sayılır.

Xaçmaz rayonu, Qaraçay-Cek kəndində fərdi yaşayış evinə Nuriyeva Əminə Şahbala qızının adına verilmiş 236 inventar nömrəli texniki pasport və 211 reyestr nömrəli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, 8-ci mkr, Binəqədi yolu, ev 22, mənzil 54-ə Vəliyev Oruc Yaqubəli oğlunun adına verilmiş qeydiyyat vəsiqəsi (kupçi) itdiyi üçün etibarsız sayılır.

Ağakərimov Mikayıl Səfibəy oğlunun adına etibarnamə əsasında Quba Rayon İcra Hakimiyyəti “Arif” istehsalat-kommersiya mərkəzi tərəfindən Quba şəhəri, 33-cü məhəllə, 1.0 ha torpaq sahəsi üçün verilmiş reyestr nömrəsi 303011000192, qeydiyyat nömrəsi 280705256, 0009745 N-li çıxarış itdiyi üçün etibarsız sayılır.

TƏKRAR

## Yardımlı Rayon Təhsil Şöbəsi

## AÇIQ TENDER ELAN EDİR

**Tender 3 lot üzrə keçirilir:**
**1. Digər maşın və avadanlığın alınması**
**2. İnventarların alınması**
**3. Əsaslı təmir işlərinin satınalınması**

Tender İştirakçılarına təklif edilir ki, “Dövlət satınalınmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq yuxarıda göstərilən lotlar üzrə öz tender təkliflərini möhürlənmiş, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**Lot-1. 50 manat**
**Lot-2. 50 manat**
**Lot-3. 50 manat**
**Təşkilat: Yardımlı Rayon Təhsil Şöbəsi**
**VÖEN: 5600023671**
**Bank: Kapitalbankın Yardımlı filialı**
**Kodu: 200758**
**VÖEN: 9900003611**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*—tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*—tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
*—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*—iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*—iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun kesiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 9 aprel 2014-cü il saat 11:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 10 aprel 2014-cü il saat 18:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytaılacaqdır.

İddiaçıların təklifləri 11 aprel 2014-cü il tarixdə saat 10:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayələndələri iştirak edə bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

**Tender Komissiyası.**

TƏKRAR

## Azərbaycan Respublikası Təhsil Nazirliyi Qəbələ Rayon Təhsil Şöbəsi

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir.**
**Lot-1. Məktəblərin əsaslı təmiri.**

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq göstərilən tender təkliflərini möhürlənmiş ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, maliyyə vəziyyəti. Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçılarının lazımi texniki və maliyyə imkanları olmalıdır.

Tenderlə əlaqədar məlumat almıq üçün maraqlananlar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Şirinov İldırım Nurəddin oğlu**
**Telefon: 02420-5-22-23**
**Ünvan: Qəbələ rayonu, H.Əliyev prospekti-34. Qəbələ RTŞ**

Tenderdə iştirak etmək istəyənlər Lot - 1 üçün 120 manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Qəbələ rayonu, H.Əliyev prospekti-34 ünvanında yerləşən Qəbələ RTŞ-dən ala bilərlər.

**Təşkilat: Qəbələ Rayon Təhsil Şöbəsi**
**H/h: AZ90CTRE00000000000002121831**
**VÖEN: 4400128401**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T. BİK CTREAZ 22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*—vergilərə, sosial sığortaya və digər borcların olmaması barədə arayış;*
*—tender təklifi təminatı (zərflər açıldığı gündən 30 bank günü qüvvədə olmalıdır);*
*—tender təklifləri qiymətinin 1 faizi həcmində bank zəmanəti (zərflər açıldığı gündən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*—iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında arayış;*
*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi və qeydiyyatdan keçdiyi ərazi və rekvizitləri.*

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 2 aprel 2014-cü il saat 18:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 10 aprel 2014-cü il saat 11:00-a qədər Qəbələ Rayon Təhsil Şöbəsinə (Qəbələ rayonu, H.Əliyev prospekti-34) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender zərfləri 11 aprel 2014-cü il saat 11:00-da Qəbələ Rayon Təhsil Şöbəsinin binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri açılışda iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## ALLAH RƏHMƏT ELƏSİN

**Professor Məmməd Yaqubov, professor Hamlet Quliyev, dosent Əli Yaqubov və dosent Şakir Yusubov BDU-nun diferensial və inteqral tənliklər kafedrasının dosenti Arif İsmayılova, anası**
**ZƏRQƏLƏM xanımın**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Əli, Elşad Mahmudovlar və Rauf Cəfərov Əflatun Mahmudova, dayısı**
**AŞURUN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Bakı Şəhər Baş Səhiyyə İdarəsinin rəisi Elmira Əliyeva və idarənin kollektivi iş yoldaşları Gülnarə Kərimovaya, atası**
**SƏTTARIN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Baş redaktor Teymur ƏHMƏDOV**

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **539-26-18;**
Reklam və elan xidməti: **441-20-23.**



● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail: resp@azdata.net**
**www.respublica-news.az**

*“Respublika” qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** **0240**
**Tiraj** **6206**
**Sifariş** **236**
Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi Nəriman CAVADOV**

● **Çapa imzalanmışdır 27.02.2014**